

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 169 (7424) / Çərşənbə axşamı, 17 sentyabr 2019-cu il




## Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasimi keçirilib

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər

Bax: Səh.2

Bax: səh. 6



## Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri

## Gələn il polo üzrə Avropa çempionatı Azərbaycanda təşkil olunacaq

*Komandamız 7-ci arena polo üzrə dünya kubokunun qalibi olub*



Bax: səh. 11

Bax: səh. 12



## Nuru paşa - Azərbaycan xalqının qəlbini fəth edən müzəffər komandan

Bax: səh. 7



*Əli Əhmədov:*

## Dövlətimiz gənc nəslin layiqli təhsil alması naminə geniş imkanlar yaradıb

Bax: səh. 11



## Azərbaycanın xanlıqlar dövrü haqqında kitab Rusiya kitabxanalarında


13 Bakı Ali Neft Məktəbi yeni tədris ilinə uğurla başlayır

17 BSU-da "Bilik Günü" təntənəli şəkildə qeyd olundu

27 TAP-ın 89,3 faizi tamamlanıb

# Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər









**Sentyabrın 16-da Bakıda, Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva və ailə üzvləri açılış mərasiminə baxıblar.

Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova da açılış mərasimində olub.

Mərasimdə əvvəlcə iştirakçı ölkələrin dövlət bayraqları təqdim edildi.

Açılış mərasimində çıxış edən Azərbaycanın Gənclər və İdman naziri Azad RƏHİMOV dedi:

- Hörmətli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Hörmətli Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva.

Hörmətli Beynəlxalq Gimnastika Federasiyasının prezidenti cənab Morinari Vatanabe.

Beynəlxalq aləmdə idman tədbirlərinin yüksək səviyyəli təşkilatçısı kimi tanınan Azərbaycanda bu gün daha bir nüfuzlu idman yarışı keçirilir. On dörd ildən sonra Azərbaycan bədii gimnastika üzrə 37-ci dünya çempionatına ev sahibliyi edir.

2014-cü ildə istifadəyə verilən bu möhtəşəm arena dövlətimizin başçısı İlham Əliyevin ümumilikdə idmana göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Gimnastika növləri üzrə Bakıda dünya kubokları, Avropa və dünya çempionatları yüksək səviyyədə keçirilir. Azərbaycan Gimnastika Federasiyası ardıcıl olaraq iki il dünyanın ən yaxşı federasiyası adına layiq görülüb. Təsadüfi deyil ki, Beynəlxalq Gimnastika Federasiyası bu mötəbər yarışın təşkilini məhz ölkəmizə həvalə edib.

Müasir Azərbaycan gimnastikasında olan bugünkü nailiyyətlər ölkəmizin Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Mehriban xanımın rəhbərlik etdiyi yerli təşkilat komitəsinin hər bir üzvünə, yerli və xarici könüllülərə minnətdarlığımızı bildiririk.

Sözsüz ki, yarışın Tokio Olimpiya Oyunlarına təsnifat xarakteri daşıması, 61 ölkənin 300-dən çox idmançısının mükafatlar uğrunda mübarizə aparması dünya çempionatının gərgin mübarizə şəraitində keçəcəyinə, maraqlı və unudulmaz olacağına əminlik yaradır. İdmançılara isə yaranmış bu imkandan bəhrələnərək layiqli mübarizə aparmağı və qələbə qazanmalarını arzu edirəm.

Diqqətinizə görə çox sağ olun.

* * *



Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari VATANABE çıxış edərək dedi:

- Beynəlxalq Gimnastika Federasiyasının prezidenti olaraq sizi burada - Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatında salamlamaqdan məmnunluq duyuram. Bu gündən etibarən yeddi gün ərzində dünyanın müxtəlif ölkələrindən olan bədii gimnastlar "Tokio 2020" Olimpiya Oyunlarına lisenziya qazanmaq uğrunda mübarizə aparacaqlar. Onlar həm də gözəllik üçün yarışacaqlar. Mən inanıram ki, bu, tamaşaçılar üçün gözəl musiqi və əsrarəngiz bədii gimnastika çıxışlarının harmoniyasından həzz almaq üçün böyük bir imkandır.

Azərbaycan Gimnastika Federasiyasına, xüsusilə də federasiyanın prezidenti Mehriban xanım Əliyevaya, Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimova, tədbirin bədii gimnastika üzrə səfiri Yana Batırşinaya, könüllülərə və çempionatı bu cür gözəl səviyyədə təşkil etməkdə əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Əziz gimnastlar, əminəm ki, siz bədii gimnastikanın gözəlliyini və mükəmməlliyini dünyaya nümayiş etdirəcəksiniz.

* * *

Mərasimdə Beynəlxalq Gimnastika Federasiyasının sentyabrın 13-də vəfat edən, iyirmi il bu quruma rəhbərlik etmiş sabiq prezidenti Bruno Qrandinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Sonra Azad Rəhimov, Morinari Vatanabe və dünya çempionatının səfiri, bir neçə dəfə dünya çempionu, Olimpiya Oyunlarının mükafatçısı, rusiyalı gimnast Yana Batırşina çempionatı açıq elan etdilər.

Tanınmış müğənni və bəstəkar, Əməkdar artist Tünzalə Ağayeva Azərbaycanın dövlət himnini akapella üslubunda ifa etdi.

Daha sonra hakimlərin, gimnastların və məşqçilərin adından and içildi. Misir Gimnastika Federasiyasının nümayəndəsi Sarah Qhoneim hakimlər, azərbaycanlı gimnast Zöhrə Ağamirova atletlər, Meksika yığma komandasının məşqçisi Karalina Rangel isə məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və idmanda ədalət prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olduğunu bir daha xatırlatdı.

Dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış "Birinci ol" mahnısını ifa etdi.

Mərasimdə Şərq motivləri əsasında səhnələşdirilmiş "Şərq nağılı" şousu təqdim olundu. Şouda bədii gimnastikanın müxtəlif növləri üzrə 200-ə yaxın gimnast və onların məşqçiləri iştirak etdilər. Bu şouda səhnəyə çıxan ən kiçik gimnastın doqquz yaşı var.

Şoudan sonra məşhur müğənni, Xalq artisti, hit mahnıların ifaçısı Emin Ağalarov sevilən mahnıları ilə tamaşaçıların qəlbini fəth etdi.

Beləliklə, Azərbaycan daha bir unudulmaz açılış mərasimi ilə adını dünya gimnastika yarışlarının tarixinə yazdı.

Qeyd edək ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 61 ölkədən 300 gimnast 9 dəst medal uğrunda mübarizə aparır.

"Nağıllar gerçəkləşəcək" devizi ilə təşkil olunan dünya çempionatına Azərbaycan 9 gimnastla qatılıb. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Sentyabrın 22-dək davam edəcək çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) Tokio Olimpiadasına lisenziya əldə edəcəklər. Qrup hərəkətləri komandalarına gəldikdə isə, ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Çempionatda çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Olimpiadaya vəsiqə qazanacaq.





# Dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN VİTSE-PREZİDENTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək əməkdaşlığımızın bütün sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev yüksək səviyyəli siyasi əlaqələrə uyğun olaraq iqtisadi əməkdaşlığımızın da hərtərəfli inkişaf etdiyini dedi. Azərbaycan-Türkiyə tərəfdaşlığının son illərdə daha da möhkəmləndiyini bildirən dövlətimizin başçısı ölkələrimizin həyata keçirdiyi birgə irimiqyaslı layihələrin, xüsusilə, enerji sahəsi ilə bağlı layihələrin bölgə üçün böyük önəm daşıdığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda Türkiyənin xeyli sayda orta və kiçik müəssisələrinin fəaliyyətinin də iqtisadi əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyini dedi və ticarət dövriyyəsinin 20 faizdən çox artaraq 3 milyard dollardan çox həcmə çatmasından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı Bakıda keçirilən hökumətlərarası komissiyanın səmərəli nəticələr verəcəyinə əminliyini ifadə etdi və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Vitse-prezident Fuat Oktay, ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimizin dövlət başçıları arasında olan dostluq münasibətlərinin əlaqələrimizin inkişafındakı rolunu xüsusi qeyd etdi. Vitse-prezident Fuat Oktay Bakının işğaldan azad edilməsinin 101-ci ildönümü münasibətilə təbriklərini çatdırdı və paytaxtımızın daha da gözəlləşdiyini qeyd edərək Azərbaycanın bundan sonra da inkişaf yolunda olacağına əminliyini ifadə etdi.

Türkiyə vətəndaşlarına münasibətdə viza rəsmiləşdirilməsi tələbinin aradan qaldırılmasına görə təşəkkürünü ifadə edən qonaq bunun iki ölkə arasında turizm və biznes sahəsində əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyini bildirdi.

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə əlaqədar qəti və birmənalı mövqeyinin olduğunu xatırladaraq, bu mövqeyin bütün beynəlxalq səviyyələrdə davamlı olaraq ifadə edildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

# Azərbaycan Latviyanın regionda strateji tərəfdaşıdır

## Prezident İlham Əliyev Latviyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Daynis Qarançsın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Daynis Qarançs fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Daynis Qarançs etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu ifadə edərək özünün Latviyaya və Latviya prezidentlərinin ölkəmizə səfərlərinin ikitərəfli münasibətlərimizin genişlənməsində rolunu qeyd etdi. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığa toxunaraq ticarət dövriyyəsinin artırılması, investisiya, turizm və digər sahələrdə əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı Daynis Qarançsın səfir kimi fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin daha da inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Daynis Qarançs Azərbaycanın Latviyanın regionda strateji tərəfdaşı olduğunu dedi. O, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək inkişafını qeyd edərək müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini bildirdi. Daynis Qarançs iqtisadi əməkdaşlığın genişlənməsi və ticarət dövriyyəsinin artırılması üçün hökumətlərarası komissiyanın mühüm rol oynadığını söylədi. Ölkələrimiz arasında əməkdaşlığın inkişafında regionlararası əlaqələrin vacibliyini qeyd edən səfir Azərbaycanın və Latviyanın 14 şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulduğunu dedi. O, mədəniyyət, elm, təhsil kimi sahələrdə də Azərbaycanla Latviya arasında səmərəli əməkdaşlığın olduğunu bildirdi.

Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə toxunuldu, Aİ üzv ölkəsi kimi Latviyanın ölkəmizin bu təşkilatla əməkdaşlığının inkişafına verdiyi dəstək qeyd olundu.

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES MANUEL LOPES OBRADORA

*Hörmətli cənab Prezident,*

*Meksika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.*

*İnanıram ki, Azərbaycan ilə Meksika arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.*

*Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Meksika xalqına daim sülh və rifah diləyirəm.*

*Hörmətlə,*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 12 sentyabr 2019-cu il.

## Birinci vitse-prezident Mehriban Əliyeva şagird və tələbələri Bilik Günü münasibətilə təbrik edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva şagird və tələbələri 15 sentyabr - Bilik Günü münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikin mətni birinci xanımın rəsmi "Instagram" səhifəsində paylaşılıb.

"Əziz məktəblilər, tələbələr. Hörmətli müəllimlər və valideynlər.

Sizi bu əziz, sevimli bayram - Bilik Günü münasibətilə təbrik edirəm.

Bu, yeni dərs ilinin, böyük, məsuliyyətli və çox maraqlı işin başlanğıcıdır. Qoy, yeni dərs ili sizə təhsilinizdə böyük uğurlar, maraqlı görüşlər və ixtiralar gətirsin, hər bir məktəbli, tələbə və müəllim üçün uğurlu və məhsuldar olsun. Sizə xoşbəxtlik, möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzulayıram.

Əziz dostlar, Bilik Gününüz mübarək!", - deyə təbrikdə bildirilir.

# *Prezident İlham Əliyev:* Çox şadam ki, uşaqlar yeni dərs ilini yeni məktəbdə başlayırlar

## Prezident İlham Əliyev Bakının Binəqədi rayonundakı 300 nömrəli məktəbin yeni tədris kompleksinin açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 16-da Bakının Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, təhsil müəssisəsinin direktoru İradə Xəlilova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, məktəbin yeni tədris kompleksində ən müasir şərait yaradılıb. Burada şagirdlər



müxtəlif laboratoriyalarda əyani təlimlər keçərək biliklərini artıra, idman zalında idmanın müxtəlif növləri ilə məşğul ola biləcəklər.

Bu təhsil ocağının binası 1932-ci ildə tikilib. O zaman məktəb 400 şagird yerlik olub. Hazırda isə burada yeni istifadəyə verilən tədris kompleksi ilə birlikdə



ümumilikdə 1944 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 138 müəllim heyəti məşğul olur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni tədris kompleksinin idman zalında, hərbi otaqda, ekosinifdə, informatika otağında, kimya kabinetində, ayrı-ayrı sinif otaqlarında və yeməkxanada yaradılan şəraitlə tanış oldular, müəllimlər və şagirdlərlə söhbət etdilər, onlara yeni tədris ilində uğurlar arzuladılar.

Məlumat verildi ki, ötən tədris ilində bu təhsil müəssisəsini bitirən məzunların 77 faizi ali məktəblərə qəbul olub. Ümumilikdə, hər il bu məktəbin məzunlarının arasında 600-dan çox bal toplayan və ölkəmizin ali təhsil ocaqları ilə yanaşı, xarici dövlətlərin nüfuzlu universitetlərinə də qəbul olan məzunlar var. Məktəbin şagirdləri bir çox bilik, idman yarışlarında, olimpiadalarda müxtəlif medallar qazanaraq, təhsil ocağını layiqincə təmsil ediblər. Yeni təhsil kompleksi bu uğurların daha da artmasına imkan verəcək. Çünki burada şagirdlər geniş, işıqlı, hər cür zəruri tədris avadanlığı ilə təchiz olunan otaqlarda elmin sirlərinə yiyələnə, müəllimlər isə müasir şəraitdə şagirdlərə dərs deyə biləcəklər.



Hər bir dövlətin inkişafı və gələcəyi onun təhsil səviyyəsi ilə bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə bu cür qısa müddət ərzində bu sayda məktəb tikilməyib. Bu istiqamətdə atılan addımlara Heydər Əliyev Fondunun töhfələri də olduqca mühümdür. Fondun bu sahədə həyata keçirdiyi layihələrin coğrafiyası və miqyası ilbəil daha da genişlənir.







Məktəbdə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva müəllimlər və valideynlərlə görüşüb onları təbrik etdilər.

Birinci sinif şagirdinin nənəsi Fəridə Hüseynova: Əziz Prezidentimiz, hörmətli Mehriban xanım, sizi burada görməyimizə çox şadıq. Mənim nəvəm də bu məktəbin birinci sinfinə qəbul olub. Mən öz adımdan, valideynlər adından Sizə təşəkkür edirəm ki, övladlarımıza bu cür gözəl şərait yaratmısınız. Allah Sizin canınızı sağ, ömrünüzü uzun eləsin.

Prezident İlham Əliyev: Çox sağ olun. Mən də çox şadam ki, uşaqlar yeni dərs ilini yeni məktəbdə başlayırlar. Müəllimlərin də iş yeridir. Valideynlər də, uşaqlar da, müəllimlər də razıdırlar. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, xalqımız razı olsun, xalqımızın yaşayış səviyyəsi gündən-günə qalxsın, uşaqlar gözəl məktəblərdə oxusunlar.

Son illərdə məktəb tikintisi istiqamətində çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, son illərdə həm Bakı şəhərində, həm bütün bölgələrdə 3200-dən çox məktəb tikilib və ya təmir olunub. Bu il 80-dən çox məktəb yenidən tikiləcək və hələ də təmirsiz olan məktəblərdə gələcək illərdə mütləq təmir işləri aparılacaq.

Bu məktəb doğrudan da göz oxşayır. Bütün lazımi şərait yaradılıb, avadanlıqlarla təchiz edilib. Mənə verilən məlumata görə, məktəbin əvvəlki vəziyyəti çox acınacaqlı idi. Yəni, burada müəllimlər üçün də böyük çətinliklər var idi, uşaqlar da təmirsiz, yararsız vəziyyətdə olan məktəbdə oxuyurdular. İndi bu şərait yaradıldı. Amma bu, işin bir hissəsidir. Əlbəttə, əsas məsələ odur ki, gözəl şəraitlə bərabər, təhsilin səviyyəsi yüksək olsun və burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tuta bilsinlər. Ona görə təhsilin səviyyəsinin qaldırılması bu gün gündəlikdə duran vacib məsələlərdəndir və bu istiqamətdə də nəticələr var.

Onu da bildirməliyəm ki, son illərdə müəllim peşəsini seçənlərin sayı artır. Müəllim Azərbaycanda həmişə çox hörmətli peşə olub. Həmişə müəllimə böyük hörmət olub. Bu gün isə bu, daha da yüksək səviyyədədir. Müəllimlərin əməkhaqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması bu nəticəyə gətirib çıxarır ki, müəllim olmaq istəyənlərin sayı əvvəlki illərlə müqayisədə böyük dərəcədə artıb. Bir daha uşaqları, valideynləri, müəllimləri yeni məktəbin tikintisi ilə əlaqədar təbrik edirəm.

⇨ Davamı 5-ci səhifədə

# *Prezident İlham Əliyev:* Çox şadam ki, uşaqlar yeni dərs ilini yeni məktəbdə başlayırlar

**Prezident İlham Əliyev Bakının Binəqədi rayonundakı 300 nömrəli məktəbin yeni tədris kompleksinin açılışında iştirak edib**

⇨ Əvvəli 4-cü səhifədə

Məktəbin kimya müəllimi Yaqut Mönsümova: Möhtərəm Prezident, icazə verin, mən də kollektivimiz adından Sizə minnətdarlığımızı çatdırım. Sözün düzü, minnətdarlığımızı çatdırmaq üçün söz tapa bilmirik. Cənab Prezident, yeni məktəblər tikirsiniz, təmir etdirirsiniz. Bu, təhsilə olan münasibətdir. Bu, dövlətə olan münasibətdir. Sizin tapşırığınıza əsasən tikilmiş bu yeni məktəb binası “Bilik günü”ndə bizə ən gözəl hədiyyədir. Biz hər zaman Sizin qayğınızı hiss edirik. Belə gözəl, möhtəşəm məktəb binasının istifadəyə verilməsi biz müəllimləri ürəkdən sevindirir, daha yaxşı işləməyə həvəsləndirir, məsuliyyətimizi daha da artırır. Mən məktəbimizdəki kimya laboratoriyasını, kabinetləri gördüm. Düzü əvvəllər belə laboratoriyaları, kabinetləri biz ancaq filmlərdə görürdük. İndi bu, Azərbaycanın reallığıdır.

Bilirik, dünyada bir çox münaqişələr, problemlər baş verir. Azərbaycanımızda Sizin sayənizdə sabitlikdir, əmin-amanlıqdır. Bu, Sizin uzaqgörən siyasətinizin nəticəsidir. Əldə olunan uğurlarda əzizimiz, çox hörmətli Mehriban xanımın da böyük xidmətləri var. Mehriban xanım, biz Sizi dünyalar qədər sevirik, sevgimizi çatdırmaq üçün sözlər acizdir. Bir daha çox sağ olun ki, dəyərli vaxtınızı ayırıb bizimlə görüşə gəlmisiniz.

Cənab Prezident, bu gözəl məktəbə, ümumiyyətlə, gördüyünüz bütün işlərə görə Sizə kollektivimiz adından minnətdarlığımızı bildiririk. Allah Sizi, əzizimiz Mehriban xanımı, bütün ailənizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun. Xoş sözlərə görə təşəkkür edirəm. Sizə bir daha uğurlar arzulayıram, sizi bir daha təbrik edirəm. Əminəm ki, burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tutacaqlar və dövlətimiz, xalqımız üçün böyük işlər görəcəklər, bizim ümumi inkişafımıza öz töhfələrini verəcəklər.

Sonda xatirə şəkli çəkdirildi.









# Azərbaycan-Böyük Britaniya tərəfdaşlıq əlaqələri zəngin tarixə malikdir

PREZİDENT İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL EDİB

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Layl Şarpın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Ceyms Layl Şarp fəxri qarovul dəstəsinin qarşısından keçdi. Ceyms Layl Şarp etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan-Böyük Britaniya tərəfdaşlıq əlaqələrinin zəngin tarixə malik olduğunu və uzun illər uğurla inkişaf etdiyini dedi, keçən ilin aprelində Böyük Britaniyaya səfərini və səfər zamanı aparılan səmərəli müzakirələrin əməkdaşlığımızın inkişafında rolunu qeyd etdi. İki ölkə arasında əlaqələrin müxtəlif sahələri əhatə etdiyini vurğulayan Prezident İlham Əliyev enerji sahəsində 25 illik dövr ərzində BP şirkəti ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi və bu əməkdaşlığın uzunmüddətli perspektivdə inkişaf etməkdə davam edəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev səfir Ceyms Layl Şarpa diplomatik fəaliyyətində uğurlar arzuladı.

Səfir Ceyms Layl Şarp yaxın günlərdə 25 illiyi qeyd olunacaq “Əsrin müqaviləsi” çərçivəsində əlaqələrin ölkələrimiz arasında geniş enerji əməkdaşlığının uğurlu nümunəsi olduğunu bildirdi. Səfir ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsinin və qeyri-neft sektoru, o cümlədən bərpa olunan enerji, kənd təsərrüfatı, səhiyyə, elm-təhsil və digər sahələrdə inkişafı üçün əlverişli imkanların olduğunu nəzərə çatdırdı. Ceyms Layl Şarp səfir kimi fəaliyyəti dövründə ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Prezident İlham Əliyev, eyni zamanda, qeyri-neft sektorunda əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirərək Böyük Britaniyanın kiçik və orta biznes dairələrinin də Azərbaycanda fəaliyyəti üçün geniş imkanların olduğunu vurğuladı.

Görüşdə regional gündəlikdə duran və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.





# Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri







**Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şamaxı və İsmayıllı rayonlarında səfərdə olub.**

Ölkənin bütün regionları kimi Şamaxı rayonunda da abadlıq, quruculuq və yenidənqurma işləri uğurla davam edir. Rayonda bir-birinin ardınca mühüm əhəmiyyətli iqtisadi və sosial obyektlər istifadəyə verilir. Onlardan biri də Şamaxının Məlikçobanlı kəndində yeni tikilmiş Gülağa Ağayev adına tam orta məktəbin binasıdır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva məktəbin açılışında iştirak ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbdə yaradılan şəraitlə tanış oldu.

Mehriban Əliyeva: Məlikçobanlı kəndində bir məktəb var?

Direktor Səftər Heydərov: Bəli, bir məktəb var.

Mehriban Əliyeva: Neçə şagird yerlik?

Səftər Heydərov: 360 şagird yerlik. 1976-cı ildə tikilmiş məktəb idi. İstismara tam yararsız idi.

Mehriban Əliyeva: Zəlzələ nəticəsində bir az da yararsız vəziyyətə düşdü.

Səftər Heydərov: Bəli.

Mehriban Əliyeva: Sakinlər tərəfindən müraciət olundu.

Səftər Heydərov: Çox sağ olun, Sizə müraciət etdik. Sizin tapşırığınız əsasında 3 mərtəbədən ibarət 460 şagird yerlik bina tikilib, bütün inventar və avadanlıqlarla təchiz edilib. Ərazi yaşıllaşdırılıb.

Mehriban Əliyeva: Yəqin şagirdlərin sayı da artıb.

Səftər Heydərov: Bəli. Başqa məktəbdə oxuyan şagirdlərimiz var idi. Yeni vəziyyəti görüb çoxu qayıdıb gəlib.

Mehriban Əliyeva: Yeni tədris ilinin başlanması və əlbəttə, yeni gözəl məktəbin açılması münasibətilə valideynləri və şagirdləri mənim adımdan təbrik edin. Mənim böyük hörmətimi və salamlarımı onlara çatdırın.

Səftər Heydərov: Çox sağ olun.

Qeyd edək ki, Heydər Əliyev Fondu təhsil sahəsində "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələrini həyata keçirir. Bu layihələrin məqsədi ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, dövlətin təhsil siyasətinin həyata keçirilməsinə dəstək göstərməkdir. Hazırda respublikada 4447 məktəb fəaliyyət göstərir. Bu il ümumilikdə ölkə üzrə 25 yeni məktəb binasının tikintisi, 9 məktəbin əsaslı, 253 məktəbin cari təmiri, 24 rayonda isə 3520 şagird yerlik 50 modul tipli məktəbin istifadəyə verilməsi nəzərdə tutulur.

Bu müasir təhsil müəssisəsinin istifadəyə verilməsi yeni dərs ili ərəfəsində Məlikçobanlı kəndinin sakinlərinə ən gözəl hədiyyədir.

### Birinci vitse-prezident Mehriban Əliyeva Şamaxı Cümə məscidini ziyarət edib





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva sentyabrın 14-də Şamaxı Cümə məscidini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, məscidin imamı Mərhəmət Mustafayev ziyarətə gələnlərin bu müqəddəs ocağın yenidən bərpa olunmasını minnətdarlıqla xatırladıqlarını bildirdi.

Mehriban Əliyeva: Buraya xaricdən turistlər çox gəlir?

Mərhəmət Mustafayev: Çox gəlirlər, gündə təxminən 500 nəfər.

Mehriban Əliyeva: Hansı ölkələrdən?

Mərhəmət Mustafayev: Bütün Avropadan, Səudiyyə Ərəbistanından, Amerikadan gələnlər var. Allah cənab Prezidentdən razı olsun.

Tarixin müxtəlif dövrlərində, təbii fəlakətlərə, repressiyalara və dağıntılara məruz qalmış Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir edilib. Prezident İlham Əliyev Fondun bu təşəbbüsünə dəstək olub, Azərbaycan - Şərq memarlığının incisi olan bu abidəyə ikinci həyat bəxş edib, xalqımızın əsrlərlə formalaşan zəngin irsinin və mədəniyyətinin qorunmasına, gələcək nəsillərə ötürülməsinə töhfə verib. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Prezident İlham Əliyev məscidin açılışında iştirak edib. Beləliklə, bu məscid təkcə Şamaxı sakinlərinin deyil, ölkəmizə gələn qonaqların da ziyarət etdiyi müqəddəs məkanlardan biridir.

Mehriban Əliyevaya müqəddəs Qurani-Kərim hədiyyə edən məscidin imamı Mərhəmət Mustafayev dedi:

-Sizi Azərbaycanın, Şamaxının bu qədim məscidində salamlamaqdan çox böyük şərəf duyuram. Allah sizlərdən razı olsun. Burada sizlərin çox böyük zəhməti var. Allah cənab Prezidentdən razı olsun. Allahın kitabını, İnşallah, Sizə hədiyyə edirəm. Allah Sizi hifz eləsin.

Mehriban Əliyeva: Çox sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

⇨ Davamı 7-ci səhifədə







# Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri

⇨ Əvvəli 6-cı səhifədə

### Şamaxıda zəlzələdən qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən evdə yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 14-də Şamaxıya səfəri çərçivəsində şəhərin Şirvanşah İbrahim küçəsi 26 ünvanında yaşayan Hicran İsmayılovaya məxsus, bu il fevralın 5-də və 6-da baş verən zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində Heydər Əliyev Fondu tərəfindən inşa edilən evdə yaradılan şəraitlə tanış olub.

Mehriban Əliyeva: Sizi görməyə çox şadam.

Hicran İsmayılova: Çox sağ olun, Allah razı olsun.

Mehriban Əliyeva: Sağ olun, bir daha xoş gördük.

Hicran İsmayılova: Allah Sizdən razı olsun.

Mehriban Əliyeva: Bu ev Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub.

Hicran İsmayılova: Bəli. Siz bizi evlə təmin etmisiniz.

Mehriban Əliyeva: Qısa zamanda inşa edildi.

Anar Ələkbərov: Mehriban xanım, biz bu evi Sizin tapşırığınızla iki ay ərzində tikib təhvil vermişik.

Hicran İsmayılova: Çox sağ olun Mehriban xanım.

Qeyd edək ki, həmin zəlzələ zamanı Şamaxı ilə yanaşı, İsmayıllı və Ağsu rayonlarında da fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Təbii fəlakətdən sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən zəlzələnin fəsadlarının dərhal aradan qaldırılmasına başlanıldı. Bu məqsədlə dövlətimizin başçısının imzaladığı müvafiq Sərəncamla Prezidentin Ehtiyat Fondundan vəsait ayrıldı. Prezident İlham Əliyevin sentyabrın 12-də və 13-də imzaladığı sərəncamlara əsasən isə Ağsu və Şamaxı rayonlarında yaşayış evlərinə dəyən ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə bu rayonların hər birinə 2 milyon manat vəsait ayrıldı.





Xatırladaq ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri də zəlzələdən dərhal sonra təbii fəlakətdən zərərçəkən ərazilərdə olub, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə alıblar.

### Şamaxıda Ulu Öndərin abidəsini ziyarət

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva sentyabrın 14-də ulu öndər Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.

AZƏRTAC xəbər verir ki, burada rayon sakinləri ilə görüşən Birinci vitse-prezident Mehriban ƏLİYEVA dedi:

-Salam, xoş gördük. Şamaxı rayonunda olmaqdan, sizi görməkdən çox şadam.

Birinci vitse-prezident Şamaxıya bu dəfə Prezident İlham Əliyevin tapşırığı ilə səfər etdiyini vurğulayaraq bildirdi:

- Bilirsiniz ki, cənab Prezident zəlzələdən dərhal sonra - fevralın 7-də Şamaxıya səfər etdi, vəziyyətlə tanış oldu, lazımi göstərişlər verdi və maliyyə vəsaiti ayrıldı. Mən indi görürəm ki, işlər yaxşı gedir. Üç rayon üzrə təxminən 547 fərdi ev tam yararsız vəziyyətdə idi. Onların yarısından çoxu artıq inşa olunub və insanların istifadəsinə verilib. Bərpa işləri gedir. Ümidvaram ki, dövlət bu təbii fəlakətin nəticələrini qısa zamanda tamamilə aradan qaldıracaq. Heydər Əliyev Fondu da bu işlərdə iştirak edir. Hər üç rayonda - Şamaxı, Ağsu və İsmayıllıda əhalinin xahişi nəzərə alınaraq yeni məktəblər tikilib, tibb məntəqələrində təmir işləri aparılıb. Mən sizinlə görüşməyə çox şadam.

Sakinlər: Çox gözəl. Biz də Sizin gəlişinizə çox şadıq.

Mehriban Əliyeva: Sizi salamlayıram və cənab Prezidentin də böyük salamlarını sizə çatdırıram.

Sakinlər: Çox sağ olsun. Bizim də salamlarımızı cənab Prezidentə çatdırın.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin təşəbbüsü ilə 2004-cü ildən bəri respublikamızın regionlarının inkişafı üçün kompleks tədbirlərin həyata keçirildiyini və Şamaxı rayonunda da bu istiqamətdə silsilə tədbirlərin uğurla reallaşdırıldığını vurğuladı. O, Azərbaycanda dövlət siyasətinin sosialyönümlü olduğunu və bu çərçivədə abadlıq işlərinin aparılmasının, təhsil müəssisələrinin, uşaq bağçalarının və səhiyyə obyektlərinin inşası və yenidən qurulmasının da başlıca hədəflərdən biri olduğunu bildirdi. Birinci vitse-prezident Mehriban Əliyeva Şamaxı rayonunun da inkişafının daim diqqət mərkəzində saxlanacağını dedi və rayon sakinlərinə uğurlar arzuladı.

Şamaxılılar ümumi amallar naminə bundan sonra da səylərini əsirgəməyəcəklərini vurğuladılar, Prezident İlham Əliyevə xüsusi salamlarının çatdırılmasını xahiş etdilər.

⇨ Davamı 8-ci səhifədə





# Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri





⇨ Əvvəli 7-ci səhifədə

### Şamaxının Muğanlı kəndində zəlzələdən qəzalı vəziyyətə düşmüş evin yerində yeni ev inşa olunub

Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şamaxı rayonunun Muğanlı kənd sakini Zamiq Səfərova məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa olunan evə baxıb.

Mehriban Əliyeva: Xoş gördük, sizi salamlamağa çox şadam. Bu balacalar sizin nəvələrinizdir? Nə gözəl qızlardır.

Zamiq Səfərovun xanımı: Xoş gəlmisiniz. Allah Sizə cansağlığı versin.

Mehriban Əliyeva: Fevralın 5-də zəlzələ oldu, 7-də Şamaxıya Prezident gəldi və vəziyyətlə tanış oldu. Dərhal göstərişlər verdi, maliyyə vəsaiti ayrıldı. Mən çox şadam ki, yararsız, yeni, qəzalı binaların demək olar, yarısı artıq yenidən tikilərək istifadəyə verilib.

Səfərovlar ailəsi ən çətin anlarda onların yanında olmalarına və zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması üçün göstərdikləri köməyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

### Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllının Diyallı kəndində zəlzələdən qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən evdə olub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 14-də Şamaxı rayonuna səfərini başa çatdıraraq İsmayıllı rayonuna gəlib.



Bu ilin fevralında baş verən zəlzələ İsmayıllı rayonuna da ziyan vurub. Dövlətimizin başçısı bu rayonda da zəlzələnin ziyan vurduğu evlərin bərpası ilə bağlı tapşırıqlarını vermişdi.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonuna səfəri çərçivəsində Diyallı kənd sakini Sədiqə Orucovaya məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən yeni evə gəldi, burada yaradılan şəraitlə tanış oldu.



Birinci vitse-prezident Mehriban Əliyeva: Sizi yeni evinizdə xoş gördük.

Sədiqə Orucova: Xoş gəlmisiniz. Çox sağ olun.

Mehriban Əliyeva: Zəlzələ evinizi tam yararsız vəziyyətə salmışdı?

Sədiqə Orucova: Bəli. Çox sağ olun. Nə yaxşı ki, Siz gəldiniz. Minnətdarıq.

Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin salamlarını çatdıraraq, gələcəkdə yeni evdə ancaq xoş hadisələrin qeyd olunmasını arzuladı.

Mehriban Əliyeva dedi:

-Mən cənab Prezidentin tapşırığı ilə Şamaxı və İsmayıllı rayonlarına gəlmişəm. Çox şadam ki, bizim vətəndaşlar belə qısa bir zamanda yeni, tam rahat, hər bir şəraitlə təmin olunmuş evdə yaşayırlar. Bir çox evlər demək olar ki, yenidən tikilir, 2 minə yaxın evdə bərpa işləri aparılır. Mən çox şadam ki, işlərin demək olar yarısı tamamlanıb. Soydaşlarımız artıq yeni, daha rahat, daha geniş evlərdə yaşayırlar. Bu işlərdə Heydər Əliyev Fondu da çox fəaldır. Heydər Əliyev Fondunun dəstəyi ilə 3 rayonda 87 fərdi ev sakinlər üçün tikilir, hər bir rayonun kəndində yeni məktəb tikilib istifadəyə verilir, tibb məntəqələrində bərpa işləri aparılır, eyni zamanda, Şamaxıda çoxmərtəbəli 170 mənzillik 3 yeni bina inşa olunur. Yəni, bu, dövlətin öz vətəndaşına göstərdiyi qayğının təzahürüdür. Azərbaycan dövlətinin siyasəti hər zaman sosialyönümlü olub və bu addımlar davam edəcək. Həm cənab Prezident, həm də hökumət tərəfindən atılan addımların əsas məqsədi Azərbaycan xalqının, Azərbaycanda yaşayan hər bir vətəndaşın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, onları narahat edən problemlərin aradan qaldırılmasıdır. Uzun illərdir ki, bu istiqamətdə ardıcıl işlər aparılır.

Birinci vitse-prezident Mehriban Əliyeva ölkədə görülən işlərdən danışarkən, regionların sosial-iqtisadi inkişafı proqramının əhəmiyyətini vurğuladı, bu gün bütün rayonlarımızın abadlaşdığını, yeni infrastrukturla təmin edildiyini, yeni iş yerlərinin yaradıldığını qeyd etdi.

Mehriban Əliyeva: 2004-cü ildən regionların sosial-iqtisadi inkişafı proqramı həyata keçirilir. Biz keçmişə nəzər salsaq görərik ki, bütün ölkə üzrə, bütün rayonlarımız, regionlarımız, qəsəbələrimiz, kəndlərimiz nə qədər abadlaşıb. Yeni infrastruktur yaradılıb, yeni yollar salınıb, 640 yeni müasir xəstəxana tikilib, ölkədə mövcud olan 5 min məktəbdən 4 minə yaxını ya bərpa olunub, ya da yenidən inşa edilib. Yəni, bu, bütün istiqamətlərdə aparılan işlərdir. Regionlarda həm sənaye parkları, həm də aqroparklar salınır. Bu, öz növbəsində, yeni iş yerlərinin açılmasıdır, əhalinin məşğulluğudur. Ona görə, hesab edirəm ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək. Əlbəttə, bu işlər Azərbaycanın gələcək inkişafına, Azərbaycan xalqının yaşayış şəraitinin daha da yaxşılaşmasına xidmət edəcək.

Zəlzələdən əvvəl evin sahəsi 70 kvadratmetr idisə, yeni ev 100 kvadratmetrdir. 11 sot həyətyanı sahəsi olan evin otaqları tam təmir edilib.

⇨ Davamı 9-cu səhifədə





# Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri

⇨ Əvvəli 8-ci səhifədə

### Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı şəhərində uşaq bağçasının açılışında iştirak edib

Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva İsmayıllı şəhərinin Vahab Osmanov küçəsində inşa olunan yeni uşaq bağçasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva bağçada yaradılan şəraitlə tanış oldu.

İsmayıllı şəhərində məktəbəqədər yaşlı uşaqların sayı 2300 nəfərdir ki, onlardan 195 nəfəri məktəbəqədər təhsilə cəlb olunub. Məsələnin həlli məqsədilə Prezident İlham Əliyevin ötən ilin avqustunda imzaladığı Sərəncamla İsmayıllı şəhəri ərazisində yeni 100 yerlik uşaq bağçası binasının tikintisinə Prezidentin Ehtiyat Fondundan İsmayıllı Rayon İcra Hakimiyyətinə 1,5 milyon manat vəsait ayrılmışdı. Üçmərtəbəli uşaq bağçasının binasında 5 qrupun fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb, bütün otaqlar müasir avadanlıqla təchiz edilib. Bağçanın həyətində yaşıllaşdırma işləri görülüb.

Sonda xatirə şəkli çəkdirildi.









### İsmayıllıda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət

Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva ulu öndər Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.

AZƏRTAC xəbər verir ki, burada ictimaiyyətin nümayəndələri ilə görüşən Birinci vitse-prezident Mehriban ƏLİYEVA dedi:

-Salam, Xoş gördük. Sizi görməyə çox şadam.

-Sakinlər: Xoş gəlmisiniz.

-Mehriban ƏLİYEVA: İsmayıllı rayonunda olmaqdan, sizi görməkdən çox şadam. İlk növbədə, cənab Prezidentin salamlarını sizə çatdırıram. Görürəm ki, rayonda tam inkişaf prosesləri gedir, infrastruktur yaradılır, yollar abadlaşdırılır. Yeni bağçanın açılışında olduq. Yeni məktəb, tibb məntəqəsi tikilib. Episentri İsmayıllı və Ağsu rayonlarının ərazisində olan 5-6 fevral zəlzələsindən sonra, ayın 7-də cənab Prezident Şamaxı rayonuna gəldi və ətraf rayonlarda bu təbii fəlakətin fəsadları ilə tanış oldu və dərhal bütün lazımi göstərişləri verdi. Bu istiqamətdə işlər aparılır, fərdi evlər, sosial və infrastruktur obyektləri bərpa olunur. 547 fərdi evdən yarısı artıq tikilib, insanların istifadəsinə verilib. İndi yeni tikilən həmin evlərin birində olduq, çay süfrəsi arxasında söhbət etdik.

Mən çox şadam ki, İsmayıllı rayonunda da Azərbaycanın bütün regionlarında gedən proseslər çox yaxşı, sürətlə gedir. Bütün bunlardan məqsəd Azərbaycan xalqının, Azərbaycanın hər bir vətəndaşının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, ölkəmizin gələcək inkişafı və daha da möhkəm, qüdrətli müstəqil Azərbaycanın olmasıdır.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

⇨ Davamı 10-cu səhifədə







# Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri

⇨ Əvvəli 9-cu səhifədə

### İsmayıllı rayonunun İvanovka kəndindəki Mədəniyyət Sarayı əsaslı təmirdən sonra istifadəyə verilib

Sentyabrın 14-də İsmayıllı rayonunun İvanovka kəndindəki Mədəniyyət Sarayının əsaslı təmirdən sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva açılışda iştirak ediblər.

İvanovkalılar Mehriban Əliyevanı duz-çörəklə qarşıladılar.

Mehriban Əliyeva: Sizin İvanovka kəndində olmağıma çox şadam. Sizin yanınıza həmişə böyük məmnuniyyətlə gəlirəm.

Nikitin adına kollektiv təsərrüfatın Müşahidə Şurasının sədri Olqa Jabina: Salam. Xoş gəlmisiniz.





Mehriban Əliyeva: Sağ olun.

Milli geyimli qızlar: Bizim çörəyimizin dadına baxın.

Mehriban Əliyeva: Məmnuniyyətlə.

Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva çörəyin dadına baxdılar.

Mehriban Əliyeva: Sizin yeməkləriniz həmişə ləzizdir.

Birinci vitse-prezident Mədəniyyət Sarayında yaradılan şəraitlə tanış oldu.



Mədəniyyət müəssisəsinin musiqi kollektivi ilə görüşən Mehriban Əliyeva dedi: Salam. Sizi Mədəniyyət Sarayının istifadəyə verilməsi münasibətilə təbrik edirəm. Sizin yanınıza qonaq gələndə həmişə xoşbəxt oluram.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva Mədəniyyət Sarayının musiqi kollektivinin ifalarını dinlədi.

İvanovka Mədəniyyət Sarayı 1985-ci ildə tikilib. Binada uzun müddət əsaslı təmir işləri aparılmadığından yararsız vəziyyətə düşmüşdü və mədəniyyət müəssisəsi fəaliyyətini dayandırmaq məcburiyyətində qalmışdı. Prezident İlham Əliyevin 2018-ci ilin sentyabrında imzaladığı Sərəncama əsasən İvanovka kənd Mədəniyyət Sarayının əsaslı təmiri, zəruri avadanlıq və inventarlarla təmin edilməsi üçün Prezidentin Ehtiyat Fondundan İsmayıllı Rayon İcra Hakimiyyətinə 2,5 milyon manat vəsait ayrıldı, binanın əvvəlki memarlıq üslubu saxlanmaqla əsaslı təmir edildi. Burada akt, banket zalları, musiqi məktəbinin fəaliyyət göstərdiyi otaqlar, rəqs salonu, kitabxana əvvəlki görkəmi saxlanılmaqla əsaslı təmir olundu.

Olqa Jabina: Bu, bizə gözəl hədiyyədir. İndi bizim nəinki çörəyimiz, bu mahnılarımız da var. Çox sağ olun.

Mehriban Əliyeva: Sizin konsertlərinizi dinləməyə gələcəyik.

Olqa Jabina: Həmişə şadıq.

Mehriban Əliyeva: Çox sağ olun. Sizə uğurlar arzulayırıq.





# Azərbaycan XİN bəyanat yayıb

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Özbəkistanın Türk Şurasına üzvlük qərarı ilə əlaqədar bəyanat yayıb.

XİN-dən Trend-ə verilən məlumata görə, bəyanatda deyilir:

"2019-cu il sentyabrın 14-də Özbəkistan Respublikası tərəfindən Naxçıvan Sazişinin ratifikasiyasının tamamlanması Türkdilli Dövlətlərin həmrəyliyinin möhkəmləndirilməsində növbəti əlamətdar hadisə oldu. Belə ki, 2009-cu ildə



Naxçıvan Sazişi ilə əsası qoyulan və indiyə qədər Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin üzv olduğu TDƏŞ-ə daha bir türkdilli ölkə - Özbəkistanın qoşulmaq qərarı açıqlandı. Bu qərar münasibətilə qardaş Özbəkistanı təbrik edirik.

Özbəkistan Respublikasının Türk Şurasında təmsil olunmaq qərarı dərin çoxəsrlik köklərə əsaslanan mədəni və tarixi qardaşlığımızı müasir zəmanənin tələblərinə uyğun olaraq Türkdilli Dövlətlərin xalqlarının rifahı naminə daha da inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Özbəkistanın TDƏŞ-ə qoşulması barədə bu tarixi qərarının məhz Naxçıvan Sazişinin imzalanmasının 10-cu ildönümünə təsadüf etməsi Azərbaycan Respublikası üçün xüsusi rəmzi məna daşıyır. Bu il oktyabrın 15-də Bakıda keçiriləcək Türk Şurasının 7-ci Zirvə görüşündə Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə qardaş Özbəkistanın nümayəndə heyətini salamlamaq bizim üçün şərəfli və xoş bir fürsət olacaq".

## ÖLKƏ ƏHALİSİNİN SAYI AÇIQLANIB



İlin əvvəlindən ölkə üzrə əhalinin sayı 46417 nəfər və ya 0,5 faiz artaraq 2019-cu il avqust ayının 1-i vəziyyətinə 10027874 nəfərə çatıb.

Trend-in məlumatına görə, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Əhalinin bir kvadratkilometrə düşən sayı 116 nəfər olub.

# Gələn il polo üzrə Avropa çempionatı Azərbaycanda təşkil olunacaq

## Komandamız 7-ci arena polo üzrə dünya kubokunun qalibi olub













Sentyabrın 15-də Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Bakıda baş tutan 7-ci arena polo üzrə dünya kubokunun final görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, final görüşünə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev, Milli Olimpiya Komitəsinin Baş katibinin müavini və Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev, Dünya Polo Federasiyasının prezidenti Reto Qaudenzi və digər qonaqlar baxıblar.

Turnirin həlledici görüşündə Azərbaycanın "Elite Horse & Polo Club Baku" və Almaniyanın "Los Nocheros Polo Club Münster" komandaları qarşılaşıblar. Bu dəfə də yüksək ustalıq nümayiş etdirən komandamız final görüşündən qalib ayrılıb - 15:4. Komandamızın heyətində Elçin Camallı (9), Tərlan Qurbanəliyev (4), Rəşad Həsənov və Namiq Orucov fərqləniblər.

Beləliklə, Azərbaycanın "Elite Horse & Polo Club Baku" komandası turnirin qalibi adını qazanıb. "Los Nocheros Polo Club Münster" ikinci, İsveçrənin "Evviva Polo Club St. Moritz" komandası üçüncü, Rusiyanın "Planernaya Polo Club Moscow" komandası isə dördüncü yeri tutublar.

Daha sonra dünya kubokunun qalibi olan komandamız mükafatlandırılıb. Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev qalib olan komandamıza turnirin kubokunu və qiymətli hədiyyələr təqdim edib. Turnirin ən yaxşı oyunçusu komandamızın poloçusu Elçin Camallı seçilib.

Turnirin bütün oyunları "Elite Horse and Polo Club"un meydançasında keçirilib.

Qeyd edək ki, gələn il sentyabrın 10-dan 20-dək 8 komandanın iştirak edəcəyi polo üzrə Avropa çempionatı da Azərbaycanda təşkil olunacaq.

# Azərbaycanın xanlıqlar dövrü haqqında kitab Rusiya kitabxanalarında



Moskvada nəşr olunmuş "Politiçeskoe nasledie perioda xanstv istorii Azerbaydjana v svete dokumentov" ("Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında") kitabı Rusiyanın aparıcı kitabxanalarına verilib.

Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, akademik Ramiz Mehdiyevin müəllifi olduğu kitab Rusiyanın 20-yə yaxın ən nüfuzlu kitabxanasının fonduna daxil edilib. Onların sırasında Rusiya Dövlət Kitabxanası, Rusiya Milli Kitabxanası, Rusiya Federasiyası Prezident Administrasiyası Kitabxanası, Rusiya Federasiyası Parlament Kitabxanası, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Kitabxanası, Rusiya Elmlər Akademiyası Kitabxanası və oxucuların daha çox müraciət etdiyi digər kitabxanalar var.

Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən olan xanlıqlar dövrünün indiyədək tarixşünaslığa gizli qalan həqiqətlərini üzə çıxaran kitab bir çox elmi mənbələrdə əksini tapmış yanlış qənaət və nəticələrin aradan qaldırılmasına, eləcə də ictimai fikir üçün aktual və önəmli olan mövzuya daha sistemli və ədalətli baxışın formalaşmasına imkan yaradır, tarixi hadisələri, simaları tutarlı elmi faktlar və arxiv sənədləri vasitəsilə işıqlandırır.

Tarixçilər və mənbəşünaslar, eləcə də Azərbaycanın qədim tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün qiymətli elmi mənbə olan əsərin rus dilinə tərcüməçisi Püstə Axundova, redaktoru Nadiyə Qafarova və Fərrux Rzayevdir. Mətnlərə dair şərh və qeydlərin müəllifi siyasi elmlər üzrə fəlsəfə doktoru Eldar Əmirov, arxiv sənədlərinin fars dilindən tərcüməçisi AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktor müavini Şahin Yəhyayevdir.

# Atəşkəs 22 dəfə pozulub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, Ermənistan Respublikası Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Əli Əhmədov:*

## Dövlətimiz gənc nəslin layiqli təhsil alması naminə geniş imkanlar yaradıb



"Sentyabrın 16-sı Azərbaycanda yeni dərs ilinin başlanğıcı, "Bilik Günü"dür. İlk dəfə məktəbə gedənlər başda olmaqla bütün şagirdləri və onların valideynlərini bu münasibətlə təbrik edirəm.

Təhsil, bilik müasir cəmiyyətin ən böyük sərvətidir. Dövlətimiz gənc nəslin layiqli təhsil alması naminə geniş imkanlar yaradıb. Bu gün məktəb partaları arxasında oturan yeniyetmələr, universitetlərdə oxuyan tələbələr gələcəkdə Azərbaycanın inkişafına və tərəqqisinə böyük töhfə verəcək, dövlətimizin keşiyində layiqincə duracaqlar." **Bu sətirlər Baş Nazirin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədovun yeni dərs ilinin başlanması münasibətilə rəsmi "facebook" səhifəsində paylaşdığı təbrikində yer almışdır.**

Əli Əhmədov daha sonra qeyd edib: "Məktəbə qayğı tək dövlətin deyil, cəmiyyətin hər bir üzvünün işi olmalıdır. İnanıram ki, hər birimizin səyləri nəticəsində yaxşı oxumaq, müasir biliklərə yiyələnmək istəyi yetişməkdə olan nəslin əsas fərqləndirici xüsusiyyəti olacaq.

Gəlin uşaq və gənclərimizdə kitaba məhəbbəti, biliklərə həvəsi birlikdə gücləndirək."

## Nazim Məmmədovun YAP-a heç bir aidiyyəti yoxdur

Son vaxtlar keçmiş deputat Nazim Məmmədovun sosial şəbəkələrdə, bəzi KİV-lərdə etdiyi çıxışları və mövqeyi ilə bağlı Yeni Azərbaycan Partiyasının (YAP) Mətbuat Xidməti ilə əlaqə saxladıq.

YAP-ın Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, keçmiş deputat Nazim Məmmədov 2000-ci ildən YAP-ın üzvü olub. Lakin 2010-cu ilin parlament seçkilərində Nazim Məmmədov qeyri-etik davranışına və partiyanın Nizamnamə tələblərinə, prinsiplərinə zidd hərəkətinə görə YAP-ın sıralarından uzaqlaşdırılıb. Artıq Nazim Məmmədovun partiya ilə heç bir əlaqəsi yoxdur və YAP-ı təmsil etmir.

## 79 mindən çox körpə doğulub

*Oğlanların sayı yenə üstələdi*



Cari ilin yanvar-iyul ayları ərzində Azərbaycanda 79 861 körpə doğulub.

Trend-in məlumatına görə, əhalinin hər 1000 nəfərinə bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,8-dən 13,9-a qədər artıb.

Doğulanların 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlarıdır. Körpələrdən 1844-ü əkiz, 48-i isə üçəmdir.

Ümumilikdə, ilin əvvəlindən ölkə üzrə əhalinin sayı 46417 nəfər və ya 0,5 faiz artaraq 2019-cu il avqustun 1-i vəziyyətinə 10027874 nəfərə çatıb.

## Yunus Oğuz bu dəfə Çingiz xandan yazdı

*Roman yaxın günlərdə çapa veriləcək*



Yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun növbəti romanı artıq çapa hazırdır. "OLAYLAR" xəbər verir ki, bu barədə Yunus Oğuz özü məlumat verib. Kitabın yaxın günlərdə çapa verilməsi nəzərdə tutulub. Yazıçı bildirib ki, bu dəfəki romanı əfsanəvi sərkərdə Çingiz xana həsr olunub. "Çingiz xan" adlanan romanda tatarların və moğolların möhtəşəm tarixindən, onların dünyaya yeni düzən gətirməsindən geniş bəhs edilir.

Qeyd edək ki, Yunus Oğuz bundan əvvəl də bir çox tarixi şəxsiyyətlərimizdən bəhs edən onlarla roman yazıb. Yazıçının əsərlərinin bir çox ölkələrdə təqdimatı keçirilib, ayrı-ayrı dillərə tərcümə olunub.

## Astara polisindən balacalara hədiyyə



Astara Rayon Polis şöbəsinin əməkdaşları "Bilik Günü" münasibətilə rayonda yaşayan aztəminatlı ailələrlə görüşmüş, onların yeni dərs ilində birinci sinfə gedən övladlarına məktəbli geyimi, çanta və məktəb ləvazimatından ibarət hədiyyələr vermişlər. Bu nəcib iş balacalar tərəfindən böyük sevinclə qarşılanmışdır. Valideynlər isə göstərdikləri qayğıya görə rayon polisinə dərin minnətdarlıq etmişlər.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# Nuru paşa - Azərbaycan xalqının qəlbini fəth edən müzəffər komandan

**101 il öncə bu gün - sentyabrın 15-də Bakı işğaldan qurtuldu. 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu yenicə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin milli ordu hissələri ilə birlikdə Bakıya daxil oldu, minlərlə şəhidin qanı bahasına şəhəri erməni-bolşevik işğalçılarından azad etdi, Azərbaycanımızın paytaxta çevrilməsində misilsiz tarixi rol oynadı.**



Ali Hasanov
12 hrs ·
Nuru paşa- Azərbaycan xalqının qəlbini fəth edən müzəffər komandan
101 il öncə bu gün- sentyabrın 15-də Bakı işğaldan qurtuldu. 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu yenicə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin milli ordu hissələri ilə birlikdə Bakıya daxil oldu, minlərlə şəhidin qanı bahasına şəhəri erməni-bolşevik işğalçılarından azad etdi, Azərbaycanımızın paytaxtına çevrilməsində misilsiz tarixi rol oynadı. O dövrdə milli müstəq...
Continue Reading

***AZƏRTAC** xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Facebook sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.*

Əli Həsənov yazır: "O dövrdə milli müstəqilliyimiz yenicə elan olunmuşdu. Dövlət institutları hələ formalaşmağa macal tapmamış məmləkətimiz və onun sərvətləri uğrunda gedən geopolitik savaşda, qanlı maraqlar toqquşmasında Bakısız qalmış Azərbaycan, Xalq Cümhuriyyətinin qurucuları tərəfindən haqlı olaraq başsız bədənə bənzədilirdi. Azərbaycan fiziki bütövlüyünə - öz başına qan və inanc qardaşları ilə çiyin-çiyinə vərərək, Bakıdakı özbaşınalıqlara, hərcmərcliyə, talan və repressiyalara son qoyaraq qovuşdu. Baş şəhər də daxil olmaqla, ölkəmizin dörd bir yanı zəfər təntənəsinə büründü. Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Bakıya daxil olması müqəddəs Qurban bayramı günlərinə təsadüf edirdi. Bu səbəbdən də təkcə Bakıda və bölgələrimizdə deyil, qalibiyyətin sorağını alan bütün türk-islam dünyasında bayrambayrama qarışmışdı. Bakıda türk ordusunun adına qurbanlar kəsilmiş, şənlik ziyafətlər verilmiş, məşhur milyonçu, öz xeyriyyəçiliyi ilə xalqımızın yaddaşına əbədi həkk olunmuş Hacı Zeynalabdin Tağıyev indiki Dövlət Filarmoniyasının binasında təmtəraqlı süfrə açaraq Nuru paşanı əhali adından salamlamış, ona yüksək ehtiram göstərmişdi.

Nuru paşanın xatirəsi, Qafqaz İslam Ordusunun rəşadəti ötən əsrin sonlarında öz müstəqilliyini yenidən qazanmış Azərbaycanda həm cəmiyyət, həm də dövlət səviyyəsində xüsusi ehtiramla yad edilir. Bu ehtiramın ən bariz təcəssümü Şəhidlər xiyabanında Qafqaz İslam Ordusuna ucaldılan abidədir. Bu abidə böyük Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinin həm yaxın tariximizdəki əsaslarını, həm də gələcək hədəflərinin gerçəkləşməsi baxımından son dərəcə ciddi əhəmiyyət daşıyan fədakarlıq təlabini simvolizə edən bir əsərdir. Bu abidənin layihəsi 1918-ci ildə hazırlanmış, ADR parlamentinin 15 sentyabr 1919-cu ildə Bakının azad olunmasının 1 ili münasibətilə keçirilən xüsusi iclasından sonra hökumət üzvləri, millət vəkilləri Çəmbərəkənd qəbiristanlığına gedərək türk əsgərinin heykəlinin qoyulması üçün özül inşa etmişdilər. Lakin 28 aprel ilhaqı bu abidənin ucaldılmasına imkan vermədi. Müstəqilliyin bərpasından sonra Azərbaycan və Türkiyə hökumətlərinin razılaşmasına əsasən həmin layihə davam etdirildi. Abidənin yeni təməli 1999-cu ildə qoyuldu, bir il sonra isə Azərbaycan Prezidenti Heydər Əliyevin və Türkiyə Prezidenti Süleyman Dəmirəlin iştirakı ilə açılış mərasimi keçirildi. Bildiyiniz kimi, ötən il Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi ilə bağlı bir çox rəsmi, elmi və mədəni tədbirlər təşkil olundu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirak və qəbul etdikləri əzəmətli hərbi paradda xalqlarımız və dövlətlərimiz arasındakı bağların qırılmazlığı, zamanın qardaşlıq duyğularımızı daha da gücləndirdiyi, torpaqlarımızın işğaldan azad edilməsi üçün yenə də birgə iradə ortaya qoymağımız bütün dünyaya nümayiş olundu.

Bəli, 1918-ci ilin sentyabrın 15-də Bakının azad edilməsi ilə kulminasiya nöqtəsinə çatan Osmanlı ordusunun Qafqaz hərəkatı dünən də, bu gün də, gələcək üçün də tayı-bərabəri olmayan tarixi örnəkdir. Onunla örnəkdir ki, Qafqaz İslam Ordusu qurularkən məqsəd nə Osmanlı dövlətinin torpaqlarını müdafiə etmək, nə də yeni ərazilər zəbt etmək olmuşdu. Bu, sözün əsl mənasında, qardaşın-qardaşa haraya gəlməsi, heç bir maddi və siyasi mənfəət güdmədən onu zamanın qəddar sərvət ovçularının, uşaqlara, qadınlara, qocalara rəhmi gəlməyən amansız qatillərin caynağından xilas etmək məramı idi. Buna rəğmən, hərəkatın uğurla başa çatacağı və davamlı olacağı halda, həm qocaman, həm də gənc qardaş elə əlverişli mövqe sahibinə çevriləcəkdi ki, XX əsrin tarixi də, coğrafiyası da yaşadığımızdan tamam fərqli şəkil alacaqdı.

Qafqaz İslam Ordusu Birinci Dünya müharibəsinin sonlarına doğru qurulmuşdu. Ordunun qurulması prosesinin başlanğıcında 12 maddəlik bir təlimatnamə tərtib edilmiş, birliyə komandan təyin olunan Nuru paşa Killigilə bu sənəd üzrə Osmanlı dövlətinin Qafqazdakı baş təmsilçisi vəzifəsi həvalə olunmuşdu. Osmanlı hakimiyyətinin son dərəcə konspirativ, hətta öz müttəfiqlərindən də gizli şəkildə yaratdığı bu hərbi birləşməyə "islam" adının verilməsi tərkibinin tamamilə müsəlmanlardan ibarət olması ilə bağlı idi. Sıravi əsgərlərindən tutmuş əsas komandirlərinə qədər bütün şəxsi heyətində bircə nəfər də olsun qeyri-müsəlman olmayan ordunun tək vəzifəsi vardı - Qafqaz müsəlmanlarına, Azərbaycan türklərinə hərbi yardım göstərmək, xalqımızın və torpaqlarımızın üzləşdiyi təcavüzləri dəf etmək!

Nuru paşanın başçılıq etdiyi ordu mayın 16-da Naxçıvana, 25-də isə Gəncəyə daxil oldu. Üç gün sonra Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi və İslam aləmindəki ilk demokratik respublikanın paytaxtı Gəncə oldu. ADR hökumətinin üzləşdiyi çox sayda dərin problemlər vardı. İlk növbədə, ölkənin ərazi bütövlüyünün təmin olunması labüd idi. Bunun üçün formatını tez-tez dəyişən, mahiyyət olaraq isə erməni daşnak zehniyyətinə xidmət edən inqilabçı dəstələrin hökmranlığına son qoymaq lazım idi. Bu zərurətə əsaslanaraq 4 iyun 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında Batum anlaşması imzalanmışdı. Müqavilənin dördüncü maddəsində nəzərdə tutulurdu ki, Azərbaycan Xalq Cümhuriyyətinin istəyi ilə daxili asayişin təmin olunması üçün Osmanlı hökuməti ölkəmizə hərbi yardım göstərməyi öz üzərinə götürür. Bu sənəd Qafqaz İslam Ordusunun Bakıya yürüşü üçün hüquqi əsas oldu. Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin əsgərləri ilə birlikdə Nuru paşanın başçılığı altında Göyçayda, Salyanda və digər ərazilərimizdə qarşısına çıxan düşmən qüvvələri darmadağın edərək qısa müddətdə Bakıya yaxınlaşdı, 1918-ci ilin avqustun 1-dən etibarən burada hakimiyyəti ələ keçirmiş daşnak və menşeviklər tərəfindən qurulan Sentrokaspi diktaturasına ultimatum verdi. Ultimatum yerinə yetirilmədiyindən 14 sentyabr gecəsi Nuru paşanın əmri ilə hücum təşkil edildi və ertəsi gün saat 15 radələrində qələbə fişəngi atıldı. Beləliklə, Nuru paşa tarixə adını Birinci Dünya müharibəsində Osmanlının qazandığı üç zəfərdən (Çanaqqala və Kütül Amarə zəfərləri ilə yanaşı) birinin sərkərdəsi, eyni zamanda, xalqımızın qəlbini fəth edən milli məfkurə sahibi kimi yazdırdı".

# Bakı Ali Neft Məktəbi yeni tədris ilinə uğurla başlayır





**Bakı Ali Neft Məktəbində (BANM) 2019/2020-ci tədris ilinin başlanması və "Bilik Günü"nə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayev, SOCAR-ın vitse-prezidentləri, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, həmçinin Azərbaycanda fəaliyyət göstərən bir çox yerli və transmilli şirkətlərin rəhbərləri, Bakı Ali Neft Məktəbinin professor-müəllim heyəti, tələbələr və onların valideynləri iştirak ediblər.**

Dövlət Himni səsləndikdən sonra çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qonaqları salamlayaraq, 2019/2020-ci tədris ilində yüksək balla BANM-in tələbəsi adını qazanmış gəncləri və onların valideynlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib. Ali məktəbin qısa zamanda əldə etdiyi uğurlar və perspektivlər haqqında danışan rektor Elmar Qasımov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi" haqqında Sərəncamına əsasən, Bakı Ali Neft Məktəbinin 23 tələbəsi Prezident təqaüdünə layiq görülüb. Rektor qeyd edib ki, ali məktəbin yarandığı ildən bu günə qədər Prezident təqaüdçülərinin sayı 150 nəfərə çatıb. O, bu il ali məktəb üzrə 11 nəfərin 680-dən çox bal topladığını, yarandığı ildən indiyədək isə BANM-in 26 tələbəsinin 700 bal toplayaraq ölkə üzrə rekorda imza atdığını vurğulayıb.

Rektor, həmçinin qeyd edib ki, bu il ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarının ixtisas seçimi nəticəsində Bakı Ali Neft Məktəbinin 2 ixtisası - "İnformasiya təhlükəsizliyi" - 673,5 bal, "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" - 657,8 bal olmaqla, növbəti dəfə ölkə universitetləri arasında ən yüksək keçid balı olan ixtisasları olub.

Elmar Qasımov I qrup üzrə keçirilmiş test imtahanlarında ən yüksək bal toplayan tələbələrin BANM-i seçmələrinin artıq ənənə halını almasını xüsusi vurğulayıb.

"Bizim ali məktəbi bitirən bütün məzunlar işlə təmin olunur. Onlar SOCAR-ın bir çox müəssisələrində, o cümlədən Türkiyədə "Petkim" və "Star" zavodlarında, BP, "Maire Technimont Group", "Halliburton" və digər transmilli şirkətlərdə çalışırlar. Eyni zamanda, dünyanın bir çox inkişaf etmiş ölkələrinin nüfuzlu ali məktəblərinin magistratura və doktorantura proqramlarına qəbul olunublar", - deyə E.Qasımov bildirib.

Tədbirdə çıxış edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev ali məktəbin kollektivini, tələbələri və valideynləri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib: "Bakı Ali Neft Məktəbi cəmi 7 ildir, fəaliyyət göstərir. Bu qısa müddətdə dinamik inkişafı və uğurları ilə layiqli yer tutmuş, ölkə gənclərinin dərin hüsn-rəğbətini qazanmışdır. Təsadüfi deyil ki, builki tələbə qəbulu imtahanlarında 1-ci qrup üzrə ən yüksək nəticə göstərmiş və Prezident təqaüdünə layiq görülmüş 23 tələbə üstünlüyü Bakı Ali Neft Məktəbinə vermişdir. Bu məktəb, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin iştirakı ilə açılışını etdiyimiz bu möhtəşəm kampus Azərbaycan təhsilinin yeni dövrünün nailiyyətlərini təzahür etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək texnoloji biliklərə sahib ingilisdilli neftçi mütəxəssislərin hazırlanması istiqamətində qarşıya qoyduğu hədəflərə uyğun olaraq bu gün Bakı Ali Neft Məktəbində beynəlxalq təhsil konsepsiyasına uyğun tədris və təhsil mühiti formalaşdırılıb".

Milli Məclisin sədr müavini Bahar Muradova bildirib ki, son illər ölkəmizin təhsil sistemində əldə edilən uğurlar təhsilverənlərin peşəkarlığı ilə yanaşı, Azərbaycan dövlətinin iqtisadi imkanlarının artmasının, regionda və dünyada mövqeyinin möhkəmlənməsinin nəticəsidir.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc təhsil sistemində tətbiq edilən innovasiyalar sayəsində bu gün Bakı Ali Neft Məktəbi kimi yüksək infrastruktura malik və keyfiyyətli tədris metodu ilə seçilən ali təhsil müəssisəsinin fəaliyyət göstərdiyini qeyd edib: "Möhtərəm Prezidentimizin tapşırığı ilə yaradılan BANM beynəlxalq proqramlar əsasında, eləcə də Avropada mühəndis hazırlığına dair laborator və digər təcrübi avadanlıqlarla təchiz olunan komplektləşmiş bir elm təhsil ocağı kimi uğurla fəaliyyət göstərir".

Dövlət İmtahan Mərkəzinin (DİM) 2019/2020-ci tədris ili üzrə keçirilən qəbul imtahanında I qrup üzrə ən yüksək bal (690.5 bal) toplayan BANM-in "İnformasiya təhlükəsizliyi" ixtisasını seçən Əsmər Hacızadə bildirib ki, əsas məqsədim ixtisasım üzrə peşəkar mütəxəssis kimi ölkəmizə faydalı olmaqdır. O, hədəfinə nail olmaq üçün Bakı Ali Neft Məktəbinin düzgün ünvan olduğunu vurğulayıb.

Bakı Ali Neft Məktəbi və BMT-nin Təlim və Tədqiqatlar İnstitutunun proqramı əsasında həyata keçirilən "Nigeriyanın neft və qaz sənayesində kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində BANM-ə qəbul olunmuş nigeriyalı tələbə Somtoçukvu Çidinma Azərbaycan dilində tədbir iştirakçılarını salamlayıb, bu ali məktəbdə təhsilə başlamasından çox məmnun olduğunu qeyd edib.

Bu il əkiz oğlanları Bakı Ali Neft Məktəbinin "Neft-qaz mühəndisliyi" ixtisasına qəbul olunan Namiq Azadlı çıxış edərək oğlanları Rəşad və Rəşidə yanaşı, yüksək bal toplamış bütün gənclərə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkür edib. O, övladlarının da onun yolunu davam etdirərək, neft-qaz sahəsinə maraq göstərmələrindən və Bakı Ali Neft Məktəbini seçmələrindən məmnunluğunu ifadə edib.

Qeyd edək ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Sərəncama əsasən, Rəşad Azadlı Prezident təqaüdünə layiq görülüb.

Məzunlar adından çıxış edən 2019-cu il Kimya mühəndisliyi məzunlarından, hazırda "SOCAR Türkiyə"də İstehsalat mühəndisi vəzifəsində çalışan Orxan Əlizadə Bakı Ali Neft Məktəbinə və sevimli müəllimlərə minnətdarlıq edərək, BANM-ə yeni qəbul olunan tələbələrin layiqli kadrlar kimi yetişməsində əvəzsiz rolunu qeyd edib.

Sonra 2019/2020-ci tədris ilində Bakı Ali Neft Məktəbinə qəbul olunmuş tələbələrin hər birinə tələbə biletləri təqdim olunub.

# Məzunlara sertifikatlar təqdim edilib

**Sentyabrın 16-da SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Qobustan regional təlim mərkəzində yeni tədris ilinin başlanması münasibətilə tədbir keçirilmişdir.**

Tədbirdə SOCAR-ın Kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti cənab Xalik Məmmədov, Qaradağ RİH, Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin və sifarişçi təşkilatların nümayəndələri iştirak etmişlər. İlk olaraq məlumat verilmişdir ki, təlimlərdə 12 peşə - elektrik avadanlıqlarının təmiri və xidməti üzrə elektrik montyoru, elektrik qaz qaynaqçısı, neft və qaz quyularının qazılması üzrə qazmaçı köməkçisi, nəzarət-ölçü cihazları və avtomatika üzrə çilingər, polad və dəmir-beton konstruksiyaların quraşdırılması üzrə quraşdırıcısı və digər ixtisaslar üzrə 194 nəfər dinləyici müxtəlif peşələrə dair nəzəri biliklərə yiyələnməklə yanaşı, təlim mərkəzinin müasir standartlara uyğun laboratoriyalarında peşələrin praktiki sirlərini də öyrənəcəklər. Avadanlıqlara texniki xidmət, qaynaq-quraşdırma və elektrik-elektronika ixtisasları üzrə təlimi uğurla başa vurmuş dinləyicilərə City & Guilds Group Kvalifikasiya qurumunun beynəlxalq sertifikatları təqdim ediləcəkdir. Həmçinin bildirilmişdir ki, hazırkı dövrədək İdarə üzrə cəmi 113747 nəfər dinləyici və şagird İdarənin təlim mərkəzlərində ayrı-ayrı istiqamətlərdə təlim kurslarına cəlb edilmiş və onların peşə bacarığı yoxlanılmışdır. 2005-2019-cu illər üzrə İdarə daxilində "Yeni fəhlə kadrlarının hazırlanması" proqramını başa vurmuş şagirdlərin sayı 2570 nəfər olmuşdur. Tədbirdə çıxış edən qonaqlar dinləyicilərə uğurlar arzulamış, onlara yaradılan şəraitdən maksimum dərəcədə bəhrələnməyi tövsiyə etmişlər.














Sonda 2018-2019-cu tədris ilində təlim mərkəzində müxtəlif peşələrə yiyələnmiş 44 nəfər məzuna sertifikatlar təqdim edilmişdir.

Qeyd edək ki, ölkə iqtisadiyyatının gücləndirilməsində və şaxələndirilməsində özünəməxsus rol oynayan SOCAR tərəfindən neft, qaz və neft-kimya sənayesində kadr potensialının möhkəmləndirilməsi, müəssisələrdə beynəlxalq standartlar əsasında peşə fəaliyyətinin yüksək səviyyədə təşkili, habelə sənayedə ixtisaslı fəhlə-texnik kadrlarının hazırlanması üçün SOCAR-ın birbaşa tabeliyində Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi yaradılmışdır. Hazırda TTSİ-nin tərkibində 5 təlim mərkəzi fəaliyyət göstərir.

Hazırladı: **Zamin Məmmədov, *"İki sahil"***

# Azərbaycan-Türkiyə birliyi, dostluğu və strateji müttəfiqliyi regional sabitliyə və tərəqqiyə töhfə verir

## TÜRKİYƏNİN VİTSE-PREZİDENTİ FUAT OKTAYIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ



### Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay sentyabrın 15-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hərbi orkestr Azərbaycan və Türkiyənin dövlət himnlərini səsləndirib.

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayı Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşılayıblar.

### Ulu öndər Heydər Əliyevin məzarını ziyarət

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay sentyabrın 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

### Şəhidlərin xatirəsinə ehtiram

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay sentyabrın 16-da Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Fuat Oktay Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Türkiyənin Vitse-prezidentinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sonra Türkiyənin Vitse-prezidenti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzüb.

Vitse-prezident Fuat Oktay xatirə kitabına ürək sözlərini yazıb.

### Bakıda Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclası keçirilib

Sentyabrın 16-da Bakıda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, iclasa Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan tərəfdən Komissiyanın həmsədri Novruz Məmmədov və Türkiyə Respublikasının Vitse-prezidenti, Türkiyə tərəfdən Komissiyanın həmsədri Fuat Oktay rəhbərlik ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın təkbətək görüşü olub.

Sonra iclas işini nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirib.

İclasda hər iki tərəfdən Komissiyanın üzvü olan nazirlik, qurum və digər təşkilatların nümayəndələri iştirak ediblər.

Baş Nazir Novruz Məmmədov iclasda çıxış edərək Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclasının xalqımızın tarixində mühüm bir hadisəyə - Bakının erməni daşnak və bolşevik birləşmələrinin işğalından azad olunmasının 101-ci ildönümünə təsadüf etdiyini vurğuladı. Baş Nazir 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Azərbaycan milli ordu birləşmələri ilə birgə Bakının erməni daşnak və bolşevik birləşmələrinin işğalından azad etməsinin Türkiyə-Azərbaycan əbədi qardaşlığının təzahürü olduğunu ifadə etdi.





Novruz Məmmədov Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrindən danışaraq bildirdi ki, dövlətlərimizin başçılarının bir-birinə göstərdiyi səmimi dəstək və qardaşlıq münasibətləri hər birimiz üçün örnəkdir. Bunun nəticəsidir ki, hər iki dövlətin imza atdığı iri beynəlxalq layihələr uğurla həyata keçirilir. Birgə həyata keçirdiyimiz layihələr bizi daha da gücləndirir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu və eləcə də digər layihələr təkcə ölkələrimiz üçün deyil, bütün regionumuz üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan-Türkiyə birliyi, dostluğu və strateji müttəfiqliyi regional sabitliyə və tərəqqiyə də töhfə verir.

Baş Nazir qeyd etdi ki, indiyədək Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın keçirilən 7 iclasında həllini gözləyən bir sıra məsələlər üzrə qərarlar qəbul edilib, onların icrası təmin olunub. Həmçinin ali və yüksək səviyyəli görüşlərdə bir çox mühüm məsələlər müzakirə edilib və imzalanan sənədlərdə nəzərdə tutulmuş müddəalar bizə daha fəal çalışmaq üçün geniş imkanlar yaradıb. Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrdə ildən-ilə daha da genişlənməsi və möhkəmlənməsi bunun bariz nümunəsidir.

Novruz Məmmədov deyib: "Bildiyiniz kimi, ticarət-iqtisadi, nəqliyyat, rabitə, kənd təsərrüfatı, humanitar, turizm, maliyyə, vergilər, bank işi, sənaye və energetika, ekologiya, su təsərrüfatı, təhsil və digər sahələrdə daha da dərinləşən münasibətlərimiz iki qardaş ölkənin mənafeyinə və xalqlarının gələcəyinin firavan olmasına xidmət edir".

Baş Nazir diqqətə çatdırdı ki, qarşılıqlı sərmayə qoyuluşunun səviyyəsi bizi məmnun edir. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Bu mənada Petkim neft-kimya kompleksini və Star neft emalı zavodunu xüsusi qeyd etmək istərdim. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın və etibarlı tərəfdaş olsun.

⇨ Davamı 15-ci səhifədə

# Azərbaycan-Türkiyə birliyi, dostluğu və strateji müttəfiqliyi regional sabitliyə və tərəqqiyə töhfə verir

## TÜRKİYƏNİN VİTSE-PREZİDENTİ FUAT OKTAYIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

⇨ Əvvəli 14-cü səhifədə

"Azərbaycanın müstəqilliyinin bərpasının ilk günlərindən Türkiyə daim bizim yanımızdadır", - deyən Novruz Məmmədov bildirdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qardaş Türkiyə hər zaman Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. İndiyədək bütün sahələrdə göstərilən yardımlara, xüsusən də Azərbaycan üçün çox böyük önəm daşıyan müdafiə, müdafiə sənayesi, tibb və təhsil sahələrində köməyi yüksək qiymətləndiririk. Ermənistanın hərbi təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına göstərilən daimi dəstəyə görə dərin təşəkkürümüzü bildiririk.

Dost, qardaş Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Hökumətlərarası Komissiyanın səkkizinci iclasının Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyətinin dəyərləndirilməsi və əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından uğurlu olacağına əminliyini bildirdi.

"Türkiyə və Azərbaycan ortaq tarixə malik, hər zaman sevincləri və kədərləri birgə bölüşən qardaş ölkələrdir. Biz iki dövlət, bir millətik. Biz Azərbaycan və Türkiyə arasında mövcud dostluq və qardaşlıq münasibətlərini iqtisadi-ticari sahədə daha da genişləndirmək niyyətindəyik",- deyə Vitse-prezident diqqətə çatdırdı.




İclasda hər iki ölkənin iqtisadi-ticari əlaqələrinin mövcud vəziyyəti, genişləndirilməsi və iqtisadi əməkdaşlığın davamlılığının təmin olunması ilə bağlı məsələlər müzakirə olundu.

Sonra Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın səkkizinci iclasının Protokolu imzalandı. Protokolu Azərbaycanın Baş Naziri Novruz Məmmədov və Türkiyənin Vitse-prezidenti Fuat Oktay imzaladılar.

Protokolda Komissiyanın səkkizinci iclasının Azərbaycan və Türkiyə arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsinə müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub. İclasda, həmçinin Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair müzakirələrin nəticəsi olaraq, iclasın Protokoluna əlavə kimi tərtib edilmiş 2019-2021-ci illər üzrə Fəaliyyət Planı da qəbul edilib.

Daha sonra Azərbaycanın Baş Naziri Novruz Məmmədov və Türkiyənin Vitse-prezidenti Fuat Oktay mətbuata bəyanatlarla çıxış etdilər.

Baş Nazir Novruz Məmmədov Komissiyanın səkkizinci iclası ilə bağlı məlumat verərək bildirdi ki, komissiya tərəfindən gündəlikdə olan məsələlər ilə bağlı səmərəli iş aparılıb. Ümumilikdə 147 məsələ ətrafında fikir mübadiləsi aparılıb və bütün məsələlərlə bağlı razılıq əldə olunub.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında dövlətlərimizin başçılarının həmsədrliyi ilə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının vacib rolunu vurğulayan Baş Nazir Novruz Məmmədov deyib: "Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Hökumətlərarası Komissiyanın və ümumilikdə hər iki ölkənin dövlət qurumları qarşısında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı konkret vəzifələr müəyyənləşdiriblər. Biz də bu istiqamətdə fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirəcəyik. Hesab edirəm ki, bizim bugünkü iclasımız ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verəcək".

Novruz Məmmədov iki ölkə arasında viza rejiminin aradan qaldırılmasının əhəmiyyətini və bu mühüm hadisənin iqtisadi, ticarət, sosial, humanitar və digər sahələrdəki əlaqələrin inkişafına daha da müsbət təsir edəcəyini vurğuladı.

Vitse-prezident Fuat Oktay iclasda ölkələrimiz arasındakı iqtisadi-ticarət əlaqələrinə dair ətraflı müzakirələrin aparıldığını diqqətə çatdıraraq dedi: "İclasda Türkiyə ilə Azərbaycan arasında yeni əməkdaşlıq imkanları nəzərdən keçirildi. Əminəm ki, Komissiyanın səkkizinci iclası ikitərəfli münasibətlərimizin genişlənməsinə təkan verəcək və əməkdaşlığımız üçün yeni üfüqlər açacaq".

Fuat Oktay bildirdi ki, Türkiyə və Azərbaycan regionda güclü iqtisadiyyata malik ölkələrdir. Türkiyə-Azərbaycan əməkdaşlığının daha da genişləndirilməsi xalqlarımızın rifah halının yüksəlməsinə, regionun inkişafına xidmət edir.

### Türkiyənin Vitse-prezidenti Fuat Oktayın şərəfinə rəsmi nahar verilib

*Sentyabrın 16-da Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun adından Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın şərəfinə rəsmi nahar verilib.*

*AZƏRTAC xəbər verir ki, səmimi söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.*

# Birincilərin 11 illik təhsil yolu başladı










Dünən dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da üç aydır həyəcanla gözlənilən "Bilik Günü" gəlib çatdı. Təhsil Nazirliyinin məlumatına görə, səhər saatlarından başlayaraq respublika üzrə 164 234 azyaşlı qarşıda onları gözləyən 11 illik təhsil müddətlərinin ilk gününə başladılar. Kimisi bir gün öncəki axşam özünü tez yuxuya verdi ki, səhər tez açılsın və çoxdandır gözlədiyi an gəlib çatsın, kimisi sinifdə göz yaşlarını axıtmaqla keçirdi, kimisi valideynlərini ilk dərs günü yanında özünə parta yoldaşı etdi, kimi də valideynsiz gəlib valideynsiz getdi məktəbdən. Yaxşısı ilə, pisi ilə bu gün o uşaqların yaddaşına "ilk dərs günü" kimi həkk olundu.

"Bilik Günü" uşaqların həyəcanına şahid olmaq üçün Binəqədi rayonundakı Qamət Abbasov adına 284 saylı məktəbdə olduq. Səhər saatlarından birincilər əllərində müxtəlif rəngli gül dəstələri və həyəcanla sinifə daxil olacaqları anı gözləyirdilər. Amma bunun üçün müəyyən prosedurları keçmək lazım idi. Hər yeni dərs ilinin başlanğıcında olduğu kimi, bu il də Azərbaycanın Dövlət Himni səsləndirilməli, məktəbin müəllim kollektivi şagirdləri salamlamalı, yeni dərs ilində onlara uğurlar arzulamalı idi. Elə belə də oldu. Himnimiz səsləndirildikdən sonra məktəbin direktoru Nizami Novruzov çıxış edərək yeni tədris ilində bütün şagirdlərə uğurlar arzuladı: "Artıq yeni tədris ilinə başlayırıq. Məktəbimiz və kollektiv bunun üçün tam hazırdır. Ötən il məzun olan şagirdlərimiz qəbul imtahanlarında yaxşı göstəricilərlə ali məktəblərə qəbul olunublar. Buna baxmayaraq biz öz üzərimizdə daha çox işləməliyik. Çalışmalıyıq ki, hər il məzun olan şagirdlərimiz daha çox bal toplasınlar və daha yaxşı nəticələr əldə etsinlər. Məktəbimizdə sizlərin yaxşı təhsil almalarınız üçün dövlətimiz tərəfindən lazım olan bütün şərait yaradılıb, bundan sonra da nə lazım olsa edəcəyik. Çünki Azərbaycanımızın gələcəyi sizin əlinizdədir. Ölkəmizi daha da qüdrətli etməyin yolu sözsüz ki, keyfiyyətli təhsildən, savadlı və intellektual gənclikdən keçir. Bu gün Azərbaycanda təhsilin keyfiyyətini ən yüksək səviyyəyə çatdırmaq dövlətin prioritet istiqamətlərindən biridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyev təhsilə xüsusi önəm verir. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə son illərdə ölkəmizdə çox sayda məktəb əsaslı təmir olunub, xeyli sayda məktəb yüksək standartlar səviyyəsində yenidən tikilərək şagirdlərin istifadəsinə verilib. Müəllim və şagirdlərin üzərinə düşən vəzifə isə bunları qoruyub saxlamaq, yaradılan şəraitdən maksimum istifadə edərək yüksək təhsil almaqdır. Hər birinizə uğurlar arzulayıram".

Direktorun çıxışından sonra ilk zəng çalındı və şagirdlər siniflərə yollandılar.

Qeyd edək ki, 2019-2020-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrində 1 525 016 şagird təhsil alacaq ki, onlardan 714 259-u qız, 810 757-si isə oğlandır. Məktəblərin I sinfində 164 234, XI sinfində isə 82 782 şagird təhsil alacaq. Hər il olduğu kimi, bu il də dərs vəsaitləri Təhsil Nazirliyi tərəfindən şagirdlərə pulsuz paylanılacaq.

**Taleh Bağırov,**
***"İki sahil"***

# Muxtar respublikada Bilik Günü qeyd olunub

## *Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilib*



**Sentyabrın 16-da muxtar respublikada Bilik Günü Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin yeni binasının istifadəyə verilməsi ilə qeyd olunub.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın ali, orta ixtisas, ümumtəhsil məktəblərinin tələbə və şagirdlərini, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, pedaqoji kollektivləri Bilik Günü münasibətilə təbrik edərək deyib: Təhsil hər bir ölkə üçün strateji sahədir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz!". Elm və təhsil hər bir ölkənin inkişafının əsasını təşkil edir. Dünya dövlətlərinin inkişafla bağlı müasir çağırışları, ilk növbədə təhsillə, cəmiyyətin intellektual inkişaf səviyyəsi ilə əlaqəlidir. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan etmişdir.



Qeyd olunub ki, ölkəmizdə təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı və bu sahədə həyata keçirilən islahatlar innovativ inkişafa və güclü iqtisadi potensiala əsaslanır. İqtisadiyyatın dinamik inkişaf səviyyəsi muxtar respublikada genişmiqyaslı layihələri reallaşdırmağa, o cümlədən təhsil infrastrukturunu yeniləşdirməyə tam imkan verir. Təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşmasını şərtləndirən ən mühüm amillər təhsil prosesinin inkişaf etdirilməsi, müasir standartlara cavab verən yeni məktəblərin tikilməsi, bu yolla təhsil ocaqlarında kontingent sıxlığının aradan qaldırılmasıdır. Son illərdə muxtar respublikada tikilən və yenidən qurulan 200-dən çox təhsil müəssisəsi ən müasir standartlar səviyyəsində şagirdlərin, müəllimlərin istifadəsindədir. Görülən tədbirlər təhsilin müasir inkişafına, eyni zamanda, yüksək intellektli kadr potensialının hazırlanmasına şərait yaradır. Bu səbəbdən ötən tədris ilində muxtar respublika üzrə buraxılış imtahanlarının nəticələri Azərbaycan üzrə orta statistik göstəricidən yüksək olmuşdur.

Ali Məclisin Sədri bu işdə əməyi olanlara təşəkkürünü bildirərək deyib: Bu il Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini 2917 məzun bitirmiş, məktəblərə 5272 şagird qəbul edilmişdir. Hər bir məktəbin təhsilin inkişafı və kadr hazırlığı işində öz töhfəsi və əməyi vardır. 5 nömrəli tam orta məktəb də bu inkişafın bir hissəsi olmaqla yüksək təhsil nəticələri ilə fərqlənir. Belə ki, 2018-2019-cu tədris ilində məktəbin 64 məzunundan 50-i ali təhsil müəssisələrinə qəbul olmuş, onlardan 12-i 500-700 intervalında bal toplamışdır.

"Muxtar respublikamızda müəllimlərin fəaliyyətinin stimullaşdırılması üçün onların əməyinin qiymətləndirilməsi, sosial həyat şəraitinin yaxşılaşdırılması təhsilin inkişafına kompleks yanaşmanın təzahürüdür", - deyən Ali Məclisin Sədri bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin ictimai-siyasi həyatında fəal iştirakını təmin edir. Gənclərə verilən dəstək davamlı və dayanıqlı inkişafa və gələcəyə qoyulan sərmayədir. Zəngin təhsil ənənələrinə, güclü intellektual və kadr potensialına malik muxtar respublikamızda bu ənənələr yeni dövrün tələbləri nəzərə alınmaqla inkişaf etdirilməlidir. Yaradılmış şərait və dövlət qayğısı bilikli, vətənpərvər, milli düşüncəyə malik gənclərin hazırlanmasına xidmət etməlidir.



Ali Məclisin Sədri deyib: Təhsildə informasiya texnologiyalarının tətbiqi genişləndirilməli, tədrisin distant istifadə imkanları artırılmalı, elektron dərsliklərin, təhsil portallarının yaradılması işi diqqətdə saxlanılmalıdır. Təhsilin əsas məqsədi gənclərə düzgün qərarlar qəbul etmək sənətini öyrətməkdir. Düzgün qərarlar qəbul etməklə gənclər şəxsiyyətə, ölkələr isə qüdrətli dövlətə çevrilir. Bilik Günündə Naxçıvan şəhərində yeni məktəb binasının istifadəyə verilməsi və yaradılan şərait təhsil sahəsində həyata keçirilən tədbirlərin davamlı olmasının və inkişafının göstəricisidir.

Ali Məclisin Sədri yeni tədris ilində müəllim və şagirdlərə uğurlar arzulayıb, muxtar respublikanın bütün şagird, kursant və tələbələrini, müəllim və valideynləri yeni dərs ili münasibətilə bir daha təbrik edib.

Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin direktoru Esmira Həsənova çıxış edərək deyib ki, muxtar respublikada şagirdlər hərtərəfli təhsil alır, milli dəyərlərimizə, adət-ənənələrimizə sahib, yüksək biliyə malik vətənpərvər gənclər kimi yetişirlər. Bu gün Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb də müasir maddi-texniki bazaya malik məktəblər sırasına qoşulur. Yaradılan müasir tədris şəraiti təhsilin yüksək səviyyədə təşkilinə geniş imkanlar açır. Ötən 5 ildə məktəbi bitirən məzunlardan 207-si, yaxud 83 faizi ali və orta ixtisas təhsil müəssisələrinə qəbul olub, onlardan 53-ü 500-700 arası bal toplayıb. Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin kollektivinin əməyi də daim yüksək qiymətləndirilib, müəllimlərdən 2-si "Tərəqqi" medalına, 1-i isə "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" fəxri adına layiq görülüb. Həmçinin sentyabrın 1-dən müəllimlərin aylıq vəzifə maaşlarının əlavə olaraq orta hesabla 20 faiz artırılması təhsil işçilərini fərəhləndirir və daha əzmlə, məsuliyyətlə çalışmağa sövq edir. Esmira Həsənova təhsilə göstərilən diqqətə görə muxtar respublika müəllimləri adından minnətdarlıq edib.

Məktəbin yeddinci sinif şagirdi Zümrüd Zeynallı çıxış edərək deyib ki, bu gün şagirdlər ikiqat sevinc yaşayır. Çünki həm "Bilik günü"nü qeyd edirik, həm də məktəb binamız yenidən tikilərək biz şagirdlərə hədiyyə olunur. Yeni məktəbdə zəngin kitabxana, idman zalı, kompüter otaqları, elektron lövhəli siniflər, laboratoriyaların olması bilikli və vətənpərvər gənclər kimi formalaşmağımıza təsir göstərəcəkdir. Zümrüd Zeynallı müasir təhsil şəraitinə görə şagirdlər adından Ali Məclisin Sədrinə minnətdarlıq edib, daha yaxşı təhsil alaraq ulu öndərimiz Heydər Əliyevin ideyalarına sadiq vətəndaş kimi yetişəcəklərini bildirib.

Sonra Zümrüd Zeynallı Ulu Öndərə həsr olunmuş şeiri bədii qiraət edib:

*Sən yurduma ən ağır,*
*çətin zamanda gəldin,*
*Xalqın oda-alova*
*düşüb yananda gəldin,*
*Ümidsizlik zəlitək*
*qanlar soranda gəldin,*
*Ulu Öndərim mənim,*
*Dədə Heydərim mənim!*

*Parçaladın, dağıtdın*
*qatı zülməti, sağ ol!*
*Oyandırdın damarda*
*yatan qeyrəti, sağ ol!*
*İşığa çıxartdın*
*xalqı, milləti, sağ ol!*
*Ulu Öndərim mənim,*
*Dədə Heydərim mənim!*

*Anam Azərbaycanla*
*qoşadır adın sənin,*
*Günəş kimi nurlusan-*
*sönməzdir odun sənin.*
*Vətən olub həmişə*
*qolun-qanadın sənin,*
*Ulu Öndərim mənim,*
*Dədə Heydərim mənim!*

*Arzumuz əməlimiz,*
*diləyimizsən bizim!*
*Hər an qəlbimizdəsən-*
*gərəyimizsən bizim!*
*Sabah eşqiylə coşan*
*ürəyimizsən bizim,*
*Ulu Öndərim mənim,*
*Dədə Heydərim mənim!*

*Hünərinlə dağıldı*
*yolumuzdan çən-duman,*
*Ağ günlərin əlini*
*sıxıbdı Azərbaycan,*
*Gözəl, xoşbəxt günlərə*
*çıxıbdı Azərbaycan,*
*Ulu Öndərim mənim,*
*Dədə Heydərim mənim!*

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsib. Bildirilib ki, 4 mərtəbəli məktəb binası 1140 şagird yerlikdir. Təhsil ocağında 3-ü elektron lövhəli olmaqla 60 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, 2 şahmat otağı, 2 müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır. Məktəbdə 952 şagirdin təhsili ilə 80 müəllim məşğul olur. Bu tədris ilində məktəbin birinci sinfinə 120 şagird qəbul olunub.

Fizika, kimya və biologiya laboratoriyalarında dərs proqramına uyğun təcrübə avadanlıqları qoyulub. Eyni zamanda, fizika və biologiya kabinələri elektron lövhə ilə təmin edilib. Məktəbin şagirdləri dəqiq fənlərə üstünlük verirlər. Son 5 ildə məktəbin məzunlarından 10-u mühəndislik ixtisasını seçib. Eyni zamanda, məktəbin şagirdlərindən Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olanlar da vardır.

Ali Məclisin Sədri dəqiq elmlərin tədrisində elektron dərsliklərdən istifadənin əhəmiyyətini vurğulayıb, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslərin keçirilməsi, şagirdlərə muxtar respublikanın zəngin fauna və florası haqqında məlumatların verilməsi barədə tapşırıqlar verib.



Məktəbin şahmat sinfində lazımi avadanlıqlar qoyulub. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən nəşr olunmuş "Pillə-pillə" kitabı bu ildən etibarən muxtar respublikanın ümumtəhsil məktəblərində tədris vəsaiti kimi istifadə olunacaqdır.

Məktəbə optik xətt çəkilib və sürətli internetə çıxış təmin edilib. Kompüter otaqlarındakı 63 kompüterin hər biri və 5 elektron lövhə internetə qoşulub, zəngin elektron dərslik bazası yaradılıb. Bu da tədrisdə yeni texnologiyaların imkanlarından geniş istifadə olunmasına, ən əsası isə dərslərin daha yaxşı qavranılmasına imkan verəcəkdir.

Elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında keçirilən "Ümummilli lider Heydər Əliyevin təhsil strategiyası" interaktiv dərsi izlənilib, 4 mindən artıq şagirdə mövzu ilə bağlı ətraflı məlumat verilib.

Ali Məclisin Sədri interaktiv dərslərlə yanaşı, həm də şagirdlərin muzeylərə ekskursiyalarının təşkili və açıq dərslərin keçirilməsi barədə tapşırıqlar verib.

Məktəbin kitabxanasında 9512 latın qrafikalı dərslik və 2273 bədii ədəbiyyat olmaqla, 11 min 785 kitab vardır. Kitabxanada ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, eləcə də oxunması zəruri olan kitablardan və yubileyləri qeyd olunan ədiblərin əsərlərindən ibarət guşələr yaradılıb. Müasir idman zalında, eləcə də hərbi kabinədə də tədris üçün lazımi şərait vardır.

Məktəbin hərbi rəhbəri Bəxtiyar Həsənov muxtar respublikada gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin təşkilinə və hərbi rəhbərlərin hazırlığına xüsusi diqqət yetirildiyini bildirib, göstərilən qayğıya görə minnətdarlıq edib.

Ali Məclisin Sədri çağırışaqədərki hərbi hazırlıq və fiziki tərbiyə dərslərinə diqqətin artırılması, məktəbdə müxtəlif idman yarışlarının keçirilməsi barədə tapşırıqlar verib.

Sonra məktəbin müəllimləri ilə görüş olub.

Ali Məclisin Sədri deyib: Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb nailiyyətləri ilə seçilən qabaqcıl təhsil ocaqlarındandır. Ali məktəblərə qəbulda muxtar respublikanın orta göstəricisi ölkə üzrə orta göstəricidən, 5 nömrəli məktəbin göstəriciləri də muxtar respublikanın orta göstəricisindən yüksəkdir. Bütün bunlar ölkəmizdə təhsilin inkişafı üçün yaradılan şəraitin, müəllim əməyinə verilən qiymətin, eyni zamanda müəllim tələbkarlığının və şagird çalışqanlığının nəticəsidir. Təhsil sahəsində qazanılan uğurlar ölkəmizin gələcəyinə xidmət edir. Dövlətimiz tərəfindən müəllim və şagirdlər üçün hər cür şərait yaradılıb. Məktəb müasir tədrisin tələbləri səviyyəsindədir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə edilməli, şagirdlər çalışqan, müəllimlər isə tələbkar olmalı, dərslər qavrama yolu ilə öyrədilməli, nailiyyətlər daha da artırılmalıdır. Hər bir müəllimin əsas vəzifəsi vətənpərvər və təhsilli gənclər hazırlamaqdan ibarətdir. Çünki sağlam gənclik ölkəmizin gələcəyidir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirib, qazanılan nailiyyətlərə görə kollektivə təşəkkür edib.

Məktəbin müəllimi Samirə Məmmədova deyib: Məktəbimizdə yaradılan şərait şagirdlərin daha yaxşı təhsil almasına böyük imkanlar açmaqla yanaşı, həm də müəllimləri daha yaxşı işləməyə ruhlandırır. Bu gün muxtar respublikada təhsilə böyük qayğı göstərilir. Gənclərin işlə təminatı diqqətdə saxlanılır. Gənc müəllimlərin müsabiqə yolu ilə məktəblərə qəbul olunması da bu sahədə görülən işlərin davamıdır. Samirə Məmmədova muxtar respublika müəllimləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib, gənc nəslin təlim-tərbiyəsində səylə çalışacaqlarını bildirib.

Məktəb binasının həyəti də abadlaşdırılıb, yaşıllıqlar salınıb, açıq idman qurğuları quraşdırılıb.

# BSU-da "Bilik Günü" təntənəli şəkildə qeyd olundu

**Sentyabrın 16-da Bakı Slavyan Universitetində (BSU) "Bilik Günü"nə həsr olunmuş təntənəli tədbir keçirildi. Tədbirdən öncə ulu öndər Heydər Əliyevin universitetin foyesindəki yerləşən büstü önünə əklil qoyuldu.**





Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Yunanıstan dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Nikolas Kanellos, Rusiyanın Azərbaycandakı səfirinin məsləhətçisi İqor Yeronin, Ukraynanın Azərbaycandakı səfirinin katibi Georgi Selski, Çexiyanın Azərbaycandakı səfirinin müavini Daniel Putik, Belarusun Azərbaycandakı səfirinin I katibi, konsul İnessa Pavlovskaya, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Milli Məclisin deputatları Elman Nəsirov, Sevinc Fətəliyeva, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri Zərifə Salahova, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, təhsil eksperti, professor Şahlar Əsgərov, Trend İnformasiya Agentliyinin baş direktorunun korporativ inkişaf üzrə müavini Arzu Nağıyev və media nümayəndələri iştirak edirdilər.







Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva tələbələri yeni tədris ilinin başlanması münasibətilə təbrik edərək onlara dərslərində uğurlar arzuladı. Rektor Azərbaycan təhsil sisteminin müasir dövrdə çox böyük nailiyyətlər əldə etdiyini, bəşər sivilizasiyasına böyük töhfələr verdiyini dilə gətirdi və Azərbaycan xalqının zəngin maarifçilik ənənələri, pedaqoji fikir tarixi ilə qürur duyduğunu vurğuladı. O, dahi alim Lütfi Zadənin dünyanın nəhəng elm adamları ilə bir cərgədə dayandığını, dəqiq elmlərə yanaşı, Azərbaycan bədii-fəlsəfi fikrinin bəşər mədəniyyətinin inkişafında əvəzsiz rol oynadığını qeyd etdi. Rektor dünya şöhrətli elm və ədəbiyyat xadimlərimizin yetişməsini məhz Azərbaycanın yüksək səviyyəli təhsilinin göstəricisi kimi dəyərləndirdi.

N.Əliyeva Bakı Slavyan Universitetinin də böyük ənənəsi olan ali təhsil müəssisələrindən biri olduğunu bildirdi. BSU-nun xarici ölkə universitetləri ilə sıx əlaqələrə malik olduğunu bildirən rektor diliminizin, mədəniyyətimizin dünyada təbliği istiqamətində burada ciddi əməli işlər görüldüyünü diqqətə çatdırdı. Rektor qeyd etdi ki, bu gün dünya təhsilinin ən mütərəqqi ənənələrini universitetimizdə tətbiq etmək, tədris və tərbiyə sahəsində yeni uğurlara imza atmaq, universitetin maddi-texniki bazasını beynəlxalq standartlara uyğunlaşdırmaq başlıca məqsədimizdir. Nurlana Əliyeva Ümummilli Liderin təşəbbüsü ilə 15 sentyabr tarixinin hər il "Bilik Günü" kimi təntənə ilə qeyd edilməsini təhsilə göstərilən qayğının bariz nümunəsi kimi dəyərləndirdi. Professor N.Əliyeva bildirdi ki, son illər ölkəmizdə humanitar sahədə qazanılan uğurlar dövlət başçısı cənab İlham Əliyevin təhsilin inkişafı ilə əlaqədar imzaladığı proqramlar çərçivəsində həyata keçirilən islahatların, ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təhsil obyektlərinin yeniləşməsi sahəsində gördüyü işlərin və dövlətimizin bu sahəyə xüsusi qayğısının nəticəsi kimi dəyərləndirilməlidir. N.Əliyeva dedi ki, Bakı Slavyan Universitetində təhsilin səviyyəsi, burada tələbələrin biliklərə yiyələnməsi üçün yaradılan şərait hər zaman diqqət mərkəzində olub. Universitetin potensialı istiqamətində mütəmadi olaraq işlər görüldüyünü deyən N.Əliyeva bu il BSU-ya qəbul sayının ötən illərlə müqayisədə daha da artdığını diqqətə çatdırdı.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov çıxışında ölkədə təhsil məsələləri ilə bağlı görülən işlərdən, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən təhsilə göstərilən diqqət və qayğıdan danışaraq bildirdi ki, Nəsimi rayon ərazisində yerləşən ali və orta məktəblərdə həm təhsilin səviyyəsinə, həm də müəssisələrin vəziyyətinə ciddi fikir verilir. İcra başçısı qeyd etdi ki, Nəsimi rayonu ərazisindəki təhsil ocaqlarında, habelə səhiyyə mərkəzlərində yaradılan münbit şərait, onların texniki avadanlıqlarla təmin olunması ölkəmizdə müasir təhsil və səhiyyə sisteminin inkişafının göstəricisidir.

A.Əsgərov ulu öndər Heydər Əliyevin gənclərlə görüşü zamanı təhsillə bağlı səsləndirdiyi fikri xatırlatdı: "Artıq "qara qızıl"dan qurtarıb ağ qızıla - elmə, təhsilə keçməyin vaxtı yetişib!" A.Əsgərov BSU-da yaradılan əlverişli şəraitə görə rektor Nurlana Əliyevaya minnətdarlıq edərək bu universitetin ölkənin ictimai-siyasi həyatında mühüm rola malik olduğunu diqqətə çatdırdı. O, BSU tərəfindən universitet daxilində, müxtəlif bölgələrdə, o cümlədən Qarabağın işğaldan azad olunmuş Cocuq Mərcanlı ərazisində respublika səviyyəli tədbirlərin keçirilməsini müsbət hal kimi dəyərləndirdi.

Sonra BSU-nun "Arzu" rəqs ansamblının ifasında "Cəngi" rəqsi nümayiş olundu və universitetin himni səsləndirildi.

Tədbirdə çıxış edən BSU-nun Tərcümə fakültəsinin IV kurs tələbəsi Şamil Nuri universitetlə bağlı xoş təəssüratlarını I kurs tələbələri ilə bölüşdü.

Tədbirdə bu il Bakı Slavyan Universitetinin Filologiya və xarici dil müəllimliyi, Azərbaycan filologiyası və jurnalistika, Məktəbəqədər təlim-tərbiyə və ibtidai təhsil, Pedaqoji, Tərcümə, Beynəlxalq münasibətlər və regionşünaslıq fakültələrinə yüksək bal toplayaraq qəbul olunan tələbələr rektor Nurlana Əliyeva tərəfindən hədiyyələrlə mükafatlandırıldılar.

**Orxan Vahidoğlu,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# "Azərbaycanın Dostları"

## *Sosial şəbəkə istifadəyə verilib*

**Tanınmış pakistanlı aparıcı, siyasi analitik Malik Ayyub Sumbalın təşəbbüsü ilə "Azərbaycanın Dostları" (FOA) adlı sosial şəbəkə istifadəyə verilib.**

Həmfikir insanların sosial şəbəkəsi olan "Azərbaycanın Dostları" müxtəlif sosial, mədəni və innovativ tədbirlər və fəaliyyətlər vasitəsilə bütün dünyada Azərbaycanın müsbət imicini və diplomatiyasını əks etdirən layihələr başladıb.




Azərbaycanın həqiqi dostlarından ibarət olan belə bir mütərəqqi və aktiv sosial şəbəkənin yaradılması ideyası il yarım Bakıda yaşamış dünya şöhrətli geosiyasi analitik və mükafat qazanan jurnalist Malik Ayyub Sumbal tərəfindən irəli sürülüb.

O, Bakıda olduğu zaman Azərbaycan xalqını, mədəniyyətini və ölkəsini çox yaxından izləmək şansı qazanıb. O, qaldığı müddətdə ölkənin ucqar ərazilərini gəzib və Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən infrastrukturun inkişaf etdirilməsinə heyran olub.

O, həmçinin Prezident İlham Əliyevin baxışlarına əsaslanan, Şərqlə Qərb arasında balanslaşdırılmış xarici siyasət doktrinası üzərində işləyən ölkə rəhbərliyinə də heyran qalıb.

Malik Ayyub Sumbal bildirib ki, Azərbaycanın Dostları (FOA) dünyanın müxtəlif ölkələrində yerli bölmələr yaratmağı planlaşdırır. Sumbal deyib: "Azərbaycanın bütün dostlarını bir çətir altında birləşdirməyə çalışırıq. Azərbaycan möhtəşəm insanların diyarı olan böyük bir ölkədir. Azərbaycan saf cəmiyyətin və səmimi insanların ölkəsidir. Buna görə də bu şəbəkəni işə salmaqla Azərbaycanın mənə verdiyi sevgi, qayğı və hörmətin qarşılığını verməyə çalışıram."

"Azərbaycanla münasibətlərim yalnız səmimiyyətə əsaslanır. Buraya 2016-cı ildə qısa müddətə gəldim, amma Azərbaycan xalqının sevgisi, məhəbbəti və hörməti bu gözəl odlar diyarındakı səfərimi il yarım daha uzatdı".

Malik Ayyub Sumbal "Mən 2015-ci ildə Myanmarın Yanqon şəhərində görüşdüyüm Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti cənab Umud Mirzəyev tərəfindən Azərbaycana dəvət edildim. O gündən etibarən Azərbaycanla münasibətlər daha da möhkəmləndi. Bakıda olanda özümü evimdəki kimi hiss edirəm", - deyib.

O, bildirib ki, Azərbaycanın Dostları (FOA) bütün dünyada Azərbaycan üçün dost səsi olacaq.

Qeyd edək ki, dünya şöhrətli geosiyasi analitik və teleaparıcı Malik Əyyub Sumbal 15 ildən artıq peşəkar təcrübəyə malikdir. O, 2012-ci ildə "Syracuse University Mirror" mükafatına layiq görülüb.

Tanınmış aparıcı, siyasi analitik Malik Ayyub Sumbal 15 illik jurnalistika təcrübəsinə malikdir. O, Sirakuz Universitetinin "Güzgü" beynəlxalq media mükafatının və bir çox müsabiqələrin qalibidir. "Eurasia Diary" və "Caspian Times" media qurumlarını özündə birləşdirən "Avrasiya Media Şəbəkəsi"nin baş redaktoru vəzifəsində çalışmış Malik Ayyub Sumbal Əl-Cəzirə, CGTN, Asia Times, Gulf News, The Diplomat, CNN, Daily Sabah v.s aparıcı media qurumlarının şərhçisidir.

# Bakı Dövlət Universitetində “Bilik Günü”






Bakı Dövlət Universitetində (BDU) “Bilik Günü” qeyd edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbiri rektor Elçin Babayev açaraq Azərbaycan ali təhsil ocaqlarının flaqmanı olan 100 yaşlı Bakı Dövlət Universitetinin birinci kurs tələbələrini və onun nəzdində fəaliyyət göstərən “Gənc istedadlar” liseyinə qəbul olan şagirdləri təbrik edib. “Siz həyatınızın mühüm bir mərhələsinə qədəm qoyursunuz. Universitetin 100 yaşının tamam olduğu ildə onun bir üzvünə çevrilirsiniz. Bunu sonralar dəyərləndirəcək, xatirələrinizdə yaşadacaqsınız” deyən rektor yüzüncü ilin birincilərinə universitetdə onlar üçün yaradılan şəraitdən səmərəli istifadə etmələrini tövsiyə edib. Rektor tələbələrin təhsilə başladıqları bu gündən etibarən savadlı, bilikli, elmli, bacarıqlı bir mütəxəssis kimi yetişəcəklərinə, ölkəmizin tərəqqisində, cəmiyyətin inkişafında mühüm rol oynayacaqlarına, fəaliyyətlərində vətənpərvərlik və dövlətçilik prinsiplərini əsas tutacaqlarına, Bakı Dövlət Universitetinin adına hər zaman şərəf və şöhrət gətirəcəklərinə əminliyini ifadə edib. Universitetin respublikamız və əksər dünya dövlətləri üçün yüksək ixtisaslı mütəxəssislər hazırladığını vurğulayaraq həmin məzunlar arasında dünya elminə, mədəniyyətinə, siyasətinə təsir göstərmək qüdrətinə malik yüzlərlə tarixi şəxsiyyətlər arasında ümummilli lider Heydər Əliyev xüsusi yer tutduğunu diqqətə çatdırıb.

Noyabr ayında Bakı Dövlət Universitetinin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd ediləcəyini bildirən rektor yubiley tədbirlərinin indiyədək UNESCO-nun Parisdəki Baş qərargahında və Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində qeyd edildiyini, çoxsaylı elmi, mədəni, kütləvi tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu da fikirlərinə əlavə edib.

Bu il ölkə üzrə ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarından danışan rektor ən çox tələbə qəbulunun Bakı Dövlət Universitetinin payına düşdüyünü, Qazax filialı da daxil olmaqla ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə BDU-ya qəbul olunanların ümumi sayının 6462 nəfər təşkil etdiyini bildirib. Məlum olub ki, həmin tələbələrdən 5127 nəfər bakalavriat səviyyəsinə, 550 nəfər Qazax filialına, 785 nəfər tələbə isə magistraturaya qəbul olunub. Qəbul imtahanı verən abituriyentlərdən 500-dən çox bal toplayan 1563 nəfəri Bakı Dövlət Universitetini seçib.

“Gənc istedadlar” liseyi haqqında məlumat verən rektor Elçin Babayevin sözlərinə görə, bu il liseyi bitirən 48 məzundan 16 nəfəri 600-dən yuxarı bal toplayıb, 3 nəfər Prezident təqaüdünə, 6 nəfər qızıl, 1 nəfər gümüş medala, 6 nəfər fərqlənmə attestatına layiq görülüb.

Tədbirdə BDU-nun professor-müəllim heyəti adından professor Ülviyyə Həsənova, tələbələr adından isə Tarix fakültəsinin tələbəsi Jalə Vəliyeva çıxış ediblər.

Sonra hər fakültədən ən yüksək bal toplamış 2 tələbəyə tələbə vəsiqəsi və korporativ elektron poçt ünvanı, 660 baldan yuxarı nəticə göstərmiş 33 tələbəyə isə YAP Yasamal rayon təşkilatının hədiyyəsi təqdim edilib.

“Bilik Günü” rektorun birinci kurs tələbələri ilə BDU-nun həyətində çiçəklərin əkilməsi mərasimi ilə başa çatıb.

Tədbir boyunca hərbi orkestr mahnılar ifa edib.

✍ **Nərgiz Nəcəfli**

# CƏLİL MƏMMƏDQULUZADƏNİN “POÇT QUTUSU” TACİK DİLİNDƏ




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamına əsasən, bu il görkəmli yazıçının yubileyi bir sıra tədbirlərlə davam etdirilir.**

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəylinin layihəsi və ideya müəllifliyi ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin əsərləri xarici dillərə tərcümə edilərək nəşr olunur. İsa Həbibbəyli böyük demokrat yazıçının əsərlərini Rusiyada (1999), Pakistanda (2004), Misir Ərəb Respublikasında (2007), Macarıstanda (2011), Litvada (2017), Özbəkistanda (2018), Bolqarıstanda (2019) kitab halında müxtəlif dillərdə nəşr etdirmiş, həmin kitablara müqəddimələr yazmışdır. Bu günlərdə Tacikistanın paytaxtı Düşənbə şəhərində Cəlil Məmmədquluzadənin “Poçt qutusu” adlı növbəti kitabı tacik dilində nəşr edilib.

Akademik İsa Həbibbəyli indiyədək xarici dillərdə çıxan bütün nəşrlərdə olduğu kimi, bu kitaba da “Azərbaycanın görkəmli yazıçısı Cəlil Məmmədquluzadə” adlı geniş həcmli müqəddimə yazıb. Müqəddimədə Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixinə, görkəmli yaradıcı simalarına müəyyən yer ayırmış akademik İsa Həbibbəyli “Molla Nəsrəddin” ədəbi məktəbinin banisi Cəlil Məmmədquluzadənin həyatı və mühiti, zəngin yaradıcılığı haqqında tacik oxucusuna geniş ensiklopedik məlumatlar təqdim edib. Akademik İsa Həbibbəyli müqəddimədə görkəmli yazıçının xidmətlərini aşağıdakı kimi səciyyələndirib: “Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında “Molla Nəsrəddin” ədəbi məktəbinin yaradıcısı və tənqidi realizm ədəbi cərəyanının banisi kimi böyük şöhrət qazanmışdır. Böyük demokrat ədib kimi tanınan Cəlil Məmmədquluzadə ədəbiyyatda kiçik hekayə janrının və satirik publisistikanın da əsasını qoymuşdur. Ustad Mirzə Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında milli istiqlal ədəbiyyatının sərkərdəsi kimi qəbul olunur. Cəlil Məmmədquluzadənin adı dünyada realist-satirik ədəbiyyatın görkəmli yaradıcıları ilə eyni sırada dayanır.”

Əsərləri tacik dilinə çevirmiş Tacikistanın tanınmış ədəbiyyatşünas alimi, professor Muxammadsalom Maxşulovun “Tərcüməçidən ön söz” başlıqlı yazısında Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığından, əsərlərinin ideya-bədii xüsusiyyətlərindən ətraflı bəhs edilir.

Kitaba Cəlil Məmmədquluzadənin “Poçt qutusu”, “Usta Zeynal”, “Nigarançılıq”, “Molla Fəzləli”, “Xanın təsbehi”, “Qəssab”, “Quzu”, “Qurbanəli bəy”, “Məşrutə”, “Bəlkə də qaytardılar”, “Yuxu”, “Pirverdinin xoruzu”, “Saqqallı uşaq” və “Baqqal” kimi dünyaca mışhur hekayələri daxil edilib.

“Poçt qutusu” kitabı Azərbaycan Respublikasının Tacikistan Respublikasındakı Səfirliyinin dəstəyi ilə Düşənbənin “ER-Qraf” nəşriyyatında işıq üzü görüb.

✍ **Esmira Verdiyeva**

# Qonaqlar ağacəkmə aksiyasında iştirak ediblər



**Azərbaycan Gimnastika Federasiyası (AGF) sentyabrın 16-22-də Bakıda keçiriləcək bədii gimnastika üzrə 37-ci dünya çempionatı zamanı ağacəkmə aksiyası təşkil edib.**

AGF-nin nümayəndələri, həmçinin çempionatın rəsmi səfiri, 1996-cı ildə keçirilmiş Olimpiya Oyunlarının gümüş medalçısı Yana Batırşina iştirak ediblər.

Əvvəlcə açılış sözü ilə çıxış edən AGF-nin baş katibi Nurlana Məmmədzadə qonaqları salamlayıb və onlara tədbirdə iştirak töhfələrini veriblər.

Ağacəkmə aksiyasında iştirak edən gimnastlar təmsil etdikləri ölkə adından ağac əkməklə, çempionat zamanı bütün dünyaya sülh və ətraf mühitin mühafizəsi mesajını verərək ictimaiyyətin diqqətini cəlb ediblər.

Aksiyanın keçirilməsində əsas məqsəd ağac əkməklə ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, ictimaiyyətin diqqətini yaşıllıqların qorunmasına yönəltmək, eləcə də insanların, xüsusilə, gənc nəslin ekoloji problemlərə daha həssas yanaşmasına və bununla bağlı birgə fəaliyyətə səsləməkdən ibarətdir.

“Tokio 2020” Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 61 ölkədən 300-dən çox gimnast birincilik uğrunda mübarizə aparacaq. Çempionatda ölkəmizi 9 gimnast təmsil edəcək. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova gücləri sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.







AZƏRTAC xəbər verir ki, ağacəkmə aksiyası yarışlar başlamazdan 1 gün əvvəl - sentyabrın 15-də Milli Gimnastika Arenasının parkında keçirilib.

Tədbirdə 37-ci dünya çempionatına təşrif buyurmuş nümayəndə heyətləri, gimnastlar, Beynəlxalq Gimnastika (FIG) və etdikləri üçün təşəkkürünü bildirib. Yetişən gənc nəslə təbiətin mühafizəsi çağırışını verən təşkilatçılar daha sonra ilk olaraq Y.Batırşina ilə ağacəkmə mərhələsinə start veriblər. Ardınca gimnastlar və digər qonaqlar da ağac əkərək, ətraf mühitin qorunmasına, yaşıllığın artmasına öz

# Gömrük Akademiyası 6-ci tədris ilini qarşılayır




**Sentyabrın 16-da Dövlət Gömrük Komitəsinin Akademiyasında "Bilik Günü" münasibətilə tədbir keçirilib.**

Tədbir Dövlət Himninin səslənməsi ilə başlanıb.

Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, komitə sədrinin müavinləri, akademiyanın rəhbərliyi, müəllim və tələbələr, valideynlər iştirak ediblər.

Yeni tədris ilinin başlanması münasibətilə akademiyanın müəllim-tələbə kollektivini, valideynləri təbrik edən İsmayıl Hüseynov bildirib ki, əsası ümummilli lider Heydər Əliyevin qoyduğu təhsil islahatları bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər il olduğu kimi, bu il də yeni tədris ilinin başlanması ərəfəsində ölkəmizin bütün regionlarında, şəhər və qəsəbələrində yeni müasir təhsil ocaqları tikilib, istifadəyə verilib.

Vurğulanıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı layihələr istedadlı, bilikli gənclərin hər sahədə önə çəkilməsinə, təhsilimizin inkişafına təkan verib.

İsmayıl Hüseynov diqqətə çatdırıb ki, aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq gömrük orqanlarının müasir elmin sirlərinə yiyələnən ixtisaslı kadrlarla təmin olunması məqsədilə Prezident İlham Əliyev tərəfindən Dövlət Gömrük Komitəsinin Akademiyası təsis olunub.

Fəaliyyət göstərdiyi qısa dövr ərzində akademiyanın yüksək nəticələr əldə etməsinin, bakalavr səviyyəsi üzrə qəbul olunan tələbələrin yekun dövlət attestasiyası zamanı əldə etdikləri uğurlu nəticələrin qürurverici olduğu vurğulanıb.

"Artıq tam əminliklə deyə bilərik ki, akademiyamız nəinki ölkəmizin, eyni zamanda, regionun aparıcı müasir ali təhsil müəssisələrindən birinə çevrilib", - deyə sözünə davam edən Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini akademiyaya bu il qəbul olunan və hazırda təhsilini davam etdirən digər tələbələrin də estafeti uğurla başa vuracaqlarına əminliyini bildirib. İsmayıl Hüseynov gənclərin savadlı, bacarıqlı kadrlar, layiqli vətəndaşlar kimi yetişməsi məqsədilə Dövlət Gömrük Komitəsinin də bütün zəruri addımları atacağını diqqətə çatdırıb.

Daha sonra Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti polkovniki Qulu Novruzov çıxış edərək bildirib ki, akademiya artıq 6-cı tədris ilini, yeni dərs ilini qarşılayır. Dövlət Gömrük Komitəsinin Akademiyası bu gün Azərbaycanın ən sayılıb-seçilən, ən inkişaf etmiş, ən mütərəqqi ali məktəbləri ilə müqayisə oluna bilən ali təhsil müəssisəsidir.

Akademiyanın rəisi vurğulayıb ki, bu gün Azərbaycanda hər sahədə olduğu kimi, gömrük sahəsində də çox intensiv, zamanın tələbinə uyğun olaraq çoxsaylı islahatlar həyata keçirilir. Bu istiqamətdə Azərbaycan Prezidentinin "Qara qızılı" insan kapitalına çevirək" devizi rəhbər tutularaq ən mütərəqqi və yüksək səviyyəli mütəxəssislərin hazırlanması prioritet vəzifə olaraq qalır. Bu vəzifəni yerinə yetirmək üçün akademiyanın kollektivi, pedaqoji heyəti, əməkdaşları, inzibati heyəti əllərindən gələni edirlər.

Akademiyada yüksək təhsil mühitinin yaradılmasına görə Dövlət Gömrük Komitəsinin rəhbərliyinə təşəkkürünü bildirən Qulu Novruzov gələcəkdə yeni nailiyyətlər əldə olunacağına əminliyini ifadə edib və məzunlara uğurlar arzulayıb.

Tədbirdə bu il tələbə adını qazanmış I kurs tələbələri və onların valideynləri akademiyada yüksək səviyyədə təhsilə yiyələnmələri üçün yaradılan şəraitə görə təşəkkürlərini bildiriblər.

Sonra gömrük sistemi atributlarının təqdim olunması mərasimi keçirilib. Simvolları Akademiyanın 2018/2019-cu il məzunları 2019/2020-ci tədris ili üzrə Akademiyaya yüksək balla qəbul olunan tələbələrə veriblər.

Daha sonra akademiyaya yüksək balla qəbul olunan tələbələrə tələbə biletləri təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, 2019/2020-ci tədris ilində Dövlət Gömrük Komitəsinin Akademiyasına I ixtisas qrupu üzrə "İnformasiya təhlükəsizliyi", II ixtisas qrupu üzrə "İqtisadiyyat" və III ixtisas qrupu üzrə "Hüquqşünaslıq" ixtisasına qəbul aparılıb, Akademiyanın qəbul planı 100% dolub.

Bununla yanaşı, 2019/2020-ci tədris ilində ilk dəfə olaraq Akademiyanın magistratura pilləsinə də "Gömrük işi" və "Beynəlxalq hüquq" ixtisasları üzrə qəbul aparılıb.

**Məhərrəm Ağalaroğlu,**
***"İki sahil"***

*Ceyhun Bayramov:*

## Azərbaycanda bir milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb



Son 5 ildə ölkəmizdə 600 məktəb binası inşa olunub. On beş ildə tikilən və əsaslı təmir olunan təhsil müəssisələrinin sayı isə 3 min 200-dən çoxdur. Bu da Azərbaycanda, ümumilikdə, bir milyondan çox şagirdin təlim şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşması deməkdir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə Təhsil naziri Ceyhun Bayramov Quba rayonunun Alekseyevka kəndində inşa olunan 960 şagird yerlik məktəb binasının açılış mərasimində jurnalistlərin suallarını cavablandırarkən məlumat verib.

Nazir bildirib ki, Azərbaycanda təhsil müəssisələrinin infrastrukturunun yaxşılaşdırılması, maddi-texniki bazanın müasirləşdirilməsi Prezident İlham Əliyevin daim diqqətində olan əsas məsələlərdəndir.

"Dövlət İnvestisiya Proqramı və Prezidentin imzaladığı sərəncamlara əsasən 2019-cu ildə 84 məktəb binasının tikintisi və ya əsaslı təmiri nəzərdə tutulmuşdu. Həmin binalardan 43-ü Bilik Günündə istifadəyə verilir. Digər 41 məktəb binasının isə dekabr ayınadək təhvil verilməsi nəzərdə tutulur. Məktəb quruculuğu, təhsil müəssisələrinin maddi-texniki bazanın müasirləşdirilməsindən danışarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xüsusi qayğısını və təşəbbüsləri ilə həyata keçirilən işləri də qeyd etməliyəm. Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun xətti ilə onlarla məktəb binasının inşası həyata keçirilir. Onlardan bir hissəsi artıq tədris ilinin əvvəlində istifadəyə verilib", - deyə təhsil naziri Ceyhun Bayramov söyləyib.

## SANTA BARBARADA TƏMİZLƏMƏ ƏMƏLİYYATLARI DAVAM ETDİRİLİR



"İki sahil" "keyt.com" saytına istinadən verir ki, Kaliforniya ştatının Santa Barbara əyalətinin şimalında yerləşən Orcut adlı ərazinin cənubunda baş verən sızmadan sonra aparılan təmizləmə əməliyyatları hələ də davam etdirilir. Santa Barbara əyalətinin Yanğından Mühafizə Departamentindən verilən məlumata görə, təxminən 50 barrel xam neft keçən həftənin cümə günü 7275 Graciosa Road adlı ərazidəki boru kəmərindən sızaraq ətrafa yayılıb.

Santa Barbara əyalətinin Yanğından mühafizə departamenti həmçinin boru kəmərinin artıq bərkidildiyini və istifadəsinin cümə günündən etibarən dayandırıldığını da qeyd edib .

Boru kəmərinin hansı quruma və ya şirkətə məxsus olması haqqında hələ ki bir məlumat yoxdur.

## NEFT SIZMASI MİLYONLARLA BALIĞI MƏHV EDİB



Cənubi Afrikanın Pietermaritzburg əyalətində yerləşən Umsunduzi çayında sızmadan sonra geniş təmizləmə əməliyyatları aparılır. 1 ay əvvəl "Willowton" zavoduna məxsus tankerdə baş verən problem nəticəsində 1.6 milyon litr xam neft və kaustik soda sızaraq ətrafa yayılmış və Umsunduzi çayı sızma nəticəsində çirklənmişdi.

Qeyd edək ki, sızmaya məruz qalan təkcə Umsunduzi çayı olmayıb. Sızan neft əksəriyyəti Baynespruit çayına tökülüb.

"İki sahil" iol.co.za saytına istinadən xəbər verir ki, sızan neft çaylarda milyonlarla balığın kütləvi şəkildə məhvinə səbəb olmuşdur.

# Bakı məktəblərində "Bilik Günü" qeyd olunub



Paytaxtın ümumi təhsil məktəblərində "Bilik Günü" qeyd olunub.

Tədbirlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) rəhbərliyi və əməkdaşları, yerli icra hakimiyyəti orqanlarının, ictimaiyyətin nümayəndələri, müəllimlər, sabiq məzunlar, valideynlər, şagirdlər, tanınmış təhsil və incəsənət xadimləri iştirak ediblər.

BŞTİ-dən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirlərdə müəssisə rəhbərləri çıxış edərək yeni tədris ilində qarşıya qoyulan məqsədlərdən, təhsil sahəsində aparılan islahatlardan söz açıb, məktəb məzunlarının qəbul imtahanlarındakı uğurlarından bəhs ediblər.

"Bilik Günü"ndə iştirak edən BŞTİ-nin nümayəndələri və qonaqlar yeni dərs ilinin başlanması münasibətilə məktəbliləri, valideynləri və müəllimləri təbrik edib, onlara uğurlar arzulayıblar.

Bildirilib ki, ilk dərs məşğələsinin ibtidai siniflərdə "İdman və sağlamlıq", V-IX siniflərdə "Mütaliə - mənəvi zənginliyə aparan yol", X-XI siniflərdə isə "Azərbaycan inkişaf yollarında" mövzularına həsr olunması şagirdlərin tədris ilinə daha həvəslə başlamasına şərait yaradır.

Sonra məktəblilərin ifşarakı ilə mahnı və rəqslərdən ibarət konsert proqramı nümayiş etdirilib.

Qeyd edək ki, yeni tədris ilində BŞTİ-nin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində ümumilikdə 414 min 844 şagird təhsil alacaq. BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin IX sinfində 32 min 315, X sinfində 22 min 795, XI sinfində 18 min 896, XII sinfində 198 şagird təhsil alacaq.

Paytaxt məktəblərinin I sinfinə qəbul üçün 48 mindən çox şagird elektron qeydiyyatdan keçib.

*Rauf Əliyev:*

## Beynəlxalq yarış Azərbaycanın təbliği üçün də böyük önəm kəsb edir



"Azərbaycan bir çox Avropa və dünya çempionatına ev sahibliyi edib. İndi yenə də bədii gimnastika üzrə dünya çempionatı Bakıda keçirilir". Bu fikirləri Azərbaycan Gimnastika Federasiyasının İcraiyyə Komitəsinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev deyib.

R.Əliyev bildirib ki, 61 ölkənin qatıldığı yarış Azərbaycanın təbliği üçün də böyük önəm kəsb edir. Onun sözlərinə görə, bu cür yarışa ev sahibliyi etmək həm idmanın inkişafıdır, həm də siyasi məsələdir: "Azərbaycan Bakı-2015 I Avropa Oyunlarına, Bakı-2017 IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1"ə, UEFA Avropa Liqasının finalına ev sahibliyi edib. İndi bədii gimnastika üzrə dünya çempionatı keçirilir. Gələn il UEFA AVRO-2020-nin 3 qrup və 1 final oyunu Bakıda təşkil olunacaq. Bütün bunlar Azərbaycanın təbliğatıdır".

"Dünya çempionatının keçirildiyi Milli Gimnastika Arenası bu idman növü üzrə dünyada ən yaxşı zaldır. Bütün dünya idmançıları Bakıya axışırlar, burada məşq edirlər. Harda maddi-texniki baza var, orda inkişaf var. Hazırda ölkəmizdə bədii gimnastikaya axın müşahidə edirik. Milli idmançılarımız son beynəlxalq yarışlarda medallar qazanıblar. Bu da inkişafın bir göstəricisidir. Son 12 ildə, qısa müddət ərzində Azərbaycanın I vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində idmanın bu növündə böyük uğurlar əldə olunub. Başlanğıcda bədii gimnastika üzrə cəmi 1 zalımız vardı və maddi-texniki baza yox idi. Əvvəllər yalnız Bakıda bu növlə məşğul olmaq mümkün idisə, bu gün Mingəçevir, Gəncə, Göyçay, Qusar və digər bölgələrdə şöbələr yaradılıb. Artıq gənclər idmanın bu növünə meyl göstərirlər. İdmançılarımız qısa bir müddətdə 3 Yay Olimpiya Oyunlarında iştirak ediblər"-deyə, R.Əliyev vurğulayıb.

*Sona Əliyeva:*

## Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır



"Azərbaycan təhsilində həyata keçirilən sistemli islahatlar öz müsbət nəticələrini verməkdədir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində hər bir sahədə olduğu kimi təhsil sahəsində də mühüm uğurlar qazanılır. Hazırda təhsilimizin ayrı-ayrı sahələri deyil, o bütövlükdə kompleks şəkildə inkişaf edir". Bu fikirləri Milli Məclisin deputatı Sona Əliyeva deyib.

S.Əliyeva bildirib ki, dövlətimizin başçısı elm və təhsili daim diqqət mərkəzində saxlayır. Bu məqsədlə ardıcıl olaraq dövlət proqramları qəbul edilir, sərəncamlar, fərmanlar imzalanır. Həyata keçirilən uğurlu təhsil siyasətinin nəticəsi olaraq müəllim peşəsinin nüfuzu nəzərəçarpacaq dərəcədə artıb.

"Artıq bu gün yeni dərs ili başladı. Hər bir ailə bu və ya digər təhsillə bağlıdır, ona görə də, vətəndaşlarımız yeni dərs ilinin sevincini yaşayır. Dövlətimizin məqsədi gənc nəslə yüksək təhlil, bilik verərək onları vətənpərvər, intellektual vətəndaş və güclü bir şəxsiyyət kimi yetişdirməkdir. Onu da qeyd etmək lazımdır ki, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi də təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Dövlətimizin siyasətində təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsinə və yeni şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən çoxsaylı proqramlar, sərəncamlar imzalanıb. Rəsmi məlumatlara görə, 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilir. Bu təhsil müəssisələrindən 43-ü sentyabr ayının 15-nə qədər təhvil verilib. Digər 41 məktəbdə işlər ilin sonuna qədər yekunlaşacaq. Ümumilikdə isə, 2003-2018-ci illər ərzində ölkəmizdə 3200-dən artıq yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Nəticədə bir milyondan çox Azərbaycan şagirdinin təlim-təhsil şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb. Bütün bunlar çox yüksək göstəricilərdir"-deyə, deputat qeyd edib.

# Şərq İqtisadi Forumu: Asiyada geosiyasi dinamika yeniləşir

**Rusiyanın Vladivostok şəhərində sentyabrın 4-6-da Şərq İqtisadi Forumunun növbəti tədbiri keçirilib. Dünyanın 60-dan çox ölkəsinin nümayəndələrinin dəvət olunduğu yubiley forumunda 440-dan artıq şirkətin rəhbər şəxsləri, beynəlxalq qurumların və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, aparıcı media şirkətlərinin nümayəndələri iştirak ediblər.**




Forum iştirakçıları geniş müzakirələr aparıblar, çox sayda müqavilələr imzalanıb. Rusiyanın Uzaq Şərq əyalətlərinin inkişafı baxımından vacib olan sazişlər əldə edilib. Mütəxəssislər də Foruma böyük maraq göstəriblər. Ekspertlərin əksəriyyəti bu tədbiri qlobal geosiyasi dinamika kontekstində təhlil etməyə çalışırlar. Belə görünür ki, söhbət alternativ beynəlxalq siyasi modeldən gedir. Hətta bu prosesin bir sıra geosiyasi cizgilərini də təsvir etməyə cəhdlər edilir. Bu prosesdə aparıcı rol oynaya biləcək güclərin adları çəkilir. Bütün bunların fonunda Şərq İqtisadi Forumunun geosiyasi kontekstdə proqnostik analizinə ehtiyac görürük.

### Alternativ axtarışı: Moskvanın fəallığında növbəti mərhələ

Müasir dövrdə beynəlxalq miqyaslı müxtəlif forumlar tez-tez keçirilir. Lakin onların heç də hamısı yaddaqalan olmur. Bir sıra tədbirlər isə böyük maraq doğurur və ekspertlərin diqqətini cəlb edir. Məsələn, "Bakı Prosesi", Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu və bir çox başqa tədbirlər daim diqqət mərkəzində olur. Bu ilin sentyabrın əvvəllərində Rusiyanın evsahibliyi ilə Vladivostokda keçirilən Şərq İqtisadi Forumu da dünyanın müxtəlif "beyin mərkəzləri"nin marağına səbəb oldu. O, beynəlxalq statuslu tədbirdir. Əsas məqsədi Rusiyanın Uzaq Şərq regionuna xarici sərmayələri stimullaşdırmaq və Asiya-Sakit okean regionunda iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. Bunlardan başqa, orada Uzaq Şərqə aid olan daxili məsələlər də müzakirə olunur.

Sonuncu, 5-ci yubiley forumu Vladivostok şəhərində keçirilib. Tədbirdə 270 saziş imzalanıb. Ekspertlər bu rəqəmi kifayət qədər əhəmiyyətli hesab edirlər. Çünki bu, Rusiyanın geosiyasi güc kimi cəlbedicilik dərəcəsini göstərir. Digər tərəfdən, rəqəmlərlə yanaşı, tədbirdə iştirak edən dövlətlərin Asiya qitəsində oynadığı rola da baxmaq lazımdır. Burada Çin, Yaponiya, Hindistan, Malayziya, Sinqapur, Cənubi Koreya və s. kimi inkişaf etmiş ölkələrin nümayəndələri iştirak ediblər. Bu səbəbdən də ekspertlər foruma daha çox qlobal geosiyasi kontekstdə qiymət verməyə çalışırlar.

Görünür, burada mövzunun Rusiyanın Uzaq Şərq regionu ilə bağlı olmasının da təsiri vardır. Məsələ ondan ibarətdir ki, artıq bir neçə ildir ki, müxtəlif dairələrdə həmin regionun Rusiyadan ayrıla biləcəyi ilə bağlı söhbətlər gəzir. Hətta bu regionda yerləşən əyalətlərdən birinin qubernatoru Vladimir Putinlə görüşdə ağzından qaçırıb ki, "regionun Rusiyadan uzaqlaşmaması üçün..." müəyyən addımlar atmaq lazımdır. V.Putin buna kəskin reaksiya verərək, sərt şəkildə "bunu ancaq axmaqlar deyə bilər" kimi cümlə işlədib. Deməli, Moskva mövzunun həssaslığından narahatdır.

Bu məsələdə konkret olaraq Çinin adı çəkilir. Çinlilərin Rusiyanın Uzaq Şərqini demoqrafik olaraq zəbt etdiyi bildirilir. Bundan başqa, Çin həmin regiona külli miqdarda sərmayə yatırıb. Bu proses indi də davam edir. Təsadüfi deyil ki, Şərq İqtisadi Forumuna ən çox nümayəndə heyəti bir qayda olaraq Çindən gəlir. Bu dəfə də istisna olmadı. Lakin Uzaq Şərq mövzusu geosiyasi aspektdə Rusiya və dünya üçün yalnız bu məqamlarla məhdudlaşmır. Yaponiya ilə Rusiya arasında Kuril adaları ilə bağlı kəskin ziddiyyətlər mövcuddur. Tokio həmin adalara iddiasını davam etdirir, Moskva isə bir qarış torpağın belə verilməyəcəyini bəyan edir. Hətta V.Putin Vladivostokda bu məsələ ilə bağlı verilən suala obrazlı: "Papaşa hamısını yığıb götürüb və bununla iş bitib... Xalqlar atası" deyə, cavab verib. Yəni İosif Stalinin aldığı əraziləri geri qaytara bilməz. 5-ci Şərq İqtisadi Forumunda da V.Putinlə Şinzo Abe arasında həmin mövzuya dair gərgin müzakirələr aparılıb.

Bütün bunlarla yanaşı, Uzaq Şərqdə ABŞ-Çin qarşıdurmasının mövcud olduğu sirr deyil. Orada dənizdə faktiki olaraq Amerika, qitədə isə Çin hakimdir. Bu istiqamətdə rəqabət tez-tez qarşıdurmaya çevrilir. Ekspertlər Hindistan-Çin münasibətlərində də ziddiyyətli məqamların və kəsişən geosiyasi maraqların olduğunu ifadə edirlər. Belə ki, Cammu və Kəşmirdə, Himalay dağlarında iki ölkənin toqquşduğu məqamlar vardır. Geosiyasi maraqlarda da Dehli ilə Pekinin rəqabəti ciddidir.

### Yeni dünya nizamı: Asiya aparıcı mövqeyə çıxa bilərmi

Bütün bunlar Şərq İqtisadi Forumunda Rusiyanın mövqelərini gücləndirirmi? Bu suala birmənalı cavab vermək çətindir, ancaq Moskvanın incə manevrlər etməyə çalışdığı aydın görünür. Bu sırada 5-ci forumda Hindistanın baş naziri Narendra Modinin iştirakı və V.Putinlə geniş müzakirələr aparması maraq doğurub. Qərb ekspertləri bu məqamı Rusiyanın Çinlə Hindistan arasında manevr edərək, yeni dünya nizamı yaratmaq cəhdi kimi təqdim etməyə çalışırlar (bax: məs., Tomas Qrgm. Povorot Rossii na Vostok: pereçeng priçin i sledstviy / Valdaiclub.com, 9 sentyabr 2019).

Belə göstərilir ki, Hindistanın Rusiya ilə ciddi fikir ayrılığı yoxdur. Əksinə, iki ölkə arasında hərbi əməkdaşlıq yüksək səviyyədədir. Ənənəvi olaraq Hindistan Rusiya ilə yaxın olub. Hazırda Rusiya və Hindistan üçün Çinin yüksəlişi eyni dərəcədə təhlükəlidir. Belə ki, Çinin büdcəsi Rusiyanın büdcəsindən 6-8 dəfə çoxdur. Texnoloji inkişaf baxımından da Çin Rusiyanı xeyli qabaqlayır.

Pekinin maliyyə imkanları bütövlükdə Rusiyanın maliyyə imkanlarından bir neçə dəfə çoxdur. Bundan başqa, Çinin iqtisadi potensialı da Rusiyanı qabaqlayır. Konkret olaraq iqtisadi inkişaf tempinə görə Pekin Moskvanı xeyli arxada qoyub. Belə çıxır ki, Çinin daxil olduğu hər hansı regional təşkilatda Rusiyadan güclü mövqeyə sahib olacaq.

Belə olan halda Rusiya üçün ən yaxşı variant regionun digər böyük güclərinin də iştirak etdiyi geniş tərkibli təşkilat, məsələn, G7-yə bənzər bir təşkilat yaratmaqdır. Bu səbəbdəndir ki, V.Putin məhz Vladivostokda belə bir təşkilatın yaradılmasının ilk işarəsini verdi. Hətta orada Türkiyənin də iştirakının vacibliyini vurğuladı. Əlbəttə, Türkiyə Moskvanın mövqeyini dəstəkləyəcək. Çünki Ankara üçün daha vacibi daha yaxın olan və böyük hərbi gücə malik, Türkiyə ilə hərbi əməkdaşlığa müsbət yanaşan Rusiya ilə ortaq geosiyasi mövqedə olmaqdır. Hindistan da Moskvaya loyaldır. Yaponiya məsələsi bir qədər müəmmalıdır, lakin onun da Çinlə problemləri mövcuddur. Cənubi Koreya isə Şimali Koreya ilə yaxınlığına görə Pekinlə elə də isti münasibətdə deyil.

Belə çıxır ki, Rusiyanın hər hansı formada yeni regional əməkdaşlıq təşkilatı yaratması onun Çin qarşısında mövqelərini gücləndirməyə xidmət edə bilər. Bütövlükdə isə Moskvanın "Asiyaya dönüş" xətti geosiyasi aspektdə perspektivli görünür. Bu xətlə Rusiya Şərq cəbhəsində aparıcı rolunu qoruyub saxlaya, hətta bu faktordan yararlanaraq özünün təkbaşına gücü çatmadığı regionlarda inkişafa nail ola bilər. Lakin yenə də Uzaq Şərq məsələsi Moskva üçün bunlarla məhdudlaşmır. Moskva qlobal miqyasda geosiyasi dividendlər qazanmaq imkanı əldə edir. Bu məsələnin iki tərəfi vardır. Birincisi, Rusiyanın bütövlükdə Qərbə qarşı əli güclənmiş olur. Məlumdur ki, Amerika Rusiyanı Çindən ayırmaq üçün G7 təklifini irəli sürüb.

Bu, adi hadisə deyil. Əgər Rusiya bu təklifi qəbul etsə, stratejidə geosiyasi məğlubiyyəti qaçılmazdır. Alternativ bir model ortaya qoymadan da etiraz etmək mənasız qərardır. Bu səbəbdən Moskva sanki Vaşinqtona özünün Asiyanın güclü dövlətlərini bir təşkilatda birləşdirmək qabiliyyətinə malik olduğunu ortaya qoyur.

İkincisi, Avrasiya məkanında inteqrativ rol oynadığını təcrübədə təsdiqləyir. Təsəvvür edin, artıq Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində keçmiş sovet məkanında Qazaxıstan və Belarus kimi iki böyük dövləti bir araya gətirə bilib. Bunlara Türkiyə, Hindistan, Çin, Yaponiya, Cənubi Koreya, Sinqapur, Malayziya, Monqolustan və başqa Asiya ölkələri də əlavə olunsa, faktiki olaraq, "Böyük Avrasiya"nın geosiyasi mənzərəsi meydana gələr. Əlbəttə, belə bir təşkilatlanma Qərbə (ABŞ üstəgəl Avropa İttifaqı) qarşı geosiyasi-iqtisadi və hərbi dayanışmanı tamamilə təmin edə bilər. Üstəlik, Türkiyə kimi güclü bir dövləti Avropa strukturlarından qoparıb Asiyaya bağlamaq şansı yaranır.

Beləliklə, Şərq İqtisadi Forumu həqiqətən də maraqlı və geosiyasi aspektdə əhəmiyyəti olan hadisədir. Moskva bu tədbirdə kifayət qədər təmkinli və çevik davrana bilib. Tədbirdə imzalanan 3,4 milyard rubluq müqavilələr bir yana, forumun geosiyasi dividendləri Moskvanı sevindirə bilər. Ekspertlər hələ bu istiqamətdə də ehtiyatlı olmağı tövsiyə edirlər. Çünki Vaşinqtonun cavabı hələ məlum deyil. Burada isə sürprizlər istisna edilmir!

**Newtimes.az**

## Alekseyevka kənd tam orta məktəbi:

# Təhsilə dövlət qayğısının daha bir parlaq təzahürü

**Rəsmi məlumatlara görə, son illər təhsil müəssisələrinin 72 faizi yenilənib, 3200-dən çox yeni məktəb binası tikilib və ya əsaslı təmir edilib. Şagird kontingenti az olan ucqar kəndlərdə 250 modul tipli məktəb quraşdırılıb. Bu tədris ilində 43 yeni məktəb binası müəllim və şagirdlərin ixtiyarına verilib. 41 məktəbdə isə tikinti işləri davam etdirilir.**



Şübhəsiz, bu göstəricilər, eləcə də son 16 ildə Azərbaycan təhsilinin inkişafı ilə bağlı 20-dən çox Dövlət Proqramının qəbul edilməsi, Prezident İlham Əliyevin, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təhsil dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır.

Quba rayonunda da təhsilin inkişafına xüsusi qayğı göstərilir. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, 135 məktəb binasından təxminən 80-nə qədəri yenidən tikilib və ya əsaslı təmir olunub. "Bilik Günü"ndə isə Təhsil naziri Ceyhun Bayramovun, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevin, təhsil ictimaiyyətinin nümayəndələrinin və yerli sakinlərin iştirakı ilə Alekseyevka kəndində inşa olunan və müasir standartlara cavab verən şəhid Rəhman Məmmədov adına 960 şagird yerlik tam orta məktəb binası istifadəyə verilib. Əgər xatırlayırsınızsa, ötən il Prezident İlham Əliyev Qubaya səfərindən sonra belə bir məktəbin tikintisi ilə bağlı Sərəncam imzalamışdı. Şübhəsiz, bu, rayonun təhsilinə göstərilən dövlət qayğısının daha bir parlaq təzahürüdür. Bunu Prezidentin Qubaya növbəti töhfəsi də adlandırmaq olar.

Yeri gəlmişkən, qeyd edək ki, ölkə başçısı bölgələrə səfəri zamanı mütəmadi olaraq məktəblərin tikintisi, əsaslı təmirdən sonra binaların vəziyyəti ilə maraqlanır, tövsiyə və tapşırıqlarını verir, ya da inşası başa çatmış müasir tipli məktəb binalarının açılışını edir. Bütün bunlar da bir daha regionlarda təhsilin inkişafına dövlət səviyyəsində göstərilən yüksək qayğıdan xəbər verir.

Yeni tədris ilində Qubanın 6 kəndində (Nütəh, Çarxaçu, Cimi, Qarxun, Zıxır, Rük) isə modul tipli məktəblər şagird və müəllim heyətinə qucaq açıb. Bundan başqa, rayonun Digah kənd tam orta məktəbi əsaslı təmir olunub.

Hazırda isə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Birinci Nügədi kəndində 760 şagird yerlik təhsil ocağı tikilir, Zərdabi qəsəbəsində isə yeni məktəb binasının inşasına başlanılacaq. Bundan başqa, ucqar kəndlərdə daha 7 modul tipli məktəb quraşdırılır.

Quba Rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyev "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, rayonun pedaqoji kollektivləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya öz əməli işləri ilə cavab verməyə çalışırlar: "Bundan sonra da belə olacaq. Şübhəsiz, təhsildə nailiyyətlər son nəticədə ali və orta ixtisas məktəblərinə qəbul olunan abituriyentlərin sayı ilə ölçülür. Bu baxımdan ötən tədris ilində rayon üzrə nəticələr sevindirici olub. Belə ki, 2018-2019-cu tədris ilində XI sinfi bitirmiş 525 nəfər keçid balı toplayaraq ali məktəblərə qəbul olunublar. Sevindirici haldır ki, 14 nəfər 600-dən, 69 nəfər isə 500-dən yuxarı bal toplayıb. Quba şəhər Azad Məmmədov adına 2 nömrəli təbiət fənləri təmayüllü məktəb-liseyin xüsusi istedadlar sinfi isə ali məktəblərə qəbul imtahanlarında 100 faizlik nəticə göstərib. Belə ki, XI sinfi bitirən 23 şagirdin hamısı tələbə adını qazanıb.

Bir məsələni də qeyd edək ki, son illərdə rayonumuzda müəllimlik peşəsinə maraq xeyli artıb. Belə ki, 200 nəfərə yaxın məzunumuz ixtisas seçimində pedaqoji fakültələri seçib. 600-dən yuxarı bal toplayan 4 nəfər məzunumuz da müəllim ixtisasına yiyələnəcək. Bu isə müəllim peşəsinin cəmiyyətdə nüfuzunun yüksəlməsinin, onun sosial vəziyyətinin yaxşılaşdırılmasının bariz nümunələrindən biridir".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

---

# Buyruq qulu olan "mühacir" müxalifəti"ni erməni lobbisi maliyyələşdirir

Son dövrlər xaricdə "siyasi mühacir" adı ilə sığınacaq taparaq sosial şəbəkələrdə Azərbaycan əleyhinə qara piar kampaniyası aparan xəyanətkar dəstənin ermənipərəst dairələrin və erməni lobbisinin qrantları hesabına fəaliyyət göstərməsinə dair yeni faktlar üzə çıxmaqdadır. Dağıdıcı müxalifət partiyalarının saxta sənədləri ilə Qərbin müxtəlif ölkələrində məskunlaşan Tural Sadıqlı, Məhəmməd Mirzəli, Orduxan Teymurxan, Vidadi İsgəndərli, Qənimət Zahid, Sevinc Osmanqızı kimilər ermənipərəst dairələrdən maliyyələşən beynəlxalq təşkilatların ayırdıqları qrantlar hesabına inrenet TV-lər yaradaraq gecə-gündüz ölkəmizin əleyhinə qarayaxma kampaniyası apararaq onun beynəlxalq imicinə ləkə yaxmaq, respublikamızın daxilində sabitliyi pozmaq, feyk xəbər və məlumatlarla ictimaiyyəti çaşdırmaq üçün dəridən-qabıqdan çıxırlar.

Təbii ki, bu, Azərbaycandakı sabitliyin, təhlükəsizliyin, inkişafın getdikcə güclənməsindən vahiməyə düşən bəzi düşmən qüvvələrin köləsinə çevrilmiş "siyasi mühacirlər" naxırının Azərbaycan əleyhdarı olan dairələrdən qrant alması çoxdan ictimaiyyətimizə bəlli idi. Hamımız yaxşı bilirik ki, sığındıqları ölkələrdə tula payı olan sosial yardımlarla keçinən, işsiz-gücsüz avaralanan, necə deyərlər, ciblərində sıçanlar oynayan bu satqınların öz hesablarına internet TV-lər yaratmaları, bir ayda bir neçə dəfə bu ölkədən-o ölkəyə səfərlər etmələri qeyri-mümkündür. Bütün bunlar sübut edir ki, bu xəyanətkarları öz məqsədləri üçün maliyyələşdirən, çirkli pulları şirnikləşdirib yemləyən dairələr var. O dairələr isə bəllidir: bəzi xüsusi xidmət orqanları və erməni lobbisi.



Yarandığı vaxtdan ölkəmizin əleyhinə şər-böhtan kampaniyası aparan "Meydan TV" haqqında üzə çıxan faktlar bunun əyani sübutudur. Belə ki, bu günlərdə elə dünya erməniliyinin təsiri altında bəzi beynəlxalq təşkilatların miskin əlaltısına çevrilmiş "siysi mühacir" dəstəsinin üzvlərindən olan Emin Hüseynli bildirib ki, "Meydan TV" qrantlar hesabına maliyyələşir və onun bütün fəaliyyəti məhz bu ianələrin üzərində qurulub. O da məlumdur ki, bu internet TV erməni lobbisinin güclü olduğu ölkələrdən biri olan Fransada yerləşir. Fikrimizcə, başqa mülahizəyə ehtiyac yoxdur. "Meydan TV"nin təmsilçilərinin ölkəmiz haqqında anti-Azərbaycan dairələrlə həmrəylik nümayiş etdirməsi bütün qaranlıq məqamları üzə çıxarır. Hər şey ortadadır: müdriklərimizin dedikləri kimi, "kor-kor, gör-gör".

Xəyanətkar siyasi mühacirlər sürüsünün erməni lobbisi ilə sıx işbirliyində olmasının digər bir əyani sübutu isə satılmışlığı, mənəviyyatsızlığı, simasızlığı ilə tanınan, virtual məkandakı çıxışları ilə cəmiyyətimizin nifrətini qazanan, ikrahdoğurucu "söyüş müxalifəti"nin öndə gələnlərindən olan Orduxan Teymurxanla bağlıdır. Xatırlayırsınızsa, bu şəxs ötən il xaricdə bir qrup antimilli siyasi mühacirin yaratdığı "Azərbaycan Naminə Demokratiya" adlı təşkilatın tədbirində çıxış edərək ermənilərin xalqımıza qarşı vəhşilik etmədiyini bildirmişdi. Həyasızlığın, satqınlığın və xəyanətin sözlə ifadə olunmayacaq nöqtəsində olan O.Teymurxan həmin tədbirdə demişdi ki, işğal altında olan Azərbaycan torpaqlarında ermənilər bilərəkdən qəbirləri, məscidləri dağıtmayıb. Nə qədər həyasız və əxlaqsız, iyrənc biri olasan ki, bu cür sözü dilinə gətirəsən?! Bəs, bu erməni lobbisi ilə işbirliyi deyil, nədir?

Siyasi mühacir adı ilə maskalanan, özünü xalqımıza "demokratiya", "insan haqları" uğrunda "mübariz" kimi sırımağa cəhd edən bu merkantillərin iç üzü, həqiqi mahiyyəti getdikcə daha çox üzə çıxır. Əslində bu xəyanətkarların ermənilərlə birgə fəaliyyət göstərdiklərini ictimaiyyəmiz çoxdan bilir. Məhz buna görə bu satqınlara və onların daxildəki "əqidədaşlarına" və xaricdəki antimilli ünsürlərə qarşı çox prinsipial və barışmaz mövqe nümayiş etdirir. Ölkə başçısı hələ ötən ilin prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimindəki nitqində bu barədə bildirmişdi: "O ki qaldı antimilli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, iianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun".

**Zahid Rza,**
***"İki sahil"***

# Avropanın enerji təhlükəsizliyinə böyük töhfə



Sentyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatı Neft Kəmərləri İdarəsi Dübəndi İstehsalat Bölümü ərazi ilk partiya təşkilatında 20 sentyabr - Neftçilər Günü və "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Neft Kəmərləri İdarəsi Dübəndi İstehsalat Bölümünün rəisi, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı İdarə Heyətinin üzvü Elxan Məmmədov qeyd edib ki, bu gün böyük enerji ixracatçısına çevrilmiş Azərbaycanda hasil olunan karbohidrogen ehtiyatları neft-qaz boru kəmərləri, terminallar və dəmir yolu vasitəsilə Avropa və dünya bazarlarına çatdırılır. Dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji layihələrinin fəal iştirakçısına və mərkəzinə çevrilmiş Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası ilbəil daha da sürətlənir, ölkəmiz Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verir.

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının aparat rəhbəri İlqam Əskərov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev dühasının məhsulu olan yeni neft strategiyamız və həmin strategiyanın reallaşdırılması üçün hazırlanmış neft diplomatiyası xalqımızın təbii sərvətlərdən bəhrələnmək imkanını reallığa çevirdi: "Neft strategiyası ölkəmizin təbii sərvətlərindən xalqımızın bəhrələnməsinə xidmət etdisə, neft diplomatiyası Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının birgə işlənilməsi üçün dünyanın Cənubi Qafqazda marağı olan bütün mərkəzlərinin iqtisadi mənafelərinin ödənilməsinə şərait yaratdı.

Neft Kəmərləri İdarəsi Dübəndi İstehsalat Bölümünün Neftaşırma sahəsinin mühəndisi Kamil Hacıyev Neft Kəmərləri İdarəsi Dübəndi İstehsalat Bölümünün Azərbaycan neftinin dünya bazarına ixrac olunmasında mühüm rola malik olduğunu qeyd edib.

Neft Kəmərləri İdarəsinin Sosial məsələlər üzrə rəis müavini Məmməd Əliyev neft sənayemizin şanlı və şərəfli tarixindən danışaraq tədbir iştirakçılarını peşə bayramı və "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə təbrik edib.

Tədbirin sonunda bir qrup partiya fəalına Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının Fəxri fərmanları təqdim olunub.

**O.İsrafilov,**
***"İki sahil"***

# İmişlidə seminar-müşavirə




Ötən həftə Yeni Azərbaycan Partiyasının (YAP) İmişli rayon təşkilatında ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib.

Tədbirdə çıxış edən YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev bu il ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçiriləcəyini bildirərək partiyanın bu siyasi kampaniyaya ciddi şəkildə hazırlaşdığını diqqətə çatdırıb. Qeyd edib ki, seçkilərə hazırlıqla əlaqədar YAP İcra Katibliyi tərəfindən müəyyən tövsiyə və tapşırıqlar verilib. Məhz partiyanın İmişli rayon təşkilatı da bu tövsiyə və tapşırıqlara uyğun öz işini quracaqdır.

Rayon təşkilatının sədri, həmçinin bildirib ki, seçkilər yaxınlaşdıqca müstəqil Azərbaycanın inkişafını istəməyən qüvvələr dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışırlar: "Fəaliyyətləri daha çox Azərbaycanda xaotik bir durumun formalaşmasına köklənmiş və hələ də hakimiyyətdə olduqları bir ilin eyforiyasında yaşayan, köhnə təfəkküründən əl çəkə bilməyən radikal müxalifətin istək və əməli bunu sübut edir. Adını müxalifət qoysa da, əməlləri daha çox xalqa və onun formalaşdırdığı müstəqil dövlətə qarşı yönələn, beləliklə də əsl mahiyyətini istər-istəməz faş edən radikal qüvvələrin Azərbaycanda nə üçün hər vəchlə sabitliyin pozulmasına, anarxiyanın yaranmasına çalışmasının səbəbi əslində heç kimə sirr deyil. Onlar xaricdəki anti-Azərbaycan mərkəzlərin sifarişlərini yerinə yetirirlər. Lakin xalqımız birmənalı olaraq Azərbaycvan dövlətinin yanındadadır".

S. Ağayev çıxışında vurğulayıb ki, Azərbaycan cəmiyyəti yetkin, intellektual cəmiyyətdir və bu kimi dairələr ölkəmizdə dəstək qazana bilməyəcəklər. Ona görə ki, ölkə vətəndaşları həmin dairələrin əməllərini qətiyyətlə pisləyir, onların avantürist çağırışlarına "yox" deyir.

Seminar-müşavirədə, həmçinin bir sıra cari məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

**Elçin Zaman,**
***"İki sahil"***

# YAP Kürdəmir rayon təşkilatında yığıncaq

**Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli rayon təşkilatının qərargahında bir qrup ərazi ilk partiya təşkilatının sədrləri ilə görüşüb.**



Görüşdə Baş nazirin müavini, YAP-ın Sədr müavini, icra katibi Əli Əhmədovun partiyanın rayon və şəhər təşkilatlarının sədrləri ilə keçirdiyi müşavirədə qaldırılan məsələlər diqqətə çatdırılıb. Bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Ağali Kərimli öncə qarşıdan gələn növbəti bələdiyyə seçkilərinə toxunaraq hazırlıq işlərinin yüksək səviyyədə qurulacağını, YAP Kürdəmir rayon təşkilatının inzibati binasında seçki qərargahının yaradılacağını və bu işlərdə ilk partiya təşkilatlarının səfərbər olunmasının vacibliyini qeyd edib. Seçki məntəqələrində məşvərətçi və müşahidəçilərin seçilməsi istiqamətində işlərə başlanıldığını bildirib. Namizədlərin müəyyən olunmasında partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük veriləcəyini vurğulayıb, ərazi ilk partiya təşkilatlarının fəaliyyətindən bəhs edib. Onların tərkibi, uçot-dəqiqləşdirmə, təbliğat-təşviqat işlərinin aparılması və s. istiqamətlərində işlərin bundan sonra da uğurla və səmərəli şəkildə davam etdirilməsini tövsiyə edib. A.Kərimli ərazi ilk partiya təşkilatlarının sədrlərini daha fəal olmağa, ölkəmizin ictimai-siyasi proseslərində aktiv iştirak etməyə çağırıb. Bildirib ki, dövlət başçısının ətrafında daha da sıx birləşməli, ölkəmizin uğurlarını, inkişafını gözü götürməyən qüvvələrə qarşı daim mübariz olmalıyıq. Bu baxımdan ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin təbliğatını həyata keçirən siyasi partiya olaraq YAP-ın və onun ərazi ilk partiya təşkilatlarının üzərinə böyük məsuliyyət düşdüyünü bildirən A.Kərimli təşkilat sədrlərini bu istiqamətdə daha fəal olmağa səsləyib.

YAP Kürdəmir rayon təşkilatının sədri çıxışında sosial şəbəkələrin, sosial medianın günümüzdə yeri və roluna da toxunub. Bu işlərin bundan sonra da davam etdirilməsinin və bütün üzvlərin təbliğat işlərinə qoşulmasının vacibliyini vurğulayıb.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# *Cəbi Bəhramov:* Azərbaycan neft sənayesi böyük inkişaf yolu keçib

Azərbaycan tarixən neft ölkəsi kimi tanınıb, nüfuz qazanıb. Böyük inamla deyə bilərik ki, ölkəmiz dünya neft sənayesinin akademiyasıdır. Bütün dünyada qədim neft diyarı kimi tanınmış Azərbaycanda neftin sənaye üsulu ilə hasilatına hələ XIX əsrin ortalarından başlanmışdır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan vurmuş neft fontanı Azərbaycanda "qara qızıl"ın sənaye üsulu ilə çıxarılmasının əsasını qoymuşdur. Artıq 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmış, dünya neft hasilatının yarısını vermişdir.



Bu fikirləri Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix institutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov İkisahil.TV-yə açıqlamasında bildirib. Cəbi Bəhramov qeyd etdi ki, müasir dünyanın enerji siyasətində yerimiz müstəsnadır və ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrin miqyası genişdir. Bu işdə Azərbaycan alimlərinin, mühəndislərinin, neftçilərinin, bütün bu sahə üzrə mütəxəssislərin hamısının müstəsna əməyi vardır. Dövlətimizin başçısı İlham Əliyev iki milyardıncı ton neftin hasil olunması münasibətilə keçirilən mərasimdə səsləndirdiyi bu fikirləri bir daha xatırlatmaq yerinə düşər: "Müstəqillik ən böyük sərvətimizdir. Ancaq müstəqillik dövründə xalq öz təbii sərvətlərinin sahibi oldu. Hesab edirəm ki, bugünkü mərasimin Ulu Öndərin adını daşıyan Mərkəzdə keçirilməsi həm təbiidir, - çünki bu, bizim əsas toplantı salonumuzdur, əsas mərkəzimizdir, - həm də rəmzi xarakter daşıyır. Çünki Heydər Əliyevin həm 1970-1980-ci illərdə, həm də 1990-cı illərdə göstərdiyi xidmətlər bu gün Azərbaycan reallıqlarını təmin edir. Biz isə öz növbəmizdə bundan sonra da Azərbaycanın neft-qaz sənayesinin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik." Ölkə Prezidentinin bu fikirləri Azərbaycanın dünyanın neft tarixində yeri və rolunun aydın ifadəsini yaradır. C.Bəhramov vurğuladı ki, müstəqillik tariximizdə yeni səhifə olan "Əsrin müqaviləsi"nin əhəmiyyəti əvəzedilməzdir. Bu tarixə qədər Azərbaycan nefti barədə azacıq məlumat olsa da, bu zəngin təbii ehtiyatın ölkəmiz üçün siyasi iqtisadi əhəmiyyəti barədə xalqda ətraflı məlumat yox idi. Neft məsələsini dərindən bilən Ulu Öndər fədakarlığı ilə Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etdi. "Əsrin müqaviləsi" hazırlanan ərəfədə nə qədər yüksək səviyyədə təhdidlər oldu. Əngəllər törətmək istədilər "Əsrin müqaviləsi" imzalanandan sonra Rusiyanın keçmiş prezidenti B.N.Yeltsinin imzası ilə 395 nömrəli sərəncam imzalandı. Azərbaycanın Rusiyadan keçən hava, su, quru yolları hamısı bağlandı. Rusiyanın o dövrdəki müdafiə naziri Qraçov "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində hədə-qorxu ilə ölkəmizi erməni tankları ilə qorxudurdu. Rusiyanın o zamankı Xarici İşlər naziri A.Kozirev belə bir müqaviləni tanımadığını elan etmişdi. Bütün bunlara baxmayaraq ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində "Əsrin müqaviləsi" imzalandı. Artıq həmin müqavilənin imzalanmasından 25 il keçib. Bu 25 ildə Ulu Öndərin müəllifi olduğu neft strategiyasının ölkəmizə qazandırdığı siyasi, iqtisadi uğurların miqyası genişdir. Azərbaycan dünya ölkələri arasında rəqabət sisteminə daxil olub. İqtisadi və hərbi-strateji nöqteyi-nəzərdən öncül yerlərdən birini tutur. Hərbi potensiala görə 106 ölkə arasında 50-ci yerdəyik.

Cəbi Bəhrəmov xüsusi olaraq vurğuladı ki, möhtərəm Prezidentimiz İlham Əliyev çıxışlarında Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolunu xüsusi qeyd edir. TANAP, TAP, bütövlükdə "Şahdəniz-1", "Şahdəniz-2" layihələrinə gəldikdə, bu layihələrə təkcə Avropa deyil, dünyanın bir çox ölkələri qoşulacaq. Əgər 1994-cü ildə müqavilə imzalanarkən söhbət bütövlükdə 511 milyon ton neftin hasil ediləcək, dünya bazarına çıxarılmasından gedirdisə, yeni sazişdə artıq həmin yataqların daha dərinlikdə çox böyük enerji ehtiyatlarına malik olduğu bildirilir. Bizim çox yüksək səviyyədə geoloq neftçilərimiz var ki, harada nə qədər neftin olduğunu dəqiqliklə qeyd edirlər. Ona görə biz çox böyük arxayınlıqla öz potensialımızı ortaya qoyuruq. Heç şübhəsiz ki, Azərbaycan bu müqavilənin uzadılmasını nəzərdə tutarkən ilk növbədə xalqın gələcəyini düşünüb. Burada söhbət təkcə neftdən getmir. Həm də bizim çox böyük qaz ehtiyatlarımız var ki, rəsmi olaraq elan olunub. Bütün bunlar xalqımızın gələcək firavan həyatına yönəlib. Bu müqavilələr Azərbaycanın bu gününə və gələcəyinə olan inamın təsdiqidir.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# “Əsrin müqaviləsi”: Müstəqilliyimizin qarantı olan çox vacib layihə

## PREZİDENT İLHAM ƏLİYEV: NEFT GƏLİRLƏRİ MƏQSƏD DEYİL, XALQIMIZIN MADDİ RİFAH HALININ DAVAMLI OLARAQ YAXŞILAŞDIRILMASI ÜÇÜN BİR VASİTƏDİR



***Müstəqillik tariximizin ilk illərində neft-qaz hasilatının artımına ölkənin qarşısındakı iqtisadi və sosial çətinliklərin aradan qaldırılmasının əsas vasitələrindən biri kimi baxılırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, ölkəni bürümüş daxili ziddiyyətlər, səbatsızlıq, özbaşınalıq Qərbin neft şirkətlərini Azərbaycandan çəkindirirdi. Eyni zamanda, aparılan danışıqlarda isə Azərbaycanın iqtisadi maraqları tam təmin olunmurdu.***

Yalnız xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Xüsusilə neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara faktiki olaraq yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

1994-cü il sentyabrın 20-də Bakıda Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq “Əsrin müqaviləsi” adlandırılan bu saziş həqiqətən müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu.

“Əsrin müqaviləsi” adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Ölkəmizin “Əsrin müqaviləsi”ndən başlanan yolu haqqında ulu öndər Heydər Əliyev demişdir: “1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir”.

1999-cu il aprelin 17-də isə müstəqil Azərbaycanın tarixində fövqəladə əhəmiyyətli daha bir hadisə baş vermişdir. Ulu öndər Heydər Əliyev, Gürcüstanın mərhum Prezidenti Eduard Şevardnadze və Ukraynanın sabiq Prezidenti Leonid Kuçmanın iştirakı ilə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verilmişdir. “Çıraq” yatağından hasil olunan neftin Supsa limanından dünya bazarlarına ixracına başlanmış və ilk dəfə olaraq Azərbaycan nefti Şimala yox, Qərbə istiqamət götürmüşdür.

Real həyat növbəti dəfə ümummilli lider Heydər Əliyevin uzaqgörənliyini, onun siyasi, iqtisadi, kommersiya və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurduğu çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu göstərdi. Ulu Öndərin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəqli idi. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir. Yalnız Ulu Öndərin yüksək nüfuzu və müxtəlif ölkələrin dövlət və hökumət başçıları, siyasi, işgüzar dairələrin nümayəndələri, neft şirkətlərinin rəhbərləri ilə mütəmadi danışıqları nəticəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması barədə mühüm hökumətlərarası sazişlər 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə görüşünün gedişində xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalandı. Eyni zamanda, Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının Prezidentləri bu layihəni dəstəkləyən “İstanbul Bəyannaməsi”ni imzaladılar. Bununla da Azərbaycanın uzunmüddətli siyasi, iqtisadi mənafelərinin təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, eyni zamanda, regionda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi üçün ulu öndər Heydər Əliyev tərəfindən növbəti mühüm addım atıldı.

Sonrakı proseslər də sübut etdi ki, “Əsrin müqaviləsi”nin imzalanması ilə ölkəmiz yeni inkişaf erasına daxil oldu. Azərbaycan Respublikası iqtisadi iflasdan, hərbi-siyasi tənəzzüldən tədricən uzaqlaşaraq müasirləşdi, ölkəmizdə abadlıq- quruculuq işləri genişləndi, xalqın sosial rifah halı yüksəldi, ən modern infrastruktur layihələrin həyata keçirilməsinə başlandı. Xüsusilə uğurla gerçəkləşdirilən iqtisadi islahatların bəhrələri xalqımızın gündəlik həyatında, məişətində, maddi rifahında hiss olunmağa başladı.

Məhz əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən yeni neft strategiyası ölkəmizi lider ölkələr səviyyəsinə yüksəltmişdir. Belə ki, Azərbaycanın həyati əhəmiyyət daşıyan bütün istiqamətlər üzrə dinamik inkişaf yolunda inamla irəliləyən suveren və demokratik bir respublikaya çevrilməsi, milli maraqlarını yüksək səviyyədə təmin etməklə, beynəlxalq nüfuzunu möhkəmləndirməsi böyük ölçüdə məhz həmin qalibiyyətli strateji kursun bəhrələridir. Mahiyyət etibarilə müstəqil Azərbaycan dövlətinin uzunmüddətli inkişaf və tərəqqi konsepsiyası olan bu strategiyanın tarixi əhəmiyyəti zaman keçdikcə daha aydın görünür.

Əslində, əsrlərdən bəri qədim neft diyarı kimi tanınan ölkəmizin şanlı ənənələrinə əsaslanan bu müqavilə dünya dövlətlərinin nəzərini bir daha Vətənimizə cəlb etdi. “Əsrin müqaviləsi” gözlənilən və gözlənilməyən maneələrə rəğmən, uğurla işlədi və ölkənin sosial-iqtisadi yüksəlişinin təməl daşı oldu. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi: “Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Yeni neft strategiyamız ölkəmizin suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirir”.

Bu gün respublikamız dünyada alternativ karbohidrogen mənbəyi, transmilli neft-qaz şirkətlərinin etibarlı tərəfdaşı, qlobal enerji təhlükəsizliyi sistemində əvəzolunmaz yeri olan bir ölkə kimi tanınır. Dünya iqtisadiyyatına sürətlə inteqrasiya olunan ölkəmiz enerji daşıyıcılarının beynəlxalq bazarlara nəql edilməsi istiqamətində möhtəşəm layihələr həyata keçirir. Xəzər hövzəsi ölkələri ilə Qərbin enerji korporasiyaları arasında əməkdaşlığın başlanğıcını qoymuş “Əsrin müqaviləsi” çərçivəsində qazanılan nailiyyətlər xarici neft və qaz şirkətlərinin Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına marağını daha da artırıb. Hazırda quruda və dənizdə yerləşən əməliyyat sahələrində 17 layihə üzrə imzalanmış Hasilatın Pay Bölgüsü Sazişi uğurla həyata keçirilməkdədir. Xarici tərəfdaşlarla yaradılmış 35 birgə müəssisə, 6 alyans, müxtəlif ölkələrdə çoxsaylı törəmə şirkətlər müasir neft və qaz sənayesinin, demək olar ki, bütün sahələrini əhatə edir.

Hazırda ölkə iqtisadiyyatının, xüsusən sənayenin, o cümlədən neft sektorunun şaxələndirilməsi, beynəlxalq standartlara uyğun yenidən qurulması, innovativ texnologiyalarla təchiz olunması, yeni idarəçilik metodlarının mənimsənilməsi üçün geniş imkanlar yaranmışdır. Xarici neft şirkətləri ilə birlikdə axtarış-kəşfiyyat, qazma, tikinti və hasilat üzrə böyük iş həcmi görülmüş və uğurlu nəticələr alınmışdır. Nəhəng “Şahdəniz” qaz-kondensat yatağı, orta səviyyəli “Əşrəfi” və “Qarabağ” yataqları aşkar edilmiş, “Abşeron” və “Ümid” yataqlarının işlənilməsinə başlanılmışdır.

Prezident İlham Əliyev neft gəlirlərinin insan kapitalına çevrilməsi üçün bir neçə Dövlət proqramı imzalamışdır. Ölkəmizin başçısı bu barədə bildirmişdir ki, neft gəlirləri məqsəd deyil, xalqımızın maddi rifah halının davamlı olaraq yaxşılaşdırılması üçün bir vasitədir. Bu isə o deməkdir ki, neft gəlirlərindən lazımınca yararlanan ölkəmiz, eyni zamanda, qeyri-neft sektorunun inkişafı istiqamətində uğurlu addımlar atmışdır və bu tendensiya hazırda uğurla davam edir.

**Elçin Zaman,**
***“İki sahil”***

---

MEYVƏ-TƏRƏVƏZ İSTEHSALI:

# Potensial böyükdür, ixrac isə...



“Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyası çərçivəsində aparılan təhlil nəticəsində hər iki tərəfin gəldiyi qənaət ondan ibarətdir ki, Azərbaycan Rusiyaya meyvə və tərəvəzin ixracını 2 dəfəyə yaxın artıra bilər”.

Bu barədə Azərbaycanın İqtisadiyyat naziri bildirib.

Onun sözlərinə görə, bu, Azərbaycan iqtisadiyyatının potensialı baxımından və Rusiya bazarının imkanları baxımından mümkün hesab olunur.

Nazir xatırladıb ki, ötən il Azərbaycanın meyvə-tərəvəz istehsalçıları Rusiyaya 555 min ton meyvə və tərəvəz ixrac ediblər: “Biz düşünürük ki, bu gün bu rəqəmi ən azı iki dəfə artırmağa imkan var. Yəni bu həcmləri təxminən 1 milyon tona çatdırmaq imkanları var”.

Ş.Mustafayev qeyd edib ki, Yekaterinburqda logistik mərkəzin yaradılması bu rəqəmlərin reallaşdırılması istiqamətində yaradılan bir layihə olacaq.

Rusiya Azərbaycanın qeyri-neft ixracında ilk yeri tutmaqla ölkəmizin kənd təsərrüfatı məhsullarının, xüsusilə də meyvə-tərəvəzin əsas alıcısıdır. Təkcə cari ilin yanvar-iyul ayları ərzində Rusiyaya 395,9 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12 faiz artım deməkdir.

Bu ölkəyə ixracda ilk yeri heç şübhəsiz ki, pomidor tutur. Belə ki, təkcə bu ilin yanvar-iyul aylarında ölkədən 141,2 milyon dollar dəyərində pomidor ixracı həyata keçirilib ki, bunun da əsas hissəsi Rusiyanın payına düşüb. Bundan başqa, qış mövsümündə xurma, yay aylarında albalı, gilas kimi qeyri-neft ixracında ilk üçlükdə qərarlaşan məhsulların da əsas ixrac bazarı şimal qonşumuzdur.

Əvvəlki illərin statistikası da onu deməyə imkan verir ki, Azərbaycanın təzə meyvə-tərəvəz ixracının əsas hissəsi məhz Rusiyaya ixrac edilir. Təkcə 2017-ci il ərzində təzə tərəvəz ixracının 85,45 faizi, təzə meyvə ixracının isə 86,67 faizi bu ölkəyə reallaşdırılıb.

Qeyd edək ki, 2019-cu ilin yanvar-iyul aylarında ölkə üzrə meyvə-tərəvəz ixracının dəyəri 345,3 milyon dollar, həcmi isə 345 min 167 ton olub ki, bu da əvvəlki ilə nisbətən müvafiq olaraq 14,6 faiz və 7,05 faiz çoxdur. Nəticədə bu qrupdan olan ixracın ümumi ixracdakı payı cari ilin 7 ayında 2,82 faiz təşkil edib.

Bu arada onu da qeyd etmək lazımdır ki, ölkəyə belə məhsullar həm də idxal olunur. 2018-ci ildə idxalın ehtiyatlardakı payı tərəvəz məhsulları üzrə 2,08 faiz, meyvə və giləmeyvə üzrə isə 11,54 faiz olub.

Beləliklə də, göstəricilərdən də məlum olduğu kimi, ölkədə bu məhsullara olan tələbin əksər hissəsi yerli istehsal hesabına ödənir. Bununla belə, İqtisadiyyat naziri Ş.Mustafayevin dediyi kimi, Rusiyaya meyvə-tərəvəz ixracının 2 dəfəyə yaxın artırılması, həmçinin ümumi ixraca yönəldilən həcmin də 2 dəfəyə yaxın çoxalması deməkdir. Təbii ki, bunun üçün ilk növbədə istehsalın əhəmiyyətli dərəcədə artırılmasını zəruri edir.

Ancaq onu da xatırladaq ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında tərəvəzçiliyin ənənəvi ixrac sektoru olduğunu vurğulamaqla yanaşı, burada işlərin təkmilləşdirilməsinin vacibliyinə diqqəti çəkmişdi: “Deməliyəm ki, Rusiyaya pomidor ixracında Azərbaycan birinci yerdədir. Biz çalışmalıyıq ki, bu birinciliyi saxlayaq. Onu da qeyd etməliyəm ki, Azərbaycanda bir çox istixanalar salınır. Son məlumata görə, təqribən 400 hektar sahədə yeni istixanalar salınır, onların da böyük əksəriyyəti pomidor istehsalına hesablanıb. Ona görə, baxmalıyıq ki, nə qədər əlavə bazar bizim istehsalımızı həzm edə bilər”.

Bu isə konkret tərəvəzçiliyin timsalında onu deməyə əsas verir ki, ölkədə istehsal potensialı faktiki olandan böyükdür. Eyni fikri meyvəçiliklə bağlı da demək olar. Yəni bazar olsa, istehsalın artırılması mümkündür. Necə ki, son illərdə müşahidə olunan vəziyyət ondan xəbər verir ki, hər hansı məhsul üzrə plansız əkin fermeri zərərə salmaqla yanaşı, növbəti ildə həmin məhsulun qıtlığına səbəb olur. Bir sözlə, qarşıda duran əsas vəzifə bu sahədə ixracın daha da artırılmasına, o cümlədən şaxələndirilməsinə nail olunmasıdır.

**Ceyhun Piriyev,**
***“İki sahil”***

## Seymur Orucov: Gənclərimiz tariximizi dərindən öyrənməli və onu qorumalıdırlar



Sentyabrın 15-də Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, "İrəli" İctimai Birliyi, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası - NAYORA, "Cavan" İctimai Birliyi və digər gənclər təşkilatlarının nümayəndələri Bakının anti-Azərbaycan diktaturasının və erməni quldur daşnak dəstələrinin hakimiyyətindən azad edilməsinin 101-ci ildönümünü Şəhidlər xiyabanında, Qafqaz İslam Ordusu sıralarında Azərbaycanın azadlığı uğrunda şəhid olmuş əsgərlərin xatirəsinə ucaldılmış abidənin önündə qeyd ediblər.Gənclər əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəmanların xatirəsini bir dəqiqəlik sükutla ehtiramla yad edib, abidənin önünə əklil və gül dəstələri düzüblər.

Jurnalistlərə müsahibəsində YAP Gənclər Birliyinin sədri Seymur Orucov bu günün xalqımızın və dövlətimizin tarixindəki yerindən danışıb, Bakının və bütünlükdə Azərbaycanın azadlığı, xalqımızın müstəqilliyi, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəmanların xatirəsinin həmişə xalqımız tərəfindən ehtiramla yad edildiyini, sovet təbliğatının bütün cəhdlərinə baxmayaraq, onların heç vaxt unudulmadığını diqqətə çatdırıb. Ulu Öndərimizin "Bir millət, iki dövlət" fikrini xatırladan natiqlər, bu gün qeyd etdiyimiz əlamətdar tarixin bunun ən bariz nümunələrindən biri olduğunu vurğulayıb. S.Orucov bildirib ki, gənclərimiz tariximizi dərindən öyrənməli və onu qorumalıdırlar.

Gənclər bu gün Azərbaycan gəncinin qüdrətli, firavan və sabit ölkədə yaşadığını bildirib və buna görə Azərbaycan gəncləri adından Prezident İlham Əliyevə təşəkkür ediblər.

Qeyd edək ki, sentyabrın 15-i Bakının işğaldan azad olunduğu gündür. 101 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Milli Ordusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.

Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürülüb. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verilib.

Türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb olub. Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil edib. Ziyafət indiki Dövlət Filarmoniyasının binasında keçirilib. H.Z.Tağıyev türk ordusunun komandanı Nuru Paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim edib.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid verib.

Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları ziyarət olunur. Hər il Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi önündə anma mərasimi keçirilir.

## Elşad Hacıyev: Vətəndaşların müraciətləri diqqətdə saxlanılır



Bakı şəhəri üzrə vətəndaşların müraciətlərinə baxılması diqqətdə saxlanılır.

Bu barədə Trend-ə Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) Mətbuat xidmətinin rəhbəri, polis mayoru Elşad Hacıyev məlumat verib.

Xidmət rəhbəri bildirib ki, Bakı Şəhər Baş Polis İdarəsi və tabeli polis orqanlarının şəxsi heyəti tərəfindən vətəndaşların müraciətlərinə baxılması, onların qəbulu işində nizam-intizama, qanunçuluğa riayət olunması diqqətdə saxlanılır:

"İnsan hüquq və azadlıqlarının təmin olunması "Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi"nə və "Daxili işlər orqanlarında vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Təlimatın rəhbər tələblərinə əməl olunur".

# Heydər Əliyev Fondu tərəfindən inşa və təmir olunan yeni məktəblər və uşaq bağçası istifadəyə verilib

*"Bilik Günü" Gəncə şəhərində fəaliyyət göstərən Nizami Aydın adına 18 nömrəli tam orta məktəbin şagirdləri üçün ikiqat bayrama çevrilib. Çünki yeni tədris ilindən onlar təhsillərini müasir məktəb binasında davam etdirəcəklər.*



Xatırladaq ki, ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevral ayında Gəncə şəhərinə səfəri zamanı məktəbdə mövcud şəraitlə tanış olmuş, binada yenidənqurma işlərinin aparılmasına dair müvafiq tapşırıq vermişdi.



AZƏRTAC xəbər verir ki, 1965-ci ildən istismarda olan məktəbin binasında sonuncu təmir işləri 1988-ci ildə aparılmışdı və burada əsaslı yenidənqurma işlərinə ehtiyac yaranmışdı. 640 şagird yerlik məktəbdə buna qədər 795 şagird təhsil alırdı.

Görülən işlər çərçivəsində isə məktəbin köhnə binasında əsaslı təmir işləri və mövcud ehtiyac nəzərə alınaraq 280 yerlik yeni korpusun tikintisi həyata keçirilib. Hazırda Azərbaycan və rus bölmələri üzrə fəaliyyət göstərən məktəbdə 1000 şagirdin təhsili üçün şərait yaradılıb.

Yeni məktəb binasında 51 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, əmək otağı, hərbi hazırlıq otağı, idman, akt zalları, kitabxana, müəllimlər otağı, eləcə də tibb otağı, mətbəx və yeməkxana var. Məktəb zəruri inventar və avadanlıqlarla təchiz edilib. Həmçinin ərazidə süni ot örtüklü idman meydançası inşa edilib. Məktəb daimi istilik və su sistemi ilə təchiz olunub, əraziyə asfalt örtüyü salınıb, yaşıllıq zolağı yaradılıb.

Yeni tədris ilində məktəbin kollektivi ilk təbriki də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadan alıb. Birinci vitse-prezidentin təbrikləri və salamları məktəbin kollektivinə çatdırılıb.

Məktəbin müəllimi Ceyran Məmmədova sevincini bu sözlərlə bölüşüb: "Bilik Günü"ndə həm müəllim, həm də bir valideyn kimi çox sevincliyəm. Çünki illərdir dərs dediyim məktəbimiz əsaslı təmirdən sonra müəllimlərin və şagirdlərin ixtiyarına verilir. Bu il həm də mənim dörd nəvəm ilk dəfə bu məktəbə qədəm qoyur. Əminəm ki, bu cür müasir tədris şəraitinin yaradıldığı məktəbdə həm nəvələrim, həm də bütün şagirdlər yüksək nəticə göstərəcəklər. Çünki məktəbimizdə bunun üçün hər cür şərait yaradılıb. Burada müasir fənn kabinetləri, sinif otaqları, laboratoriyalar, idman zalı var. Yaradılmış bu gözəl şəraitə görə Mehriban xanım Əliyevaya bütün kollektivimiz adından minnətdarlığımızı bildiririm".

* * *

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gəncədə daha bir məktəb əsaslı təmir olunaraq yeni tədris ilində şagird və müəllimlərin ixtiyarına verilib. Bu, Gəncə şəhər Samir Vəliyev adına 34 nömrəli tam orta məktəbdir.

1984-cü ildə inşa olunan məktəb binasında bu ilin may ayından əsaslı təmir işləri həyata keçirilib. 640 şagird yerlik məktəbdə zəruri avadanlıqla təchiz edilmiş 36 sinif otağı, laboratoriya, əmək, linqafon otaqları, informatika kabineti, hərbi hazırlıq kabineti, eləcə də məktəbəqədər sinif otağı fəaliyyət göstərir.

Məktəbin şagirdi İlhamə Ələsgərova yeni tədris ilində təhsilini bu cür müasir məktəbdə davam etdirməkdən çox şad olduğunu bildirərək deyib: "Məktəbimizin əvvəlki binası təmirsiz olduğuna görə keyfiyyətli təhsil ala bilmirdik. Xüsusən də ayrı-ayrı fənlər üzrə kabinetlərimiz olmadığına görə dərslərimizi təcrübi deyil, yalnız nəzəri öyrənirdik. Şəhərimizdəki digər məktəblərdə olduğu kimi, bizim də məktəbimizdə müasir şərait yaradılmasını arzulayırdım. Builki tədris ili məktəbimizin müəllim-şagird kollektivi üçün ikiqat sevincli oldu. Artıq bizim də tam müasir məktəbimiz var. İndi biz daha həvəslə oxuyacaq, gələcəkdə ali məktəblərə yüksək balla daxil olmağa çalışacağıq".

Şagird Elvin Səfərov: "Bu gün həm "Bilik Günü", həm də məktəbimizin əsaslı təmirdən sonra istifadəyə verildiyi gündür. Hər iki əlamətdar gün münasibətilə məktəbimizin kollektivi çox sevinclidir. Hazırda biologiya kabinetində builki tədris ilində ilk dərsimizi keçirik. İndi bizim biologiya kabineti, eləcə də digər fənn kabinetləri, laboratoriyalar lazım olan bütün avadanlıqlarla, tədris vasitələri ilə təmin olunub. Məktəbimizin müasir idman meydançası və idman zalı bizim həm sağlamlığımıza, həm də idman növləri ilə daha düzgün məşğul olmağımıza şərait yaradacaq.

Bizə bu sevinci yaşatdığına, göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya bütün şagirdlər adından təşəkkür edirik.

* * *

Birinci vitse-prezident Mehriban Əliyevanın fevral ayında Gəncəyə səfəri 32 saylı körpələr evi-uşaq bağçasının da həyatında bir dönüş oldu. Məhz həmin vaxt bu uşaq bağçasının yenidən qurulmasına qərar verildi.

Həmin vaxt Mehriban Əliyevanın diqqətinə çatdırılmışdı ki, 1985-ci ildə inşa edilən binanın əsaslı təmirinə ehtiyac var. Birinci vitse-prezident qısa zamanda bu bağçanın da yenidən qurulmasının, onun maddi-texniki bazasının gücləndirilməsinin vacibliyini vurğulamışdı.

1985-ci ildən fəaliyyət göstərən körpələr evi-uşaq bağçası üçün hazırda Heydər Əliyev Fondu tərəfindən 280 yerlik yeni bina tikilib, bağça inventar və avadanlıqla təchiz olunub və burada 14 qrup yaradılıb. Bağçada yataq otaqları, eləcə də uşaqların təhsili və istirahəti üçün nəzərdə tutulan digər zəruri otaqlar, musiqi, idman zalları inşa olunub. Daimi istilik və su sistemi ilə təchiz olunan bağçanın yerləşdiyi ərazi abadlaşdırılıb, yaşıllıq zonası salınıb. Bu da Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının uğurla icra olunduğunu göstərir.

Valideyn Zenfira Quliyeva bağçada yaradılmış şəraitdən razılığını bildirərək deyib: "Bu ilin fevral ayında nəvəmi bu bağçaya gətirmişdim. Yaxşı xatırlayıram ki, o zaman bağça bərbad vəziyyətdə idi. Təbii ki, elə bir şəraitdə nəvəmin normal təlim-tərbiyə ala bilməyəcəyi məndə və ailəmizin bütün üzvlərində təəssüf hissi doğururdu. Lakin bu gün çox sevincliyəm. Çünki bağça tamamilə yenidən qurulub. Burada balacaların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Otaqlar hər bir avadanlıqla təmin edilib. Bu cür yüksək şərait fidanları çox sevindirir. Biz valideynlər gələcəyimiz olan uşaqlara yaradılan bu şəraitə görə Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk".

# “Azəri-Mərkəzi-Şərqi” layihəsi üzrə yeni tikinti müqavilələri imzalanıb



“Azəri-Çıraq-Dərinsulu Günəşli” (AÇG) yatağının işlənməsi üzrə operator olan BP şirkəti “Azəri-Mərkəzi-Şərqi” (ACE) layihəsinin əsas müqavilələrin imzalanması ilə birgə sürətlə irəlilədiyini açıqlayıb.

“BP Azerbaijan”dan AZƏRTAC-a bildirilib ki, mühəndislik, tikinti və quraşdırma, layihələrin idarə edilməsi və digər xidmətləri əhatə edən müqavilələr aprelin 19-da layihə üzrə elan olunmuş yekun investisiya qərarından (YİQ) sonra gələn addımdır. İmzalanan müqavilələr layihənin həyata keçirilməsi qrafikini müəyyən edir və yatağın işlənməsi üzrə bu irimiqyaslı layihədə iştirak edən çoxsaylı sahələrdə, istehsal sahələrində əldə olunmuş irəliləyişi tamamlayır.

Yekun investisiya qərarı elan edildikdən sonra layihə üzrə aşağıdakı əsas müqavilələr imzalanıb:

*- ACE platformasının dayaq bloku və ətək payalarının quraşdırılması üzrə müqavilə “BOS Shelf” MMC və “Star Gulf FZCO” şirkətlərindən təşkil olunmuş konsorsium ilə imzalanıb. Müqavilənin dəyəri 260 milyon dollara yaxındır. Müqavilə üzrə iş həcmi istehsal sexləri və quraşdırma ilə əlaqədar mühəndislik, boru yayma işləri, dayaq bloku və ətək payalarının hazırlanması və yığılması, quraşdırma sistemlərinin istismara verilməsi, qurğunun yüklənib göndərilməsi və dənizdə yerinə bərkidilməsindən ibarətdir. Bu müqavilə üzrə bütün tikinti və quraşdırma işləri yerli resurslardan, o cümlədən işçi qüvvəsi və tikinti sahələrindən istifadə etməklə SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) yerinə yetiriləcək. Tikinti işləri artıq başlayıb və 2021-ci ildə başa çatdırılacağı gözlənilir.*

*- İkinci müqavilə üzrə ACE platformasının üst modullarının hazırlanması və inteqrasiyası nəzərdə tutulur. Həmin müqavilə bu ilin iyulunda “Azfen” şirkəti ilə imzalanıb. Müqavilənin dəyəri 486 milyon dollardan çoxdur. Bu müqavilə çərçivəsində işlər həcminə istehsal və quraşdırma mühəndisliyi, həmçinin platformanın üst modullarının hazırlanması, yığılması və birləşdirilməsi daxildir. Müqavilə üzrə nəzərdə tutulan işlərə (“National Oilwell Varco” şirkəti tərəfindən layihələndiriləcək), həmçinin yüngül bir qazma blokunun hazırlanması, istismara təhvil vermə işlərinə dəstək xidmətləri, yükləyib göndərmə, sazlama və dənizdə istismara təhvil vermə işlərinə dəstək də aiddir. Üst modullar Bibiheybətdəki istehsal sahəsində inşa olunacaq. Bu müqavilə üzrə tikinti işləri artıq başlayıb və 2022-ci ildə başa çatdırılacağı gözlənilir.*

*- Üst modulların qazma qurğusu ilə əlaqədar layihələndirilmə, tədarük və tikintiyə nəzarət üzrə müqavilə ABŞ-ın “National Oilwell Varco” şirkəti ilə imzalanıb. Bu müqavilənin dəyəri 151 milyon dollardan çoxdur. Müqavilə çərçivəsində işlər həcminə müfəssəl layihələndirmə, mühəndislik təminatı və avadanlığın tədarükü və qazma qurğusunun Bakıya çatdırılması daxildir. İşlərin həcminə, həmçinin üst modullar və qazma qurğusu istehsalçısının tikinti işlərinə, o cümlədən qazma qurğusunun hazırlanması, birləşdirilməsi, sazlanması və istismara verilməsi ilə əlaqədar fəaliyyətə nəzarət daxildir.*

*- Platformanın yaşayış blokları ilə əlaqədar layihələndirmə, satınalma və tikinti müqaviləsi İsveçin “Emtunga Solutions AB” şirkəti ilə imzalanıb. Müqavilənin dəyəri 34 milyon dollara yaxındır. Layihələndirmə, satınalma və tikinti ilə yanaşı, işlər həcminə yaşayış bloklarının inteqrasiyası və istismara təhvil verilməsinə texniki dəstək də daxildir. Bu müqavilə üzrə işlər artıq başlayıb və 2022-ci ildə başa çatacağı gözlənilir. Yaşayış bloklarının yığılması və istismara verilməsi, Bakı yaxınlığında Bibiheybətdəki istehsal sahəsində, platformalar üçün üst modulların inşa olunacağı yerdə yerli resurslardan istifadə etməklə həyata keçiriləcək.*

*- Layihələndirmə işlərinin icrası ilə əlaqədar müqavilə “SOCAR-KBR” MMC birgə müəssisə ilə imzalanıb. Müqavilənin dəyəri 76 milyon dollardan çoxdur. Bu müqavilə üzrə işlər həcminə üst modullar, dayaq bloku və ətək payalarının layihələndirilməsi; ACE layihəsi üçün mövcud obyektlərin yenilənməsi işləri; sualtı qurğular üçün sistemin layihələndirilməsi üzrə mühəndislik işləri; layihənin idarə edilməsi - materialların idarə edilməsi, işçi münasibətlərinin idarə edilməsi, məlumatların idarə edilməsi; tədarük üzrə dəstək; keyfiyyətin idarə edilməsi və tikinti sahəsində dəstək daxildir. Bu müqavilə üzrə işlər başlamışdır və “SOCAR-KBR” şirkətinin Böyük Britaniyadakı Leatherhead və Bakıdakı mühəndislik ofisləri vasitəsilə yerinə yetirilir.*

*- Yüklərin idarə edilməsi xidmətləri ilə əlaqədar müqavilə Regional Çərçivə Sazişi çərçivəsində bu ilin avqustunda “Transglobal Projects” (TGP) MMC ilə imzalanıb. Bu müqavilə çərçivəsində işlər həcminə materialların və avadanlıqların təchizatçıların obyektlərindən toplanması və Bakıdakı sahələrə çatdırılması, o cümlədən gömrük rəsmiləşdirməsi daxildir. Bu müqavilə üzrə göstəriləcək xidmətlər nəqliyyatın bütün növlərini, o cümlədən beynəlxalq və daxili avtomobil nəqliyyatı, çay gəmiləri, barjalar, dəniz nəqliyyatı, hava nəqliyyatı ilə daşıma haqqında razılaşmalar, yüklərin hava nəqliyyatı və dəmir yolu ilə daşınmasını əhatə edir.*

BP şirkətinin layihələr üzrə vitse-prezidenti Yuan Drummond deyib: “BP operator olaraq ACE layihəsini etibarlı, səmərəli və qrafikə uyğun şəkildə həyata keçirmək üçün əsas müqavilələrin ilk paketinin imzalandığını elan etməkdən məmnundur. AÇG sazişinin imzalanmasının 25-ci ildönümünü qeyd etdiyimiz zaman vurğulamaq yerinə düşər ki, AÇG üzrə əsas nailiyyətlərdən biri layihələrimizdə yerli resursların yüksək səviyyədə cəlb olunmasıdır. ACE layihəsi üzrə imzalanmış müqavilələr də bunu aydın şəkildə göstərir. İmzalanmış bu müqavilələr AÇG üzrə tərəfdaşların Azərbaycanın yerli resurslarından istifadəni optimallaşdırmaq öhdəliyini bir daha nümayiş etdirir. Bu il başlamış və 2022-ci ilin ortalarına qədər davam edəcək tikinti işləri yerli resurslardan istifadə etməklə ölkə daxilində yerinə yetirilir və pik səviyyədə tikinti işləri üçün 8000-dək iş yerinin açılacağı gözlənilir”.

## Cari ildə Azərbaycandan 7,4 milyard kubmetrdən çox təbii qaz göndərilib



Səkkiz ayda Azərbaycandan 7 milyard 415 milyon 337 min kubmetr təbii qaz ixrac olunub.

Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a verilən məlumata görə, yanvar-avqust aylarında ixrac olunan təbii qazın dəyəri 1 milyard 421 milyon 244 min ABŞ dolları təşkil edib.

Xatırladaq ki, keçən ilin müvafiq dövründə ölkədən 4 milyard 631 milyon 59 min kubmetr təbii qaz ixrac edilmiş, həmin ixracın dəyəri isə 877 milyon 666 min dollar olmuşdur.

## Ötən 10 ildə SOCAR-ın dövriyyəsi 26,4 dəfədən çox artıb




Son 10 ildə SOCAR-ın dövriyyəsi 26,4 dəfədən çox artıb.

AZƏRTAC xəbər verir ki, 2009-cu ildə 4,2 milyard dollar olan SOCAR-ın dövriyyəsi 2018-ci ilin sonuna 111,2 milyard dollara çatıb. Bu illərdə SOCAR yerli neft hasilatçısından Azərbaycanın qlobal brendinə çevrilib.

## Yanvar-iyul aylarında ölkədən 8,6 milyard dollarlıq xam neft ixrac edilib



SOCAR və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) məlumatlarına əsasən, cari ilin yanvar-iyul aylarında ölkədən 18 milyon 306,4 min ton xam neft ixrac edilib. Yeddi ayda göndərilən neftin dəyəri isə 8 milyard 616 milyon 452,9 min ABŞ dolları olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

# Bu il ADNSU-ya 2731 tələbə qəbul olunub





Sentyabrın 16-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) 2019/2020-ci tədris ilinin başlanması və “Bilik Günü” münasibətilə tədbir keçirilib.

Tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Milli Məclisin deputatı, ADNSU-nun professoru Hüseynbala Mirələmov, həmçinin universitetin professor və müəllim heyəti, eləcə də tələbələr iştirak ediblər.

“Bilik Günü” münasibətilə tələbələri, onların valideynlərini təbrik edən ADNSU-nun rektoru, professor M.Babanlı 2019/2020-ci tədris ilinin qəbul göstəricilərini açıqlayıb. Bildirib ki, bu il ADNSU-nun ixtisaslarına bakalavriat səviyyəsində ümumi qəbul 2731 nəfər olub. Bundan əlavə, 450 nəfərdən artıq tələbə ikinci təhsil üçün sənədlərini ADNSU-ya təqdim edib. Digər ali məktəbləri, ayrı-ayrı ixtisasları bitirmiş məzunlar da ADNSU-da yüksək səviyyəli təhsil üçün yaradılmış imkandan faydalanmaq üçün ikinci ali təhsil üçün bura üstünlük verirlər. Magistratura səviyyəsində qəbul ötən ildən artıq olub və 660 nəfər təşkil edib.

Rektor M.Babanlı qeyd edib ki, ümumiyyətlə, abituriyentlər və valideynlər arasında ADNSU-ya maraq ildən-ilə yüksəlir. Belə ki, 2019-cu ildə ölkə üzrə 500 baldan yuxarı göstəricisi olan abituriyentlərin sayı 1866 nəfər olub, onlardan 901 nəfəri, az qala yarısı Azİİ-yə qəbul olunanlardır. 600-dən yuxarı bal toplayanların sayı bu il 554 nəfərdir, onlardan da 217 abituriyent bizim universiteti seçib...

Sonra Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, millət vəkili, ADNSU-nun professoru Hüseynbala Mirələmov çıxış edərək bu il universitetə daxil olan tələbələri, onların valideynlərini təbrik ediblər. Bildiriblər ki, Azİİ-də yüksək təhsil verilməsi üçün bu gün hər bir şərait yaradılıb. Tələbələrin üzərinə düşən vəzifə bu imkandan maksimum yararlanıb yüksək təhsil almaqdır.

Daha sonra builki qəbul imtahanlarında ən yüksək bal toplayan birinci kurs tələbələrinə hədiyyələr və tələbə biletləri təqdim olunub.

Tədbir bitdikdən sonra ADNSU-nun rektoru, professor Mustafa Babanlı ilə Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Azİİ Elektron Kitab Evinə və universitetin yeməkxanasına baş çəkib, burada yaradılan şəraitlə tanış olublar.

**Rəşad Bağırov,**
***“İki sahil”***

# Cəhənnəm carçıları



Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, müstəqil siyasi ekspertlərin iştirakı ilə "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda keçirilən tədbir bir daha göstərdi ki, iqtidar milli birlik və həmrəylik üçün dialoqlara hər zaman hazırdır.

İki gün davam edən, Asiya, Avropa və Afrikanın 20-yə yaxın ölkəsini təmsil edən nümayəndələrin, BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının Bakıda keçirilən illik toplantısı da ölkəmizdə davam etdirilən demokratik islahatların beynəlxalq standartlara cavab verdiyini göstərdi.

Son illərdə Azərbaycanda kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi, sosial şəbəkələrin sərbəst fəaliyyəti, internet istifadəçilərinin sayının əhalinin 85 faizi ötməsi, jurnalistlərin sosial müdafəsinin gücləndirilməsi, söz, fikir, mətbuat azadlığının yüksək səviyyədə olması, respublikada aparılan islahatların davamlı proses kimi diqqətdə saxlanılması demokratik islahatların nümunəsidir.

"Ona görə jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir" söyləyən, "Azərbaycanda həm demokratik, həm də sosial-iqtisadi inkişaf paralel gedir. Buna görə hesab edirəm ki, bizim cəmiyyətimizdə islahatlar təkamül yolu ilə aparılır və dərinləşir. Siyasi və iqtisadi islahatlar daha da dərinləşməlidir" sözləri ilə ictimai-siyasi həyatda KİV-lərin fəaliyyətini qiymətləndirən Prezident İlham Əliyev ölkədə milli birlik və həmrəyliyin yaradılmasında böyük rolu olan müstəqil mətbuatın inkişafını, sosial şəbəkələrdən sərbəst istifadəni, siyasi partiyaların dialoqlarını mühüm amil adlandırır. Dövlət başçımızın "Digər məsələlərə gəldikdə, hesab edirəm ki, jurnalistikamız xarici təsirdən azad olmalıdır, xarici təsir altına düşməməlidir. Azərbaycan getdikcə daha da güclənir, Azərbaycanın rolu nəinki bölgədə, dünyada artır. Bölgədə bizim iştirakımız, razılığımız olmadan heç bir layihə, yaxud siyasi, iqtisadi və digər təşəbbüs reallaşa bilməz. Biz müstəqil siyasət aparırıq. Ona görə bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz" sözləri demokratiyaya verilən dəyər, müasirliyi baxımdan səciyyəvidir. Yuxarıda adları qeyd olunan tədbirlərin keçirilməsində də məqsəd həyatımızın ayrılmaz parçası olan sosial şəbəkələrdən istifadədə informasiya təhlükəsizliyinin qorunması üçün həyata keçirilən islahatların davam etdirilməsi, rəy və təkliflərin öyrənilməsidir.

Çox təəssüf ki, Azərbaycanda yaradılan demokratik şəraitdən sui-istifadə edən, xarici ölkələrdə mühacir həyatı keçirərək ermənipərəst mənbələrin maliyyə dəstəyi ilə Azərbaycana qarşı böhtanlar yağdıran AXCP sədri Əli Kərimlinin formalaşdırdığı agent şəbəkəsi hələ də milli birlik və həmrəyliyi pozmağa çalışır, təxribatlar aparır, cinlərin "Bisimillah" kəlməsindən qorxduqları qədər təlaş keçirirlər.

Formalaşdırdığı "beşinci kolon"u Vətənə xəyanət ruhunda "tərbiyə edən" Əli Kərimlinin, Müsavat və "Milli Şura" təmsilçilərinin təşkil olunan dialoqla, Azərbaycanın xarici siyasəti, ölkədə aparılan demokratik islahatlarla, beynəlxalq təşkilatların hesabatlarında qeyd olunan ölkəmizin qazandığı uğurlarla bağlı obyektivlikdən kənar yanaşmaları milli birliyə xəyanətdir.

Ölkəmizə qarşı düşmən mövqedə olan beynəlxalq təşkilatları əsası olmayan böhtan xarakterli informasiyalarla təmin edən, ermənipərəst qüvvələr hesabına maliyyələşən saqtınlar şəbəkəsinin nümayəndələrindən olan Vidadi İsgəndərli, Qənimət Zahid, Xədicə İsmayıl, Sevinc Osmanqızı və başqalarının da ermənilərin lobbisi ilə bağlılığı artıq sübut olunub. Elə buna görədir ki, milli birliyin özləri üçün fəlakət olduğunu düşünən əlikərimlilər təbii ki, Azərbaycanda siyasi sabitliyin pozulması üçün şeytanla belə əməkdaşlığa hazırdırlar.

Azərbaycanın iqtisadi inkişafının bəhrəsi olan maliyyə imkanlarının artması nəticəsində davamlı olaraq həyata keçirilən sosial islahatları özlərinin məhvi kimi başa düşənlər istefalar üzündən partiyalarının birdəfəlik yox olmasından daha çox qorxurlar. Çünki ictimaiyyət, cəmiyyətin bütün təbəqələri aydın başa düşür ki, xarici ölkələr tərəfindən maliyyələşən radikalların niyyəti ölkəmizin beynəlxalq aləmdə möhkəmlənən nüfuzuna qara yaxmaqdır. Bu ölkənin vətəndaşı olduğu üçün qürur duyan insanlar isə bu cür bədniyyətliləri, Vətən xainlərini, satqınları lənətləyirlər.

Ölkədə aparılan quruculuq işlərindən, bütün sahələri əhatə edən, respublika əhalisinin razılıqla qarşıladığı islahatlardan narahat olan radikal düşüncəli xainlərin mərəzi yaxşı nə varsa gözdən salmaqdır. Cari ildə dəfələrlə artırılan əməkhaqqı və pensiyaların vətəndaşlarda yaratdığı xoş əhval-ruhiyyədən qıcıqlanan AXCP, Müsavat, "Milli Şura" təmsilçiləri insanların bu sevincini sonlarının başlanğıcı olduğunu aydın başa düşürlər. 2 milyondan artıq insanı əhatə edən, milyard manatlarla vəsait ayrılan, 17 Sərəncamın reallaşması ilə MDB məkanında ikinci yerə yüksələn Azərbaycanın bu uğurları, ölkədə insan amilinə göstərilən diqqət bataqlıq düşüncəli şəbəkəni daxildən çürüdür. Bu da, səbəbsiz deyil. Hakimiyyətdə olduqları müddətdə büdcəni boşaldan, müəssisələrin bütün avadanlıqlarını özəlləşdirmə adı ilə xarici şirkətlərə satan, ölkə vətəndaşlarını ən aşağı yoxsulluq həddinə çatdıran o vaxtın bəyləri, indiki radikallar ölkədə yaranan siyasi sabitlikdən, insan amilinə göstərilən diqqətdən, həyata keçirilən islahatlardan narahat olur, Azərbaycanla bağlı səslənən xoş sözləri özlərinin məhvi hesab edirlər. Partiyaları daxilində baş verən didişmələri pərdələmək, sürətlənən istefaları gizlətmək üçün diqqəti iftiralara yönəldən Əli Kərimli, Müsavat başqanı Arif Hacılı nəinki milli həmrəyliyi, siyasi partiyalar arasında birliyi belə istəmirlər. Bunun üçün mənfur niyyətlərindən əl çəkmirlər. Əslində radikalları bataqlığa sürükləyən düşərgədəki vəziyyət bu funksionerlərin iç üzlərini göstərir. İllərdən bəri çiyin-çiyinə yürüdükləri zənn edən, özlərinə sərf etdikləri zaman səmimi görüntü yaratmağa çalışan Əli Kərimli-Arif Hacılı cütlüyünün əsas məqsədi başqalarından istifadə etməklə şəxsi maraqlarına mümkün qədər daha çox nail olmaqdır. AXCP-də, "Milli Şura"da olduğu kimi, Müsavatda da baş verən qalmaqallar, qarşıdurmalar partiya sədrlərinin paxıllıq və qısqanclıq hisslərinin sağalmaz mərəz olduğunu göstərir. Buna görə də 25 ildən artıq müddətdə "ayrılmaz dostlar" görüntüsü yaradan "mehriban düşmən"lər, Əli Kərimli- Arif Hacılı cütlüyünün milli həmrəylik və birlik haqqındakı ermənisayaq düşüncələri " dediyim dedik, çaldığım dük" misalına bənzəyir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

*Musa Qasımlı:*

## Bakının erməni işğalından azad edilməsi, əhəmiyyətinə görə Xalq Cümhuriyyətinin elan edilməsindən sonra ikinci böyük tarixi hadisə oldu



"1918-ci il sentyabrın 15-də Bakının erməni işğalından azad edilməsi, əhəmiyyətinə görə Xalq Cümhuriyyətinin elan edilməsindən sonra ikinci böyük tarixi hadisə oldu". Bu fikri Milli Məclisin deputatı, tarix elmləri doktoru Musa Qasımlı deyib.

M.Qasımlı bildirib ki, şəhərin azad edilməsi ilə Azərbaycan və türk silah qardaşlığı sayəsində Azərbaycan təbii, tarixi paytaxtına, milli, mənəvi, elm və mədəniyyət mərkəzinə qovuşdu. Bu bir qardaşlıq yardımı idi. Şəhərin azad edilməsi ilə "başla bədən birləşdi". Azərbaycanlıların milli ruhu yüksəldi. Onlar çarizm tərəfindən işğal edildikdən sonrakı bütün dövrdə ilk dəfə olaraq Bakı küçələrində başlarını dik tutaraq, özlərinə güvənərək gəzməyə başladılar.

"Sovet dövründə ağır şərtlər altında yaşamasına, SSRİ-də türk düşmənçiliyinin, 30-cu illərin sonlarından 50-ci illərin ortalarınadək sovet-türk münasibətlərində gərginliyin olmasına baxmayaraq, Azərbaycan xalqı türk əsgərlərinin məzarlarını qoruyub saxladı, dağılmağa qoymadı, ətraflarına çiçəklər, ağaclar əkdi, onları ziyarətgaha çevirdi. Nəhayət, ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində bu qardaşlıq abidəyə çevrildi. 1918-ci ilin Mart soyqırımı qurbanlarının, 1990-cı il 20 Yanvar faciəsində, Ermənistanın təcavüzünə qarşı ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə həlak olan qəhrəman Vətən övladlarının dəfn olunduğu və bir azərbaycanlı üçün müqəddəs olan Şəhidlər xiyabanında Qafqaz İslam Ordusuna möhtəşəm abidə ucaldıldı. Bu, insanların təkcə ziyarət edərək əklil qoyduqları bir abidə deyil, qanı bir-birinə qarışmış Azərbaycan və Türkiyə xalqlarının qardaşlığının və əbədi birliyinin rəmzidir"-deyə, M.Qasımlı vurğulayıb.

## *Naqif Həmzəyev:* Azərbaycan-Çin əməkdaşlıq münasibətləri yüksək səviyyədə formalaşıb

"Müstəqil Azərbaycan bu gün beynəlxalq aləmdə siyasi sabitliyin, əmin-amanlığın, tərəqqinin, tolerantlığın məkanı, siyasi və iqtisadi baxımdan sabit ölkə və etibarlı tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu sayəsində ölkəmiz istər regional, istərsə də beynəlxalq əməkdaşlıq kontekstində çox mühüm tərəfdaş kimi çıxış edir. Bunun nəticəsidir ki, inkişaf etmiş dünya dövlətləri düşünülmüş, qarşılıqlı etimada və milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirən Azərbaycanla dostluq, əməkdaşlıq əlaqələri yaradırlar". Bu fikirləri YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

N.Həmzəyev bildirib ki, son 20 ildə iqtisadi sahədə əldə etdiyi uğurlara, xarici və daxili siyasətin nəticəsində nail olduğu davamlı inkişafa görə dünyanın diqqətini özünə cəlb etməyi bacaran Çin Xalq Respublikası ilə Azərbaycan arasında da siyasi, iqtisadi, ticarət, enerji, mədəniyyət, kənd təsərrüfatı, turizm, təhsil kimi sahələrdə əməkdaşlıq münasibətləri yüksək səviyyədə formalaşıb. 1994-cü ildə ümummilli lider Heydər Əliyev Çinə uğurlu səfərindən sonra iki ölkə arasında ikitərəfli münasibətlər daha da möhkəmlənib, əlaqələrimiz uğurla inkişaf edib. Coğrafi baxımdan biri-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətləri ölkələrimiz arasında qarşılıqlı əlaqələrin inkişafına hər zaman əlverişli zəmin yaradıb.

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çinə dövlət səfəri hər iki ölkə arasındakı əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoydu. Dövlət başçıları arasında aparılan danışıqlar, imzalanan sənədlər, o cümlədən dostluq münasibətlərinin, əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə, "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə təkan olub.

"Ölkə Prezidenti İlham Əliyevin bu ilin yanvar ayında Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda



keçirilən sessiyada da Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvü olduğunu, ölkəmizin Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəklədiyini bildirib. Çin hökuməti də öz növbəsində Azərbaycanın "Bir kəmər, bir yol" layihəsinə verdiyi dəstəyi yüksək qiymətləndirib. Aprel ayının 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Forumunda iştirakı isə Azərbaycan Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dollarlıq sənədlərin imzalanması ilə yadda qaldı.

Çinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşı olan Azərbaycanla bu ölkə arasında siyasi, iqtisadi, enerji, mədəniyyət, turizm, təhsil kimi sahələr üzrə əlaqələrinin daha da genişləndirilməsində müsbət dinamika müşahidə olunur.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında 20 ildir ki, səmimi dostluq, etibarlı tərəfdaşlıq əməkdaşlıq əlaqələri movcuddur. Bu illər ərzində iki partiya arasında sıx təmaslar qurulub, qarşılıqlı səfərlər həyata keçirilib, təcrübə mübadiləsi aparılıb.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin 20 illiyi münasibətilə YAP-ın nümayəndə heyəti sentyabrın 11-də Çin Xalq Respublikasına səfər etdi. İşgüzar səfər çərçivəsində keçirilən görüşlər, konfranslar Azərbaycan ilə Çin, eləcə də YAP ilə ÇKP arasında əlaqələrin yüksək səviyyədə olmasının daha bir təsdiqi oldu.

Dünyada inkişaf etməkdə olan ölkələrin əməkdaşlığa can atdığı Çin Xalq Respublikası ilə sürətlə inkişaf edən ölkəmizin əməkdaşlığı, dostluq əlaqələri gələcəkdə hər iki xalqın tərəqqisi və rifahı naminə uğurla inkişaf edəcək, daha da güclənəcək"-deyə, N.Həmzəyev qeyd edib.

NİKOL PAŞİNYANIN AVANTÜRİST BƏYANATLARI:

# Ermənistan yeni fəlakətli yolda




Son vaxtlar Ermənistan mətbuatı baş nazir Nikol Paşinyanın avqustun 5-də Xankəndinin mərkəzi meydanındakı mitinqdə səsləndirdiyi fikirlərin şərhinə daha çox yer verir. Erməni ekspertlər N.Paşinyanı qeyri-ciddi siyasətçi kimi xarakterizə edirlər. Onlar yazırlar ki, erməni hökumətinin başçısı heç bir real analizə əsaslanmadan populist fikirlər söyləyib. Bunda məqsəd nədən ibarətdir? Bu suala cavab olaraq, ekspertlər hər şeydən öncə, N.Paşinyanın öz imicini və siyasi nüfuzunu xilas etməyə çalışdığını qeyd edirlər. Hakimiyyətə gəlişinin artıq ilyarımlıq dövrü tamam olur. Ancaq ortada real heç bir dəyişiklik yoxdur. İnqilabdan bəhs edən baş nazir bundan o tərəfə gedə bilmir. O, ancaq danışır. Digər tərəfdən, xarici havadarları N.Paşinyandan konkret addımlar gözləyirlər. Lakin onlar da heç bir real addım görmürlər. Bütün bunların fonunda N.Paşinyanın cəfəng, reallığa qətiyyən uyğun olmayan Xankəndi çıxışının üzərində geosiyasi aspektdə geniş dayanmağa ehtiyac vardır.

### Boş vədlər: Paşinyan vəziyyətdən çıxmağa çalışır

Maraqlıdır ki, N.Paşinyanın Xankəndidəki çıxışında ifadə etdiyi fikirləri erməni ekspertləri fantaziya və xülya kimi təqdim etməkdədirlər. Orada Ermənistanın baş naziri ölkənin 2050-ci ilə qədər strategiyasından danışmağa çalışıb. Beş istiqamət üzrə inkişafdan bəhs edib. Əhalinin sayını 5 milyona çatdırmaq, ümumdaxili məhsulu 15 dəfə artırmaq, büdcəsi 10 milyard dollar olacaq ən azı beş texnoloji şirkət yaratmaq, Ermənistan ordusunu dünyanın ən güclü 20 ordusu sırasına qatmaq, 1,5 milyon yeni iş yeri açmaq, səhiyyənin maliyyəsini 20 dəfə artırmaq və s. kimi tezislər irəli sürüb.

Ermənistan ekspertləri N.Paşinyanla bir məqamda həmrəydirlər: onlar da hesab edirlər ki, dövləti inkişaf etdirmək üçün strateji planlar qurmaq gərəkdir. Hətta erməni siyasi düşüncəsində 2050-ci ildə forpost dövlətin hər hansı nəticələr əldə edə biləcəyinə dair müəyyən təsəvvürlər də ola bilər. Ancaq bir siyasətçi üçün başqa şərtlərin də ödənməsi vacibdir. Belə ki, baş nazir strateji plandan ancaq konkret faktlar, proqramlar əsasında, atılacaq addımları dəqiq ifadə etməklə danışa bilər. Belə olmadıqda, onun yalnız fantaziya qurmasından danışmaq mümkündür.

Bu baxımdan N.Paşinyanın yuxarıda ifadə etdiyimiz strateji hədəfləri faktsız, proqramsız və əsassız fantaziyadan başqa bir şey deyildir. Bunu da erməni ekspertlər ifadə edirlər. Məsələn, kolumnist Sergey Bablumyan bu barədə açıq yazır (bax: Realğnıe üeli ili miraji: poçemu v ambiüioznıy proekt Paşinena veritsə v s trudom / Armeniasputnik.am, 8 avqust 2019).

Ekspertlər birmənalı olaraq N.Paşinyanın fikirlərini populizm adlandırırlar. Məsələnin iki tərəfinin olduğunu demək lazımdır. Birincisi ondan ibarətdir ki, N.Paşinyan verdiyi vədlərin heç birini yerinə yetirmədiyindən, özünə haqq qazandırmağa çalışır. Artıq ilyarımdan çoxdur ki, o, hakimiyyətdədir, lakin ortada heç bir real nəticə yoxdur. Ermənistan iqtisadiyyatı bərbad vəziyyətdə qalmaqdadır. Real proqramlar yox dərəcəsindədir. Ölkədən insanlar getməkdədirlər. Əhalinin sayı getdikcə azalır. Daxili siyasətdə müsbət dəyişiklik yoxdur. Bu istiqamətdə daha çox siyasi rəqiblərin ləkələnməsi prosesi özünü göstərir.

Vətəndaşlar görürlər ki, N.Paşinyan küçədə dediklərindən uzağa gedə bilmir. Sosial-mədəni sferada konkret heç bir addım atılmır. Belə bir şərtlər daxilində Ermənistan dövlət olaraq necə inkişaf edə bilər? Məsələn, S.Bablumyan sual edir ki, erməni qadınlar uşaq dünyaya gətirə biləcəkmi? Onların həyat tərzi buna imkan vermir. Nə ailə həyatı, nə də sosial təminat Ermənistanda artımın olması üçün ümidverici heç nə demir. Hakimiyyət hələlik bu istiqamətdə konkret heç bir proqram həyata keçirməyib. Real fakt ondan ibarətdir ki, Ermənistanı qısa bir müddətdə 8 mindən çox adam tərk edib. Bu proses erməni ailəsinin reproduktivlik potensialının yüksəlməyəcəyinə dəlalət edir.

İqtisadiyyatda vəziyyət bundan heç də yaxşı deyil. İqtisadi sahədə real islahat aparılmır. Korrupsiya ilə mübarizə nəticəsizdir. Cəmiyyətdə bu prosesin həqiqi mənada aparıldığına inam yoxdur. Ölkə əvvəlki kimi korrupsioner oliqarxik sistem tərəfindən idarə edilir. Bunun fonunda ekspertlər N.Paşinyanın kadr siyasətini kəskin tənqid edirlər. Onlar yazırlar ki, baş nazirin komandasında idarəetmənin ikinci və üçüncü eşelonunda işləmiş adamlar indi aparıcı yer tuturlar. Bu kadrlar müasir dövləti sürətlə inkişaf etdirmək potensialına malik deyillər. Çünki küçədə qışqırmaq insanın intellektual imkanlarını artırmır. N.Paşinyanın hansı kadrı ciddi dəyişikliyə apara biləcək plan və ya proqram təklif edib? Ekspertlər belə bir kadrı görmürlər. Onların hamısı liderləri kimi yalnız populist və pafoslu fikirlər irəli sürürlər.

### Fantaziya və siyasi reallıq: Ermənistan hakimiyyətinin növbəti xülyası

Bütün bunların əsasında belə nəticəyə gəlirlər ki, 2050-ci ilə ən azı 5 yeni texnologiyalı şirkətin yaradılması da fantaziyadır. Çünki Ermənistanda nə təhsil, nə də səhiyyə bu məqsədə çatmağa imkan verə biləcək kadr potensialını yetişdirmək iqtidarında deyil. Ümumdaxili məhsulun 15 dəfə artması dəqiq konsepsiya əsasında konkret proqramların yerinə yetirilməsini tələb edir. Bunun reallaşa biləcəyini təsdiq edən faktlar isə gözə dəymir. Deməli, N.Paşinyan havadan danışır və ya yuxuda gördüklərini ermənilərə nəql edir.

Məsələnin ikinci tərəfi də çox maraqlıdır. Ekspertlər hesab edirlər ki, N.Paşinyan bu üsulla hakimiyyəti itirə bilər. Çünki yüksək pafosla verilən vədlər yerinə yetirilmədikdə əhali bunun səbəbini soruşa bilər. Məsələn, cəmi bir neçə ildən sonra əhalinin artımında hiss olunacaq dəyişiklik olmadıqda insanlar N.Paşinyana sual verə bilərlər. Və yaxud təhsil və səhiyyə sistemində real islahatlar olmadıqda, yeni texnoloji şirkətləri hansı potensialla yarada biləcəkləri haqqında sual edə bilərlər.

Kənardan işçi dəvət etməklə cəmiyyətdə dayanıqlı və uzunmüddətli tərəqqiyə nail olmaq mümkün deyildir. Ermənistan ordusunun inkişafı ilə bağlı da nailiyyət olmadıqda, Nikolun yaxasından yapışacaqlar. Digər riskləri də nəzərə aldıqda, N.Paşinyan Xankəndidə verdiyi vədlərə görə peşiman olacağı ilə bağlı proqnozlar verilir.

Bunlardan maraqlı nəticələr alınır. Ekspertlərə görə, N.Paşinyan strateji vədləri hələlik yalnız siyasi mühitdə böhrana start verib. Ermənistanın siyasi, ekspert dairələri şübhə ilə yanaşır, sadə insanlar isə çaşqınlıq içindədirlər. Xüsusilə baş nazirin "bizə qeyri-real düşünən insanlar lazımdır" fikrini ifadə etməsini anlaya bilmirlər. Belə çıxır ki, onun özü də sadəcə qeyri-real, əsassız, konkret təməli olmayan deyilişigözəl fikirlər ifadə edib. Ekspertlər həmin aspektdə vurğulayırlar ki, N.Paşinyan Xankəndidəki çıxışı zamanı dediklərini sadəcə bir kağızdan oxuyub. Yəni o, heç bir əsas gətirmədən, fakt göstərmədən, nəzəri və ya praktiki təsdiq vermədən ağlına nə gəlib, danışıb.

Bunlar nəyi ifadə edir? N.Paşinyan vədlər limitinin bitdiyinin fərqindədir. Hakimiyyətə gəlməmişdən öncə dediklərini həyata keçirə bilmədiyindən yeni mərhələdə pafosluğa baş vurub. Görünür, burada ekspertlərin də vurğuladığı başqa bir məqam da mövcuddur. Məsələ ondan ibarətdir ki, N.Paşinyan Dağlıq Qarabağda özünə yaxın separatçı-terrorçunu başçı təyin etməyə çalışır. O, S.Sarkisyan hakimiyyətinin kadrlarına inanmır. Onlar da N.Paşinyana şübhə ilə yanaşırlar. Bu səbəbdən N.Paşinyan Ermənistanda istifadə etdiyi populist priyomdan Dağlıq Qarabağda da istifadə etməyə cəhd göstərir.

Yəni konkret desək, Xankəndidə də elə yüksək populizm nümayiş etdirməyə çalışır ki, insanlar ona inanıb arxasınca getsinlər. Lakin onun nəzərə almadığı bir özəllik vardır. Artıq Moskva N.Paşinyanın planlarının qarşısına maneələr çıxarır. Xüsusilə Dağlıq Qarabağ məsələsində Kreml İrəvana sərbəstlik verə bilməz. Ekspertlər problemin məhz bu tərəfini vurğulayaraq proqnozlaşdırırlar ki, Rusiya Ermənistanın baş nazirinə Dağlıq Qarabağda siyasi üstünlük əldə etməsinə imkan verməyəcək. Digər səbəblərə yanaşı, bu, həm də onunla bağlıdır ki, münaqişənin həllində vasitəçi olan və həmsədrlərdən biri kimi bu prosesdə iştirak edən Rusiya özünü pis vəziyyətə sala bilməz. "Qarabağ Ermənistandır, vəssalam" deyən bir iqtidara Kremlin "yaşıl işıq" yandırması inandırıcı deyildir.

Bunlardan başqa, ekspertlər onu da diqqət yetirirlər ki, N.Paşinyan təxribatçı davranışı və sərsəm bəyanatları ilə bölgədə müharibə riskini artırmağa çalışır. Məqsədi ondan ibarətdir ki, yeni müharibədə Ermənistan Azərbaycana məğlub olandan sonra Moskvanı ittiham etsin. Ermənilərə anlatsın ki, Rusiya guya Ermənistanı satıb. Bununla da gizli olaraq nəzərdə tutduğu "Qərb xətti"ni real ictimai müzakirəyə çıxarsın. Bu variant hakimiyyət hərisi və konkret dairələrin marağını ifadə edən N.Paşinyana tam uyğundur.

Beləliklə, Ermənistanın baş naziri Xankəndidə siyasi həyatının bəlkə də ən qabarıq fiaskosunu yaşayıb. O, irəli sürdüyü sərsəm tezisləri ilə Ermənistanın daxili siyasi həyatında böhrana yol açıb. Beynəlxalq aləmdə isə Ermənistan adlı dövlətin xam xəyallarla idarə edildiyi haqqındakı fikri daha da möhkəmləndirib. Belə görünür ki, erməni dövlətçiliyi XXI əsrdə də baş tutmayacaq.

**Newtimes.az**

# TAP-ın 89,3 faizi tamamlanıb



Avqustun sonuna Azərbaycan təbii qazını Avropaya nəql edəcək "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 89,3 faizi icra edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, layihə qrafikə uyğun irəliləyir. Boru kəmərinin inşası üzrə hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa olunur.

Qeyd edək ki, TAP-ın quru hissəsinin inşası üzrə İtaliyada boruların tikintisinə başlanılıb. Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Hazırda qəbul terminalının inşasının 32 faizi yekunlaşıb. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib.

TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. İlin sonuna kimi Yunanıstan və Albaniya marşrutunda boruların 100 faizi torpağa basdırılacaq. Yunanıstan, Albaniya və İtaliyada boru kəməri marşrutunun 97 faizində torpaq örtüyü bərpa edilib. Üç ölkədə boruların 99 faizi qaynaqlanıb.

Bundan başqa, TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Boru kəmərinin inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal olunub.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz).

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Avtomatika avadanlıqlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11129AM-19) üzrə müvafiq tarixlərin dəyişdirilməsini elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 03.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 10.10.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsini 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

Tələb olunmur

***VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:** Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 10.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Mal-materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26082-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 16.10.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 16.10.2019-cu il, Bakı vaxtı ilə saat: 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 236 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VII. * Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VIII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:** Hüseynov Anar
"Kompleks qazma işləri" tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***IX. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***X. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 16.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VIII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***XI. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

# Nəsiminin yaradıcılığı milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir

AMEA-NIN NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTUNUN ELMİ KATİBİ, FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU, DOSENT AYNEL MƏŞƏDİYEVA BİLDİRDİ Kİ, "NƏSİMİ İLİ" DAHİ ŞAİRİN YARADICILIĞININ BÜTÜN ÜFÜQLƏRİNƏ İŞIQ SALIR



Bu fakt daim önə çəkilir ki, çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri mədəniyyətimiz, ədəbiyyatımız, milli-mənəvi dəyərlərimiz, dilimizdir. Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir. Ulu öndər Heydər Əliyevin bu fikirləri mədəniyyətimizin, ədəbiyyatımızın yol açdığı uğurların aydın ifadəsini yaradır: "İnsanların ürəyinə, qəlbinə təsir edə bilən ədəbiyyatımız olubdur, şeirimiz olubdur və həmin şeirlər, həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır."

Bu məqamı da xüsusi qeyd etməliyik ki, ölkəmizdə yaşayan və dinindən, dilindən, milliyyətindən asılı olmayaraq Azərbaycan dilini ikinci ana dili kimi qəbul edən bütün vətəndaşlar üçün ünsiyyət vasitəsi olan Azərbaycan dilinin xalqımızın elmi, bədii məntiqi təfəkkürünün formalaşması və inkişafında böyük rolu olmuşdur. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, hər bir xalqın elə milli-mənəvi dəyərləri vardır ki, onun qorunması, zənginləşdirilməsi, inkişaf etdirilməsi cəmiyyətdə tutduğu mövqeyindən, peşəsindən, vəzifəsindən asılı olmayaraq hər kəsin vətəndaşlıq borcudur. Dövlətimizin başçısı İlham Əliyev məhz bu kimi məsələləri önə çəkərək ötən il Azərbaycan dilinin saflığının qorunması ilə bağlı Fərman imzaladı.

Dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr verən Azərbaycanın bu il UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi də milli-mənəvi dəyərlərinə, tarixi-mədəni irsinə bağlılığından irəli gəldi. Bu mühüm hadisə, həmçinin beynəlxalq əməkdaşlığa söykənən, elm, mədəniyyət və təhsil yolu ilə dünyanın sülh və təhlükəsizliyini qorumaq məqsədilə yaradılan UNESKO ilə Azərbaycan arasında tərəfdaşlıq münasibətlərinin təhlilində də əhəmiyyətli rol oynadı. Tarixə söykənərək, inkaredilməz olan bu reallıq da önə çəkilir ki, bir millətin, xalqın dəyərlərinin, dilinin əlindən alınması onun məhvi deməkdir. "Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik" söyləyən ulu öndər Heydər Əliyev daim bu çağırışı etmişdir ki, gələcəyimiz olan gənclər milli-mənəvi dəyərlərimizi unutmamalı, tariximizi, ədəbiyyatımızı, ana dilimizi bilməli və qorumalıdır. Bu reallıq da məlum olaylardandır ki, ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsirini xüsusi vurğulayaraq, Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır. Son 15 ildən artıq dövrdə bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi atılan davamlı addımlardan daha aydın görünür. Cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi, həmçinin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamı, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı, 2019-cu ili "Nəsimi İli" elan etməsi və s. kimi biri-birindən önəmli addımlar zəngin tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə sahib olmağımızdan irəli gəlir. Ölkəmizin ev sahibliyi etdiyi mədəniyyətlərarası dialoq forumlarında da daim bu məqam önə çəkilir ki, müxtəlif mədəniyyətlərin, dinlərin qovuşuğunda yerləşən Azərbaycan xalqlar, dövlətlər arasında körpü roluna yeni əlavələr etməklə beynəlxalq aləmdə nüfuzunu, humanitar mərkəz kimi qazandığı imici möhkəmləndirir.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aynel Məşədiyeva "Nəsimi İli" ilə bağlı fikirlərini bizimlə bölüşərkən bildirdi ki, Azərbaycan zəngin tarixə, mədəniyyətə, ədəbiyyata malik ölkədir. İmadəddin Nəsimi irsinin öyrənilməsi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESKO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq səviyyədə qeyd olunub.

"Əlbəttə, bu yeganə hal deyildir" söyləyən A.Məşədiyeva qeyd etdi ki, görkəmli dövlət xadimi N.Nərimanovun, dahi klassiklərimiz Ü.Hacıbəylinin, M.Maqomayevin, S.Vurğunun, C.Cabbarlının, M.S.Ordubadinin, Aşıq Ələsgərin yubileyləri məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilib, bəzilərinin ev-muzeyləri yaradılıb. Hazırda həmin ev-muzeylərində Azərbaycan xalqının dahi şəxsiyyətlərinin zəngin irsi və yaradıcılığı geniş tədqiq və təbliğ edilir. Prezident İlham Əliyevin 2019-cu ili "Nəsimi İli" elan etməsi də Ulu Öndərin bu istiqamətdə gördüyü dəyərli işlərin uğurlu davamıdır.

Dilçilik İnstitutunun elmi katibi onu da əlavə etdi ki, Azərbaycan poetik dilinin inkişafına böyük təsiri olan, hürufiliyin aparıcı simalarından biri, əvəzsiz şair İmadəddin Nəsimi öz yaradıcılığı ilə mübarizliyi, sülhü, tolerantlığı və multikulturalizmi təbliğ edib: "İmadəddin Nəsiminin bədii yaradıcılığının Azərbaycan dilinin tarixi inkişafının öyrənilməsində, Azərbaycan şeirinin və ümumiyyətlə, türk ədəbiyyatının təkmilləşməsində müstəsna rolu var. Mütəfəkkir şair qüdrətli söz ustaları Şah İsmayıl Xətai, Füzuli, Vaqif və başqalarının yaradıcılığına böyük təsir göstərib. "Nəsimi ili" dahi şairin yaradıcılığının bütün üfüqlərinə işıq salır."

O da qeyd olundu ki, cari ilin oktyabr ayında AMEA Nəsimi adına Dilçilik İnstitutunda dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan "İmadəddin Nəsiminin poetik dili və Azərbaycan ədəbi dilinin tarixi məsələləri" mövzusunda respublika elmi konfransı keçiriləcək.

Dilçi alimin fikirləri bu ümumiləşdirməyə əsas verdi ki, "Nəsimi İli" Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfələrə işıq salmaqla yanaşı, xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik olduğunu açıqlayır. Bu mühüm addım ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verir. Aparılan araşdırmalar bu fikrə əsas verir ki, Nəsimi yaradıcılığının mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi örnək olaraq bütün xalqımıza, xüsusilə gənc nəslimizə öz müsbət təsirini göstərəcək. Nəsiminin yaradıcılığı milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir. Bu kimi mühüm addımlar ölkəmizdə yüksək ideallara, mənəvi həyata, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına nə qədər böyük diqqət yetirildiyinin təzahürüdür.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# Azərbaycan-ABŞ iqtisadi tərəfdaşlığı yüksələn xətlə inkişaf edir



**Azərbaycan Cənubi Qafqaz regionunda ABŞ-ın ən böyük ticarət tərəfdaşıdır. Hər iki ölkə müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uzunmüddətli strateji əlaqələrə malikdir. Qeyd edək ki, ABŞ rəsmiləri tərəfindən bir sıra layihələrin, o cümlədən Cənub Qaz Dəhlizinin reallaşmasına daim sadiqlik göstərilib. Bu layihədə Azərbaycanın aparıcı rolu təqdir olunub, onun Avropaya həqiqi diversifikasiya, əlavə qaz mənbəyi gətirdiyi xüsusi vurğulanıb.**

Son 27 il ərzində ABŞ şirkətləri Azərbaycan iqtisadiyyatına 13,6 milyard dollar investisiya yatırıblar. Ölkəmizin Amerika iqtisadiyyatına portfel investisiyaları isə bu müddət ərzində 8,2 milyard dollar təşkil edib. Ötən il Azərbaycan və ABŞ arasında ticarət dövriyyəsi 860 milyon dollar təşkil edib. Bunun da 330 milyon dolları Azərbaycan məhsullarının ABŞ-a ixracının payına düşüb.

Ötən müddətdə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) Azərbaycan hökuməti ilə birgə Sosial İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) proqramını dəstəkləyib. Sözügedən layihə çərçivəsində yerli hökumət nümayəndələri, vətəndaşlar və qeyri-hökumət təşkilatları bir araya gələrək icmaların üzləşdikləri problemləri həll ediblər. Ümumilikdə proqram çərçivəsində 59 layihə tamamlanıb ki, onların bir neçəsinin sayəsində kəndlərdə içməli su təmin olunub. 52 icmada yolların bərpası və tibb müəssisələrinin inşası həyata keçirilib. Son üç il ərzində 85 mindən çox azərbaycanlı bu layihələrdən yararlanıb.

Xatırladaq ki, USAID indiyədək ölkəmizin bir sıra sahələrində, eləcə də biznes əməkdaşlığının genişlənməsində də fəal iştirak edib. Bu qurum kənd təsərrüfatı müəssisələrinə və fərdi sahibkarlara texniki yardım göstərmək, onları biznes təlim proqramları ilə təmin etmək, Azərbaycanın perspektivli sənaye sahələrinin inkişafı üçün innovativ elmi və bazar əsaslı həlləri reallaşdırmaq, habelə dövlət-özəl sektor tərəfdaşlığını möhkəmləndirmək kimi qarşıya qoyulan vəzifələri uğurla gerçəkləşdirib. USAID, eyni zamanda, respublikamızda qida təhlükəsizliyi standartlarının təkmilləşdirilməsi, kənd təsərrüfatı və aqrotexniki bacarıqların artırılması məsələlərinin həllində də müsbət nəticələr əldə edib.

Hazırda respublikamızın ABŞ ilə aqrar sahədə əməkdaşlığı daha çox diqqət çəkir. Vaşinqton şəhərində fəaliyyət göstərən ABŞ-Azərbaycan Ticarət Palatası tərəfindən bu ilin aprelində təşkil olunan İllinoys-Azərbaycan Kənd Təsərrüfatı Forumunda Azərbaycan məhsullarının təqdimatı bunun bariz ifadəsidir. Forum zamanı ölkələrimiz arasında aqrar sahədə əməkdaşlığın genişləndirilməsi məsələsi geniş müzakirə olunub. Azərbaycan ilə ABŞ arasında ikinci kənd təsərrüfatı forumu isə bu il noyabrın 6-8-də Oklahomada keçiriləcək.

Forum ən yaxşı təcrübələri bölüşmək və hər iki tərəfin iqtisadiyyat sektorunda tərəfdaşlıq və investisiya imkanlarını araşdırmaq üçün özəl sektordan olan nümayəndələri, kənd təsərrüfatı məhsulları istehsalçılarını, habelə Oklahoma və Azərbaycanın dövlət sektorundan kənd təsərrüfatı sahəsində çalışan məsul şəxsləri bir araya gətirəcək.

Oklahoma-Azərbaycan Forumu heyvandarlıq sahəsinə xüsusi diqqət yetirərək, təsərrüfatın idarə olunması, nizamlanması və geniş çeşidli taxıl məhsullarının təbliğini əhatə edəcək.

ABŞ-da çovdar üzrə birinci, mal əti üzrə isə ikinci ən böyük istehsalçı olan Oklahomanın kənd təsərrüfatı dövlətin illik iqtisadiyyatının 7,1 milyard dollarını təşkil edir və bu sahə üzrə məhsul ixracı dövlətə ildə 1,9 milyard dollar gəlir gətirir.

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Arzuman vətən üçün doğulmuşdu...

Arzuman Canəli oğlu Səfərov Vətən, torpaq uğrunda canından keçəndə 20 yaşının tamamına lap az qalırdı. Bu oddan-alovdan keçən qısa həyat yolu yurda bir sədaqət nümunəsinə döndü. Çünki Tanrının verdiyi ömür payını ləyaqətlə yaşamağı bacardı.

1973-cü ildə Lerik rayonunun Cəngəmiran kəndində anadan olan Arzuman torpağını canından artıq sevən, nəcib, xeyirxah insanların istək və arzulardan yükünü tuta-tuta yetkinlik yaşına çatır. Orta məktəbi bitirib bir müddət kənddə qalır. Bütün eşqini, məhəbbətini el-obanın xoşbəxtliyinə bağlayır. Hər ötən gün ona insanların sevgisini, sevincini gətirir...

Erməni quldurlarının Azərbaycanın müqəddəs torpağı olan Qarabağda başladığı müharibə xalqın



digər qeyrətli övladları kimi Arzumana da pis təsir edir. Düşmənlə mübarizə aparmaqda özündə tükənməz qüvvə görür.1992-ci ildə Milli Ordunun tərkibində Füzuli rayonunda hərbi xidmətə başlayır. Müharibə meydanında düşmənə qarşı yaxşı vuruşmaqla bərabər, döyüşçü yoldaşlarına da mənəvi dayaq olur.

Arzumanın ön cəbhənin ən qaynar nöqtələrinə getməsi Vətənə ilahi sevgisindən irəli gəlir. Əlinə silah alıb hamıdan qabaq düşmənin üstünə qartal tək şığıyır. Nəticədə ermənilər bu əzəmətin qarşısında tab gətirmir, böyük itkilər verməklə məğlub şəkildə geri çəkilirlər.

Ermənilər 14 avqust 1993-cü ildə böyük qüvvə ilə qəflətən Füzuli rayonunun Qızılqaya kəndinə güclü hücum çəkirlər. Arzuman yenə də düşməni qıra-qıra qabağa gedir. Təəssüf ki, çox ağır keçən döyüşün qızğın çağında özü də gülləyə tuş gəlir.

Bəli, bu mərd insanı bütün Lerik camaatı özünə layiqli oğul sayır. Onun 46 yaşını qeyd etməyə gələnlər Arzuman haqqında qürurla danışıb zaman-zaman gələn nəsillərə örnək olacağını söylədilər.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü



# “Tülkü həccə gedir” və yaxud Əli Kərimlinin 28 sentyabr hoqqası

**Vəli İlyasov**

Kiçik bir qrupun özəl “Milli Şura”sı sentyabrın 28-nə mitinq təyin edib. Sonuncu mitinqi səkkiz ay əvvəl keçirilən “şura”nın yenidən aksiya keçirmək niyyəti maraqlı məqamlara diqqət çəkir. Siyasi qurumdan daha çox özfəaliyyət dram dərnəyini xatırladan qurumun de-fakto yiyəsi olan Əli Kərimli açıqlama verib ki, guya “sosial sifariş olduğu üçün mitinqlərə başlamaq qərarına gəliblər”.

Ancaq Əli Kərimli gözünün içinə qədər yalan danışmaqdan utanmır. Yadından çıxarıb ki, onun yüksək vəzifədə olduğu vaxt əhali axşamdan sübhədək çörək növbələrində dayanmalı olurdu. İşsizlik insanları təngə gətirmişdi, torpaq islahatı aparılmır, fabriklər, zavodlar bağlanmışdı. Hələ ölkədə hökm sürən cinayətkarlığı, xaosu və anarxiyanı demirik.

Əli Kərimli bilsin ki, tarixi təcrübəyə görə xalqın mütləq əksəriyyətinin mövqeyi olan sosial sifariş yalnız sosial-iqtisadi problemlərdən və əhalinin rifah səviyyəsinin aşağı olmasından qaynaqlanır. Azərbaycan dövləti xalqa sosial dəstəyinə görə beynəlxalq reytinq siyahılarında ön pillələrdə qərarlaşıb. Dövlət başçısının müvafiq sərəncamları ilə təkcə 2019-cu ilin birinci yarısında minimum əməkhaqları, sosial müavinətlər ümumilikdə 20 faiz qaldırılıb, dövlət qulluqçularının əmək haqları 50 faiz, hərbi qulluqçular, müəllimlər və digər müəssisələrdə çalışan işçilərin maaşları isə 40 faiz qaldırılıb. Dövlətin bu il həyata keçirdiyi sosial paket 4 milyondan çox insanı əhatə edir.

Dövlət başçısının müvafiq sərəncamlarına əsasən, əməkhaqları, pensiyalar, sosial müavinətlər və digər sahələrdə əhəmiyyətli artımlar sentyabrın 1-dən qüvvəyə mindi. Bu, o deməkdir ki, vətəndaşlar oktyabrın 1-dən etibarən əmək haqlarını yeni artımla alacaq və şəxsi büdcələri daha da zənginləşdircəklər. Əli Kərimli məhz vətəndaşların yeni qaydalarla əməkhaqqı almasına 3 gün qalmış mitinq təyin etməklə dövlətin sosial layihələrinə kölgə salmaq istəyir. Ümumi hədəf xalqı dövlətə qarşı narazı əhval-ruhiyyəyə kökləmək və jonqlyorluq etdiyi siyasətdə bəsit karyerasını davam etdirməkdir. 28 sentyabrda paytaxtda narahatlıq yaratmağa cəhd etməyin əsl mənası da bundan ibarətdir.

Diqqətçəkən digər bir məqam mitinq qərarının sentyabrın 11-də keçirilən iqtidar-müxalifət dialoqundan bir gün sonra verilməsidir. “Azərbaycanda siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi” mövzusunda keçirilən “dəyirmi masa”ya AXCP-“Milli Şura” istisna olmaqla ölkənin bütün siyasi qüvvələri dəvət edilmişdi. Bu, konkret olaraq AXCP-nin və Əli Kərimlinin Azərbaycanın siyasi mühitində qəbul edilmədiyi və tarixin tozlu arxivinə atılmasının başlanğıcı deməkdir. O, artıq siyasi üfüqdə yox olduğunu görür və təcili mitinq qərarı ilə gündəmdə qalmağa cəhd göstərir.

Mitinq qərarının məhz iqtidar-müxalifət dialoqunun siyasi proseslərə xarici müdaxilə mövzusunda keçirilməsindən sonra Azərbaycanın daxili siyasətinə müdaxiləyə cəhd göstərən xarici qüvvələrin qərargahlarında verildiyi də istisna deyil. Dialoqda əsas müzakirələr xaricdə anti-Azərbaycan qüvvələrin çətiri altına toplanmış “söyüş müxalifəti” ilə bağlı idi. Kərimli bildirir ki, “biz xaricdə internet TV və sosial şəbəkədə çıxış edənlərlə birgə hərəkət edirik, mənim “dəyirmi masa”ya qatılmağım onlara qarşı çıxmaq olardı”. Əli Kərimli bununla da ölkənin bütün siyasi qüvvələrinin təhlükə kimi qəbul etdiyi anti-Azərbaycan qüvvələrlə açıq əməkdaşlığını, mitinq qərarının da hansı qərargahlarda qəbul edildiyini etiraf etmiş oldu.

Dediyimiz kimi, iki həftədən sonra dövlət başçısının sərəncamı ilə sosial sahədə yeni artımlar olacaq. Deməli, Əli Kərimli xarici ağalarına kələk gəlmək üçün münbit şərait yaranıb və o, yaxşı pul qazanmaq imkanını əldən verməməyə çalışır. Xatırladaq ki, dövlət başçısının keçən dəfəki Sərəncamından da sonra Əli Kərimli belə bir hiyləgər gediş etmişdi. O, car çəkib bildirirdi ki, guya iqtidar onların çıxışlarından sonra bu addımı atdı. Ancaq belə priyomlar daha keçmir, çünki “Tülkü həccə gedir” təmsilini hamı bilir, Əli Kərimli!

# Naxçıvan xanlığına məxsus üç bayraq

Yaponiyanın Kiyoto şəhərində bir neçə gün əvvəl keçirilən Beynəlxalq Muzeylər Şurasının (İCOM) 25-ci Baş Konfransı çərçivəsində “Qəsr” Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq” İB sədrinin birinci müavini, tarix üzrə fəlsəfə doktoru, bayraqşünaslıq və heraldika üzrə mutəxəssis Pərvin Gözəlovun Kiyoto Milli Muzeyində keçirilən iclasda “Naxçıvan xanlığına məxsus üç bayraq” kitabı iştirakçılara təqdim edilib. İngiliscə yazılmış kitabın nüsxələri muzeyin kitabxanasına və Beynəlxalq Komitəyə, o cümlədən Beynəlxalq Muzeylər Şurasının Prezidentinə və İdarə Heyətinin üzvlərinə təqdim olunub.



Müəllif beynəlxalq tədbir iştirakçılarına bildirib ki, Naxçıvan xanlığının XVIII-XIX əsrlərə aid üç bayrağı 2015-ci ildə aşkar edilərək elmi dövriyyəyə salınıb.

Belə ki, Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yerləşən Artilleriya Hərbi-Tarix, Raket və Rabitə Qoşunları Muzeyinin fondunda saxlanılan Naxçıvan xanlığının iki bayrağı kitabın müəllifi tərəfindən müəyyən edilib. Bayraqlardan biri - Naxçıvan xanlığının “Dövlət bayrağı” üzərində səkkizguşəli ulduz və aypara kompozisiyası və dini yazılar əks edilən bayraqdır. Muzey fondunda saxlanılan ikinci bayraq xanlığın yaşıl və qırmızı zolaqlı üzərində səkkizguşəli ulduz rəmzi olan döyüş bayrağıdır. Naxçıvan xanlığının üçüncü döyüş bayrağı isə Ermitaj Muzeyinin fondunda saxlanılan kitab-albomdan aşkar edilib. Sözügedən “muttəfiq-döyüş” bayrağı 1812-ci il 19-20 oktyabr günlərində Aslandüz döyüşündə müttəfiq kimi iştirak edən Naxçıvanlı Kalbalı xanın oğlu Hüseynqulu bəy əsir düşdüyü vaxt qənimət kimi götürülüb.

Beləliklə, 130 dövlətdən gələn nümayəndələr qarşısında Azərbaycanın qədim dövlətçilik ənənələrini, şərəfli dövlətçilik tariximizi əks etdirən və xarici muzeylərdə qorunan materiallar barədə xarici mütəxəssislərə müəllif tərəfindən ətraflı məlumat verilib.

**Vəli İlyasov,**
***“İki sahil”***

# Müxalifətsayağı quduzluq

## ARTIQ DAĞIDICILAR BİR-BİRLƏRİNƏ DƏ DİŞ QICAYIRLAR



***Dağıdıcı müxalifətin həm ölkədəki fəaliyyət göstərən hissəsi, həm də xaricdəki nümayəndələri əxlaqsız davranışlarını və hədyan söyüşlərini artırmaqla insanlarda ciddi narazılıq yaradırlar. Hətta bu ədəbsiz təbəqə artıq hakimiyyəti, ölkə ziyalılarını deyil, bir-birlərini də təhqir etməyə başlayıblar. Görünür, bu küçə adamlarının siyasi ədəbsizliyi onları idarəolunmaz hala çatdırıb. Necə deyərlər, müxalifətsayağı quduzluq xəstəliyi başlayıb. Artıq dağıdıcılar bir-birlərinə də diş qıcayırlar.***

Bu dağıdıcı düşərgə artıq bir-birlərini satqınlıqda, xəyanətdə, müxalifətə qarşı müxalifətçilik etməkdə, hökumətin əlinə oynamaqda təqsirli bilir, müxtəlif arqumentlərlə bunu əsaslandırmağa çalışırlar. Qeyd edilənlərə bir nümunə olaraq, Real Partiyasının funksioneri Natiq Cəfərli ilə “Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli arasında baş verən söz savaşını göstərə bilərik. Bunun ardınca AXCP sədri Ə.Kərimlinin ruporuna çevrilən Sevinc Osmanqızı ilə Oyan Hərəkatı İdarə Heyətinin üzvü Nahid Cəfərov arasında da “facebook” üzərindən qarşılıqlı ittihamlarla müşayiət olunan “söz davası” başlayıb. Bu qarşıdurmanın da yaranmasına səbəb radikal müxalifətin yeni nəsil müxalifətçilərə meydan vermək istəməməsi, yenilərin köhnələri qəbul etməməsidir.

Bu dəfə hər şey ondan başlayıb ki, hazırda Avropada yaşayan Nahid Cəfərov cəbhəçiləri və onların “siyasi mübarizəsinə” dəstək verənləri qınayan statuslar yazıb. O, sabiq diplomat, Avropaya sığınan Arif Məmmədovun AXCP sədri Ə.Kərimlini “müxalifətin yeganə lideri” kimi təqdim etməsinə, “hamını onun ətrafında birləşməyə” səsləməsinə etiraz edib. Onun düşüncəsinə görə, xalq heç zaman şəxsin ətrafında birləşmir, çünki bu, avtoritarizm və diktatura yaradır. N.Cəfərov xalqın gələcəklə bağlı ideya, ideologiya və dəyərlər ətrafında birləşdiyini diqqətə çatdıraraq, AXCP sədrinin indiyə qədər bunları ortaya qoya bilmədiyini, ona görə də xalqın heç zaman Ə.Kərimlini dəstəkləməyəcəyini vurğulayıb, onu bütpərəst kimi qələmə verib. Təbii olaraq belə bir mövqe AXCP sədrini qane etməyib və o, dərhal tərəfdarlarına N.Cəfərovun üzərinə hücuma keçməyi göstəriş verib. Bununla da cəbhəçilər və onlara dəstək verənlər Oyan Hərəkatının funksionerinə qarşı yeni cəbhə açıblar.

N.Cəfərov növbəti statusunda AXCP ilə bərabər, Müsavat Partiyasının ünvanına da sərt tənqidlər səsləndirib. O, sözügedən təşkilat sədrlərini siyasətdən anlayışı olmayan, hakimiyyəti hazırkı iqtidara təhvil verməklə “siyasi təcrübə” qazanan, bu günə qədər kiçik uğur hekayəsi belə yarada bilməyən, 1 məhbusu azad etdirə bilməyən, lakin yüzlərlə qorxmaz siyasi fəalın həbsinə müxtəlif formalarda (ortaya qoyduqları strategiyalarla) vasitə olan, ən nəhayət, liderliyi yalnız Azərbaycan Prezidentini və onun ətrafını tənqid etməkdə görən bloqger və siyasi bürokratlar adlandırıb. N.Cəfərov bu statusuna Qənimət Zahidin, Natiq Ədilovun, Sevinc Osmanqızının şəkillərini də əlavə edib. Qeyd edib ki, məhz jurnalistikaya, liberal dəyərlərə və söz azadlığına ləkə olan bu “jurnalistlər” tərəfindən AXCP və Müsavat sədrləri “siyasi lider” kimi təqdim olunur. Onun fikrincə, bu “mətbuat nümayəndələri” xalqı düşünmür, həqiqətlə maraqlanmır, dəyərləri müdafiə etmirlər: “Bunları maraqlandıran yeganə şey bu bürokratların toxunulmazlığını təmin etməkdir. Bu şəxslərin toxunulmazlığını təmin etmək üçün hətta Sevinc Osmanqızı telefonun səsini alır, məsələləri kontekstdən çıxarır, Müsavatın sənəd alverini vizaya dəstək kimi təqdim edir, qollarını çırmalayaraq narazı vətəndaşa özü müsahibi əvəzinə cavab verir”.

N.Cəfərov yazıb ki, əgər Sevinc Osmanqızını həqiqət və ya xalqın taleyi maraqlandırsaydı, Müsavat başqanına hipoteza ilə aşağıdakı sualları ünvanlamalı idi: “Deyək ki, xaricdə yaşayan azərbaycanlılar Müsavata qarşı qərəzlidir və ya bu hakimiyyətin oyunudur. Bəs necə olur ki, Hollandiya və Almaniya kimi dövlətlər və onların məhkəmələri Müsavatı saxta sənəd satmaqda ittiham edir, qərar çıxarır və əsl müsavatçılara belə, oturum verməkdən imtina edir? Necə olur ki, bir partiyanın rəhbəri bütün dünyanı rahat gəzir, amma həmin partiyanın sıravi üzvü Azərbaycana gələn kimi müsavatçı olduğuna görə həbs olunur? Həqiqət axtaran, xalqını düşünən əsl jurnalistlər bu sualları verməklə çayxana siyasətçilərini sıradan çıxarırlar və nəticədə daha savadlı və gənc siyasi liderlər meydana gəlir. ...Gördüyünüz bu insanlar söz azadlığına təhlükədir. Sizin qurduğunuz troll imperiyası başınıza uçacaq. Hər şeyin bir yolu var, Sevinc Osmanqızı özü bunu hamıdan yaxşı bilir”.

N.Cəfərov yazdığı statuslarla yanaşı, sosial mediada video yayıb, S.Osmanqızının kanalına çıxmamasının səbəbini yuxarıda qeyd edilən amillərlə əlaqələndirib. S.Osmanqızı da ünvanına səsləndirilən ittihamlara cavab olaraq hazırladığı video-müraciəti “facebook”dakı “Azadlıq qəzeti” səhifəsində yayımladıb. Həmin videoda S.Osmanqızı bildirir ki, şəxsən özü N.Cəfərovu “Sevinc Osmanqızı kanalı”na çıxarmaq istəmir və bunu ayrı yerlərə yozmağa ehtiyac yoxdur. O, N.Cəfərovu uzun-uzadı yalan danışmaqda, özü barəsində “demokrat” obrazı yaratmaqda, cılızlaşmaqda, qeyri-səmimilikdə ittiham edib. Deyib ki, N.Cəfərov müxalifətə qarşı müxalifətçilik etdiyinə görə “Sevinc Osmanqızı kanalı”na dəvət olunmur.

Hər iki şəxsin “facebook”da paylaşdığı bu statuslar altında uzun-uzadı müzakirələr, qarşılıqlı ittihamlar, bəzi hallarda isə təhqirlər hazırda da davam etməkdədir. Bütün bunlara rəğmən söyləmək olar ki, istər daxildəki, istərdəki xaricdəki dağıdıcı, söyüşcül və ədəbsiz müxalifət iflas astanasındadır. Çünki əqidəsi olmayan, saxta və yalanlarla fəaliyyət göstərən antimillilərə zaman öz həddini göstərdi. Onlar da artıq yaxşı anlayırlar ki, bir atalar məsəlində deyildiyi kimi, yalan ayaq tutar amma yeriməz.

**Elçin Zaman,**
***“İki sahil”***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**idarələrinin tələbatına əsasən yanğınsöndürmə qurğusuna açıq satınalma müsabiqəsi (11166AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 17.10.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 1 180.00 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120 AZN,
AZ28IBAZ38110018409306332120 USD,
AZ08IBAZ38110019789306332120 EUR,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 180 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

* LOT-1 üzrə İddiaçının müsabiqə təklifinin təminatı 50 000.00 AZN tələb olunur
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.
* Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti 73
**Əlaqələndirici şəxs:** Orucov Mirismayıl
Satınalmalar və təchizat şöbəsi, ekspert
+99450 841 12 62
+99412 521 12 62
+99412 521 11 72
Mirismayil.orucov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 17.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**Ştuserlərə (O23 mm, qaz sayğacı üçün) araqatılara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29027-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 08.10.2019-cu il, Bakı vaxtı ilə saat: 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 590 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi (AZN):
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Xaricdən valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:
TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Intermediary bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC: 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC: USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***

**Müsabiqə təklifinin təminatı:**

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 150 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:** Fərhad Bədirbəyli.
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521 00 00 (daxili 29469)
farhad.bedirbeyli@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 08.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

# iki sahil

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

Son səhifə

32

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 169 (7424) / Çərşənbə axşamı, 17 sentyabr 2019-cu il


## Ayın üçölçülü modeli yaradılıb



ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyi (NASA) Ayın ətraflı və dəqiq modelinin yaradılması üçün bütün arzu edənlərə yükləyərək istifadəyə imkan verən iki xəritə hazırlayıb.

Milli.Az xəbər verir ki, qeyri-adi peyk modeli "Lunar Reconnaissance Orbiter" (LRO) planetlərarası avtomatik stansiyasının 10 il ərzində topladığı məlumatlar əsasında hazırlanıb. O, peykin şəkillərini çəkməklə saniyədə 1,5 km sürətlə hərəkət edir. Bu halda işıq mənbəyi 150 milyon km məsafədə yerləşir, bütün Ay səthinin isə xəritə üzərinə topoqrafik baxımdan dəqiq köçürülməsi tələb olunur.

Bildirilir ki, skaner kimi işləyən "LRO" stansiyası kosmik gəminin Ay səthi üzərində hərəkətindən istifadə edərək şəkilləri sətir-sətir sıralayır. Lazer impulsları Ayın ölçüsünün müəyyənləşdirilməsi üçün istifadə olunur. Onlar Ay səthinə çatır və kosmik gəmidə əks olunurlar. Daha sonra aparat şüanın qaytarılması üçün tələb olunan vaxtı ölçməklə Ay topoqrafiyasını hesablayır.

"LRO" stansiyasının məlumat və təsvirlərindən istifadə edən NASA mütəxəssisləri Ayı misli görünməmiş ətraflı şəkildə canlandırıblar. Layihənin məqsədi "NASA" məlumatlarından 3D dizaynerlər üçün istifadəyə şərait yaratmaqdan ibarətdir. Ayın dəqiq topoqrafiyası, həmçinin gələcək missiyaların daha təhlükəsiz enişinə hazırlıq üçün tələb olunur.

## Qısa zamanda arıqladan çaylar



Artıq çəkidən qurtulmaq və hər zaman ideal bədən quruluşunu saxlamaq üçün maddələr mübadiləsinin hər zaman sürətli işləməsi lazımdır.

Milli.Az xəbər verir ki, zəif işləyən mübadilə daha çox kilo almanıza səbəb ola bilər. Bunun qarşısını almaq üçün gündəlik qida rasionunuza sadəcə bir neçə çay əlavə etməlisiniz.

**Yaşıl çay**

Aparılan bir çox araşdırma nəticəsində məlum olub ki, yaşıl çay metabolizmi sürətləndirməklə yanaşı, piyləri də əridir. Yaşıl çay metabolizmi 4 dəfə sürətləndirir.

**Zəncəfil çayı**

Zəncəfil çayı damarlardan qanın daha sürətli axmasını təmin edir və bədənin temperaturunu artırır. Bu durumda metabolizm sürətlənir. Bu çay həm də həzm sisteminin sağlam işləməsinə əngəl olan bakteriyaları öldürür.

**Darçın çayı**

Pəhrizdə olanlara tez-tez məsləhət görülən darçın ədviyyat olaraq istifadə edildiyi kimi, çay olaraq da istifadə edilə bilər.

**Mate çayı**

Arıqlamaq üçün olan çayların arasında ən çox tələbat olan çaylardan biridir. Cənubi Afrikada yetişən mate ağacının yarpaqlarından əldə edilən bu çay artıq çəkinin toplanmasına əngəl olur.

## "Qarabağ"-"Sevilya" oyununa 20 min bilet satılıb




"Qarabağ" klubunun UEFA Avropa Liqasının 2019-2020-ci il mövsümünün qrup mərhələsinin birinci turu çərçivəsində Bakıda İspaniyanın "Sevilya" komandasına qarşı keçirəcəyi oyuna indiyədək 20 mindən çox bilet satılıb.

Bu barədə AZƏRTAC-a "Qarabağ" klubunun mətbuat katibi Nurlan İbrahimov məlumat verib.

O bildirib ki, oyunla əlaqədar 30 min bilet satışa çıxarılıb. Ən ucuz biletin qiyməti 3 manatdır. Satışda 5, 15, 20, 50 və VIP sektor üçün 100 manatlıq biletlər də var.

Biletləri Tofiq Bəhramov adına Respublika Stadionunun kassalarından, "Gənclik", "28 Mall", "Park Bulvar" ticarət mərkəzlərindəki "iTicket" satış məntəqələrindən, 2 və 3 saylı "ASAN xidmət" mərkəzlərindən və "iticket.az" (onlayn) saytından əldə etmək mümkündür.

Sentyabrın 19-da Tofiq Bəhramov adına Respublika Stadionda keçiriləcək qarşılaşma saat 20:55-də başlayacaq. Qrupun Kiprdə oynanılacaq digər oyununda APOEL doğma meydanda Lüksemburqun "Düdelanj" komandasını qəbul edəcək.

## Vitiliqo nədir, müalicəsi varmı?



Vitiliqo xarici dərinin rəngsizləşməsi nəticəsində yaranan ağ ləkələrlə xarakterizə olunan bir dəri xəstəliyidir. Müasir tibb vitiliqonu lazımi müalicə tətbiq edildikdə sağalan bir xəstəlik kimi görür.

Dəridə piqment əmələ gətirən, bununla da dəriyə rəng verən melanosit hüceyrələri var. Müxtəlif səbəblərdən bu melanositlərin zərər görməsi nəticəsində piqment əmələ gəlməsi dayana bilər. Piqment çatışmazlığı nəticəsində də dəridə səpələnmiş və yamaqlı haşiyələri olan ağ sahələr (ləkələr) əmələ gəlir. Süd kimi diqqətə çarpacaq qədər bir ağlıqdır. Bu ləkələrin ölçüləri fərqlidir.

**Vitiliqo necə əmələ gəlir?**

Dediyimiz kimi, vitiliqonun ortaya çıxmasının səbəbi dəriyə rəng verən melanosit hüceyrələrinin azalması səbəbindən piqment istehsal edə bilməməsidir.

Bu hüceyrələrin niyə azaldığı dəqiq bilinməsə də, bəzi nəzəriyyələr ortaya çıxıb.

Genlərdə bəzi pozğunluqlar, immun sisteminin pisləşməsi nəticəsində bədəndə melanositlərin məhv olması və bu hüceyrələrin özünü məhv etməsi səbəbindən melanositlərin azaldığı düşünülür.

Bundan əlavə, Günəş yanığı, stress, müəyyən xəstəliklər və təsirləri kimi amillər bu xəstəlikdə aktiv rol oynayır.

Əlbəttə ki, irsi amillər də yaddan çıxmamalıdır. Ailənin tarixində bu xəstəliyin olması risk faktorudur.

**Necə müalicə olunur?**

Vitiliqo müalicəsində məqsəd melanosit hüceyrələrinin fəaliyyətini normallaşdırmaqdır.

Bunun üçün bəzi dərman və kremlər istifadə olunur.Ancaq son zamanlarda tətbiq olunan ən təsirli üsul yerli ultrabənövşəyi B (UVB) işıq terapiyasıdır. Yeni və təkmilləşdirilmiş bir metoddur. Bu işıq müalicəsi yalnız ləkələr olan bölgələrə tətbiq olunur. Beləliklə, bədənin digər hissələrini əks təsirlərdən qorumaq məqsədi daşıyır. Bu müalicə üçün bir neçə seans kifayət deyil. Müalicənin cavabı ən azı 10 seansdan sonra alınır. Bu seanslardan sonra xəstə normal həyatına davam edə bilər. Həftədə 2-3 seans tətbiq edilir.

**Röya Rasimqızı,**
***"İki sahil"***

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azneft" İB-nin rəhbərliyi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Elman İsmayılov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İcraya nəzarət və kargüzarlıq şöbəsinin rəisi İlhamə İbrahimovaya, əzizi

**İlham Abdullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Əmək Şəraiti Normalarının İşlənməsi İdarəsinin rəhbərliyi və əmək kollektivi SOCAR-ın Kompleks Qazma İşləri Trestinin Ümumi məsələlər üzrə müdir müavini Faiq Hüseynova, qardaşı

**Məhəmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Azneft" İB-nin "Qaz Anbarlarının İstismarı" İdarəsinin rəisi Xaliq Şəfiyev, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Metodik kabinetin müdiri Murad Şükürova, əzizi

**Eldənizin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**

Baş redaktorun I müavini: **İsmayıl Hacıyev**

Baş redaktorun müavini: **Rəşad Bağırov**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod № 200071**
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 17.09.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8182**
*İndeks:* **0151**, *Sifariş:* **3111**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.